

NƏ QƏDƏR Kİ MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİ VAR, AZƏRBAYCAN XALQI VAR, HEYDƏR ƏLİYEV ÜRƏKLƏRDƏ YAŞAYACAQDIR!


VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 80 (7335) / Cümə, 3 may 2019-cu il


# Azərbaycan Avropa ilə Asiya arasında körpülərin yaradılmasında mühüm rol oynayır



⇨ Bax: səh. 2



## Nazirlər Kabinetində qaçqın və məcburi köçkünlərin məskunlaşdığı binaların vəziyyətinə dair iclas keçirilib

⇨ Bax: səh. 4

## İlham Əliyev adına Olimpiya İdman Kompleksi yenidən qurulub



⇨ Bax: səh. 4

⇨ Bax: səh. 14



*UNESCO rəsmisi:*

### Bakı Forumu dünya qarşısında duran çağırışlarla bağlı səmərəli müzakirələr aparmaq üçün böyük imkanlar verir

⇨ Bax: səh. 12



"ATATÜRK YENİDƏN BAKIDA...":

### Ermənilər niyə əl-ayağa düşüb?

⇨ Bax: səh. 14

*Migel Silva:*

### Foruma çoxsaylı peşəkar mütəxəssislərin və ekspertlərin dəvət olunması təqdirəlayiqdir




10 Azərbaycanda söz və mətbuat azadlığı bütün demokratik prinsiplərə cavab verir

21 "Məhsul"da baş girələyən pul düşkünləri, tüfeyli "demokratlar"...

24 Bu kəndə 70 mindən çox turist səfər edib

# Azərbaycan Avropa ilə Asiya arasında körpülərin yaradılmasında mühüm rol oynayır

## BAKIDA V ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU İŞƏ BAŞLAYIB

### *Azərbaycan Prezidenti İlham Əliyev Forumun açılışında iştirak edib*




**Mayın 2-də Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlayıb.**

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak ediblər.

Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO, BMT-nin Sivilizasiyalar Alyansı, Dünya Turizm Təşkilatı, Avropa Şurası və ISESCO-nun tərəfdaşlığı ilə keçirilir. Tədbirdə 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmiləri iştirak edirlər.

2008-ci ildən Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən "Bakı Prosesi" 10 il ərzində müxtəlif qitələrdə yaşayan fərqli etnik, mədəni, dini və linqvistik mənsubiyyəti olan ayrı-ayrı insanlar və qruplar arasında qarşılıqlı anlayış çərçivəsində səmimiyyət və hörmətə əsaslanan fikir mübadiləsi üçün müsbət platforma yarada bilib. Ötən müddət ərzində Forumun coğrafiyası çox genişlənib. Nəticədə tədbirə qoşulan qurumların sayı xeyli artıb. Budəfəki Foruma Latın Amerikası ölkələrindən tutmuş Səudiyyə Ərəbistanı, Böyük Britaniya kimi dövlətlərin təmsilçiləri qatılıblar. Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində insanlar arasında həmrəylik yaratmaqda və müxtəlif icmalarda zorakılığa və ayrı-seçkiliyə qarşı mübarizədə mədəniyyətlərarası dialoqun mühüm rolu öyrənilir. Forum üç istiqamətdə davam edəcək.

Dövlətimizin başçısı V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılış mərasimində nitq söylədi.

#### Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

-Hörmətli xanımlar və cənablar.

Hörmətli qonaqlar.

Əvvəlcə Forumun bütün iştirakçılarını salamlayır, bu gün bizimlə birlikdə olduqlarına görə qonaqlarımıza təşəkkürümü bildirirəm. Burada 100-dən artıq ölkədən 500-dən çox qonağımız var. Bu, onu göstərir ki, bu Forum nisbətən qısa zaman ərzində cari gündəlikdə duran mövzulardan biri olan mədəniyyətlərarası dialoqun müzakirəsi baxımından qlobal platformaya çevrilib.

Xatirimdədir, 8 il əvvəl ilk forum təşkil ediləndə biz onun bu qədər geniş beynəlxalq dəstək qazanacağını təsəvvür edə bilməzdik. 2011-ci ildə bizim mədəniyyətlərarası dialoqa həsr edilmiş dünya forumunun təşkil edilməsi təşəbbüsümüz tariximiz, coğrafiyamız və düşüncəmizdən qaynaqlanırdı ki, dünyanı təhlükəsiz etmək üçün biz sivilizasiyalar, mədəniyyətlər və müxtəlif etnik qrup və dinlərin nümayəndələri arasında dialoqun təşviqi sahəsində çox fəal olmalıyıq.

Foruma göstərilən geniş beynəlxalq dəstək bizi ruhlandırır. Bu gün Forumun həmtəşkilatçıları arasında dünyanın aparıcı beynəlxalq təşkilatları var və bizim birgə səylərimiz mədəniyyətlərarası dialoqun təşviqi işinə töhfə verir.

Azərbaycan əsrlər boyu müxtəlif mədəniyyətlərin, etnik qrupların və dinlərin nümayəndələrinin birgə yaşayıb-yaratdığı və təmasda olduğu bir məkandır. Əsrlər boyu Azərbaycan dini dözümlülük və müxtəlif millətlərin birgə yaşadığı torpaq olmuşdur.

Tarix və coğrafiyamız nümayiş etdirir ki, biz yalnız tərəfdaşlıq və qarşılıqlı hörmət ruhunda uğura nail ola bilərik. Azərbaycanın bugünkü sürətli inkişafı da məhz bu mədəni irsimizə və cəmiyyətimizin bütün nümayəndələrinin nümayiş etdirdiyi həmrəyliyə əsaslanır. Biz tariximiz, tarixi abidələrimizlə fəxr edirik. Onlar da əsrlər boyu müxtəlif dinlərin nümayəndələrinin Azərbaycanda yaşayıb-yaratdıqlarını göstərir. Biz qədim tariximizlə fəxr edirik. Dünyanın ən qədim məscidlərindən biri qədim Şamaxı şəhərində yerləşir. Qafqazın ən qədim kilsələrindən biri olan Qafqaz Albaniyasına məxsus kilsə bizim qədim Şəki şəhərindədir.

Bizim tariximiz mədəni müxtəliflik tarixidir və bu gün həmin tarixi irs əsasında Azərbaycan dünyaya mədəniyyətlərarası dialoqun ölkələri yaxınlaşdırmağın, müxtəlif mədəniyyət və sivilizasiya nümayəndələri arasında yeni körpülərin qurulmasının yeganə yol olduğunu nümayiş etdirir.

Multikulturalizm bizim üçün həyat tərzidir. Bu söz nisbətən yeni olsa da, biz həmin ab-havada əsrlər boyu yaşamışıq. 2016-cı ilin Azərbaycanda "Multikulturalizm İli" elan olunması onu sübut edir ki, biz dünyanın diqqətini bu mühüm ideyaya cəlb etmək istəyirik. 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan edilib. Bu da bizim tarixi irsimizi, kökümüzü və dünyaya açıq olduğumuzu nümayiş etdirən, rəmzi məna daşıyan addım idi. Hesab edirəm ki, bu meyillər dünyada üstünlük təşkil etsə, dünyada təhlükəsizlik, proqnozlaşdırıla bilmə və sülh bərqərar olar.

Bizim üçün multikulturalizm həm də siyasətimizin mühüm elementlərindəndir. Azərbaycanda multikulturalizm üzrə beynəlxalq mərkəz yaradılıb. Biz bu dəyərləri təşviq edir və multikulturalizmin böyük gələcəyinin olduğunu nümayiş etdiririk. Bilirik ki, bu mövzu ilə bağlı müxtəlif fikirlər var. Ancaq hesab edirəm ki, bizim forum və bu mövzuda Azərbaycanda və dünyanın digər yerlərində təşkil olunan çoxsaylı beynəlxalq tədbirlər multikulturalizm dəyərlərinin təşviqi ilə bağlı səylər göstərdiyimizi aydın nümayiş etdirir.

Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu qlobal miqyasda və əlbəttə, bizim ölkəmiz üçün mühüm beynəlxalq tədbirlərdən biridir. Son illər ərzində Azərbaycan çoxsaylı beynəlxalq tədbirlərə ev sahibliyi edib. Dünya Dini Liderlərinin Forumunu, ənənəvi Bakı Humanitar Forumunu, yeddi dəfə Bakı Qlobal Forumunu təşkil etmişik. Nizami Gəncəvi Mərkəzi tərəfindən təşkil edilən həmin forum da siyasi inkişaf və mədəniyyət dialoqu mövzularının müzakirəsi üçün çox vacib platformadır. Digər tədbirlər də təşkil edilir və bununla da biz dünya ictimaiyyətinin diqqətini bu mühüm məsələlərə yönəltməyə çalışırıq.

Əminəm ki, bu gün və sabah Forum çərçivəsində aparılan müzakirələr problemləri aşkar edərək çıxışçılara fikirlərini bildirmək imkanı verməklə yanaşı, tərəfdaşlıq, həmrəylik və əməkdaşlığı gücləndirəcək, nəticədə mədəniyyətlər arasında körpü yaradacaq.

Ötən il biz "Bakı Prosesi"nin 10 illiyini qeyd etdik. Bu da bizim fəxr etdiyimiz bir təşəbbüsdür. Yadımdadır, 2008-ci ildə bu təşəbbüs irəli sürülən kimi, o, dərhal beynəlxalq diqqəti özünə cəlb etdi. İlk dəfə məhz Azərbaycan Avropa Şurasına və İslam Əməkdaşlıq Təşkilatına üzv olan dövlətlərin mədəniyyət nazirlərini bir araya gətirdi. 100-dən artıq dövlətin nümayəndəsi Bakıda toplaşdı və əməkdaşlıq perspektivlərini müzakirə etdi. Biz eyni tərkibdə nazirlərin iştirakı ilə daha bir tədbiri 2009-cu ildə təşkil etdik. Bu təşəbbüs "Bakı Prosesi" adlandırıldı və bu gün həmin proses Avropa ilə müsəlman dünyası arasında dialoq üçün mühüm vasitədir.

Həm İslam Əməkdaşlıq Təşkilatı, həm də Avropa təsisatlarına eyni zamanda üzv olan nadir ölkələrdən biri olan Azərbaycan təmasların qurulması və dialoq üçün imkanların yaradılmasında özünün təbii və əminəm ki, müsbət rolunu oynayır. Bizim dialoqa ehtiyacımız var. Mədəniyyət və dinlərarası münasibətlər, siyasi gündəlik, iqtisadi əməkdaşlıq və təhlükəsizlik məsələlərində dialoq zəruridir. Forumun adı belə dialoq adlanır. Yəni, biz məhz bunu dünyaya təqdim edirik və bu təşəbbüs geniş beynəlxalq dəstəyə malikdir.

Bu gün "Bakı Prosesi" BMT və digər beynəlxalq təşkilatlar tərəfindən dəstəklənir. Əminəm ki, "Bakı Prosesi"nin böyük gələcəyi var.

Bu qəbildən olan forumlar mədəniyyətlərarası dialoq mövzusuna diqqəti cəlb edir, yeni ideyalar və yanaşmalar ortaya qoyulur. Müxtəlif ölkələrdə və beynəlxalq təşkilatlarda mühüm qərar qəbul edənlər üçün bu, düzgün qərarların verilməsi məqsədilə yaxşı və müsbət platformadır. Bu baxımdan Azərbaycan həm daxildə, həm də xaricdə qarşılıqlı anlaşma və əməkdaşlığa söykənən siyasət yürüdür. Biz körpülər qururuq. Biz Avropa ilə Asiya arasında yerləşirik. Əlbəttə, bizim coğrafiyamız tariximizə təsir edib və bugünkü inkişafımıza da təsir etməkdədir.

Bu gün nisbətən gənc müstəqil dövlət olan Azərbaycan Avropa ilə Asiya arasında körpülərin yaradılmasında mühüm rol oynayır. Siyasi, iqtisadi, mədəni körpülər, eyni zamanda, praktiki baxımdan da nəqliyyat bağlılığı yaradan körpülər.

Ötən il biz müstəqilliyimizin 27-ci ildönümünü qeyd etdik. Bu müddət ərzində Azərbaycan müasir infrastruktura və gələcəklə bağlı aydın baxışa malik, inkişaf edən ölkəyə çevrilib. Uzun illər üzləşdiyimiz əsas problemlərdən biri Ermənistanın ölkəmizin ərazisini işğal etməsidir. İyirmi beş ildən artıqdır ki, Ermənistan bizim tarixi torpağımız olan Dağlıq Qarabağı və Azərbaycanın digər 7 rayonunu işğal etməkdə davam edir. Bu, beynəlxalq hüququn kobud pozulmasıdır. Bizim xalqa qarşı etnik təmizlənmə aparılıb, Ermənistanın təcavüzü və işğalı nəticəsində bir milyondan artıq insan evlərindən didərgin salınıb. ATƏT işğal edilmiş ərazilərə 2 dəfə faktaraşdırıcı missiya göndərib və həmin hesabatlar tarixi irsimizin və dini abidələrimizin dağıdıldığını aydın şəkildə göstərir.

BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının işğal edilmiş ərazilərimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Bu qətnamələr kağız üzərində qalıb. Bu, onun göstəricisidir ki, bəzən BMT Təhlükəsizlik Şurasının qətnamələri uzun illər ərzində icra edilmir. Onların yerinə yetirilmə mexanizmi ya mövcud deyil, ya da tətbiq edilmir. Bunun nəticəsində isə Azərbaycanın torpaqları işğal altında qalmaqdadır.

⇨ Davamı 5-ci səhifədə

# Prezident İlham Əliyev İslam Əməkdaşlıq Təşkilatının Baş katibini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-Osaymi V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun əhəmiyyətini qeyd edərək "Bakı Prosesi"nin artıq təsisatlanmış bir mexanizmə çevrildiyini söylədi. Bu gün Azərbaycanın nəqliyyat qovşağı olmaqla yanaşı, dialoq və əməkdaşlığın da qovşağına çevrildiyini qeyd edən Yusif bin Əhməd Əl-Osaymin Azərbaycanı dinc birgə yaşayışın rəmzi kimi xarakterizə etdi.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibinə Forumda iştirakına görə təşəkkürünü bildirən Prezident İlham Əliyev qonağın Forumun açılış mərasimində söylədiyi fikirlərin əhəmiyyətini vurğuladı. Dövlətimizin başçısı "Bakı Prosesi"nin mühüm beynəlxalq platforma olduğunu dedi. Bu prosesin 10 ildən artıq davam etdiyini və bu gün dünyada mədəniyyətlərarası əlaqələrin və dinlərarası əməkdaşlığın qurulmasında ən səmərəli mexanizmlərdən biri kimi tanındığını diqqətə çatdırdı.

Görüşdə İslam dünyasında birliyin və həmrəyliyin vacibliyi qeyd olundu və Azərbaycanın bu istiqamətdə gördüyü işlər təqdir edildi, İslam Əməkdaşlıq Təşkilatının gündəliyində duran məsələlərə dair fikir mübadiləsi aparıldı.

## PREZİDENT İLHAM ƏLİYEV YAPONİYA İMPERATORUNU TƏBRİK EDİB



Prezident İlham Əliyev Yaponiyanın İmperatoru Naruhitoya təbrik məktubu göndərib.

Təbrikdə deyilir: "Əlahəzrət, Yaponiyanın 126-cı İmperatoru olaraq Taxta çıxmağınız münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan ilə Yaponiya arasındakı ikitərəfli münasibətlərin hazırkı səviyyəsi məmnunluq doğurur. Ümidvaram ki, ölkələrimizi birləşdirən dostluq əlaqələri, müxtəlif sahələri əhatə edən qarşılıqlı faydalı əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Yaponiya xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar arzulayıram".

## PREZİDENT İLHAM ƏLİYEV POLŞALI HƏMKARINI TƏBRİK EDİB

Prezident İlham Əliyev Polşa Prezidenti Andjey Dudaya təbrik məktubu göndərib.

Təbrikdə deyilir: "Hörmətli cənab Prezident, ölkənizin milli bayramı - Konstitusiya Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm.

Azərbaycan-Polşa əlaqələri zəngin tarixə və xoş ənənələrə malikdir. İnanıram ki, dövlətlərarası münasibətlərimizin hazırkı yüksək səviyyəsi siyasi təmaslarımızın müvəffəqiyyətlə davam etdirilməsi, iqtisadi və mədəni sahələrdə əməkdaşlığımızın daha da dərinləşdirilməsi üçün daim möhkəm təməl olacaqdır.

Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Polşa xalqına əmin-amanlıq və rifah arzulayıram".

## Azərbaycan BMT-nin Sivilizasiyalar Alyansı ilə yaxından əməkdaşlıq edir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinosu qəbul edib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinosa V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirakına və ölkəmiz haqqında söylədiyi xoş sözlərə görə təşəkkürünü bildirdi. Dövlətimizin başçısı Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansı ilə yaxından əməkdaşlıq etdiyini vurğuladı.

2007-ci ildə ATƏT-in fəaliyyətdəki sədri olarkən Azərbaycan Prezidenti İlham Əliyevlə ilk görüşdən danışan qonaq həmin söhbət zamanı Azərbaycanın dövlət başçısının söylədiyi fikirləri bu gün də xatırladığını dedi. Forumun təşkilinə görə minnətdarlığını bildirən Migel Anxel Moratinos Bakının dünyada dialoq mərkəzi kimi tanındığını, "Bakı Prosesi"nin önəmli bir platformaya çevrildiyini və zamanında irəli sürülmüş təşəbbüs olduğunu vurğuladı. Bildirdi ki, bu prosesin coğrafiyasının genişləndirilməsi və Azərbaycanın multikulturalizm ənənələrinin təşviqi böyük əhəmiyyət daşıyır.

Söhbət zamanı Azərbaycanın BMT-nin Sivilizasiyalar Alyansına verdiyi dəstək yüksək qiymətləndirildi.

# Ölkəmiz Avropa Şurasının layiqli üzvüdür



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 2-də Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqonini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoni Azərbaycanın Avropa Şurasının layiqli üzvü olduğunu bildirərək "Bakı Prosesi"ni Avropa Şurası üçün də uğurlu platforma adlandırdı. 2008-ci ildən bu prosesin genişlənərək mühüm hərəkata çevrildiyini deyən qonaq qeyd etdi ki, mədəniyyətlərarası dialoq insanların həyatını dəyişə biləcək vacib prosesdir. "Bakı Prosesi"nin başladığı dövrdən diplomatik münasibətlərdə yenilik, müdrik və cəsarətli addım olduğunu deyən Avropa Şurasının Baş katibinin müavini bu prosesin davamlı olması üçün verdiyi dəstəyə görə Prezident İlham Əliyevə təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoninin Forumun açılış mərasimində Azərbaycan haqqında söylədiyi fikirləri yüksək qiymətləndirdi. Dövlətimizin başçısı Forumda vacib tövsiyələr irəli sürüləcəyinə əminliyini ifadə etdi, bu cür önəmli beynəlxalq toplantının mədəniyyət sahəsində körpülərin, dialoqun qurulmasına mühüm töhfə verdiyini bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın həm Avropa Şurasına, həm də İslam Əməkdaşlıq Təşkilatına üzv olduğunu qeyd edərək ölkəmizin "Bakı Prosesi" vasitəsilə mədəniyyətlərarası və sivilizasiyalararası dialoqu təşviq etdiyini bildirdi. Hazırkı şəraitdə "Bakı Prosesi"nin coğrafiyasının genişləndirilməsinin zəruriliyini qeyd edən dövlətimizin başçısı Azərbaycanın sivilizasiyalararası dialoqu təşviq etməklə bərabər, sivilizasiyalardaxili dialoqu da dəstəklədiyini dedi.

Görüşdə Avropa Şurasının gündəliyində duran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# *Prezident İlham Əliyev:* Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır

Heç bir ölkə sabitlik olmadan inkişaf edə bilməz. Bu gün biz görürük ki, dünyanın müxtəlif yerlərində sabitlik pozulanda nə investisiyalar gəlir, nə sosial rifah artır. Ümumiyyətlə, ölkələrin taleyi çox acı olur. Azərbaycanda sabitliyin təminatçısı isə Azərbaycan xalqıdır. Məhz xalq-iqtidar vəhdəti bu sabitliyi şərtləndirir. Bu vəhdət imkan verir ki, biz uzunmüddətli inkişaf strategiyamızı planlaşdıraq. Bu, imkan verir ki, bu gün Azərbaycana milyardlarla dollar xarici sərmayə qoyulur və Azərbaycan xalqı rahat, əmin-amanlıq, təhlükəsizlik şəraitində yaşayır. Ona görə bundan sonra da biz elə işləməliyik ki, Azərbaycan daim inkişaf etsin. Mən şübhə etmirəm ki, Azərbaycanda bundan sonra da ictimai-siyasi sabitlik təmin olunacaqdır.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin yenicə çapdan çıxmış 83-cü kitabında yer alan bu fikirlər dövlətimizin başçısının 2017-ci il noyabrın 14-də Yeni Azərbaycan Partiyasının yaradılmasının 25 illiyinə həsr olunmuş təntənəli yubiley mərasimində söylədiyi nitqindən götürülüb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2017-ci ilin oktyabr-noyabr aylarını əhatə edir.

Kitaba Prezident İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının Soçi şəhərində keçirilən iclasında, İstanbulda D-8 IX Zirvə görüşündə, Azərbaycan, İran və Rusiya liderlərinin Tehranda keçirilən Zirvə görüşündə çıxışlarının və prezidentlərin mətbuata bəyanatlarla çıxışlarının, Belçikaya işgüzar səfəri zamanı "Şərq tərəfdaşlığı" Sammitinin plenar iclasında "Avropa İttifaqı ilə tərəfdaşlıq Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir" mövzusunda çıxışının mətnləri daxil edilib.

Nəşrdə dövlətimizin başçısının Azərbaycana səfərə gəlmiş Bolqarıstan Prezidenti ilə görüşü barədə informasiya, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü, iki ölkə arasında sənədlərin imzalanma mərasimi barədə məlumatlar, dövlət başçılarının mətbuata bəyanatlarla çıxışlarının mətnləri yer alıb.

Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Çoxcildliyin 83-cü kitabında Prezident İlham Əliyevin Polşa, Ukrayna, İran, Monteneqro, İtaliya, Braziliya, Qazaxıstan və digər dövlətlərin, Avropa İttifaqı, ATƏT, Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurası və NATO-nun ölkəmizə səfər etmiş yüksəkvəzifəli şəxslərini, MDB Sərhəd Qoşunları Komandanları Şurasının Bakıda keçirilən 78-ci iclasının iştirakçılarını qəbul etməsinə dair materiallar toplanıb.




Oxucular bu nəşrdə dövlətimizin başçısının Nazirlər Kabinetinin 2017-ci ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında, Azərbaycanda 2 milyardıncı ton neftin hasil olunması münasibətilə keçirilən təntənəli mərasimdə söylədiyi nitqlərin, Bakı-Tbilisi-Qars dəmir yolunun açılış mərasimində çıxışının, Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı ilə bağlı "Euronews" telekanalının Azərbaycan və Türkiyə prezidentləri və Gürcüstanın Baş naziri ilə müsahibəsinin mətnləri ilə tanış ola bilərlər.

Kitaba, həmçinin Prezident İlham Əliyevin şahmat üzrə Avropa komanda çempionatının qaliblərindən ibarət nümayəndə heyəti ilə görüşündə çıxışının mətni, Bakı Metropoliteninin 50 illik yubileyinə həsr olunmuş mərasimin, Uşaqların IV Ümumrespublika Forumunun iştirakçılarına müraciətlərinin mətnləri, ayrı-ayrı ölkələrin dövlət başçılarına məktubları daxil olunub.

Dövlətimizin başçısının Gəncə şəhərinə, Abşeron, Tərtər və Ağcabədi rayonlarına səfərləri, bölgələrdə iqtisadi, sosial, mədəniyyət obyektlərinin açılışlarında iştirakına, ictimaiyyət nümayəndələri ilə görüşlərinə dair materiallarla da bu kitabda tanış olmaq mümkündür.

Kitabda "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri verilib.

"Azərnəşr" tərəfindən buraxılan 83-cü kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## İlham Əliyev adına Olimpiya İdman Kompleksi yenidən qurulub



Ümummilli liderimiz Heydər Əliyev deyib: "Bədən tərbiyəsi və idmanla geniş məşğul olan xalq, ölkə həmişə fiziki və mənəvi cəhətdən sağlam olur".

Ulu Öndərin tövsiyələri əsas tutularaq Naxçıvan Muxtar Respublikasında idman sağlam gənc nəslin yetişməsində əsas amil kimi götürülür. Müasir idman infrastrukturu yaradılır, mövcud idman obyekt və qurğularından səmərəli istifadə diqqətdə saxlanılır. Görülən işlərin davamı olaraq, İlham Əliyev adına Olimpiya İdman Kompleksi yenidən qurulub.



Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, mayın 2-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Olimpiya İdman Kompleksində görülən işlərlə tanış olub.

Məlumat verilib ki, kompleksdə bütün zəruri infrastruktur yenilənib, tavan və döşəmələr dəyişdirilib, işıqlandırma, havalandırma və istilik sistemləri yenidən qurulub. Hər biri 220 tamaşaçı tutumu olan iki idman zalında minifutbol, basketbol, voleybol, güləş, karate, boks, ağır atletika və digər idman növləri üzrə yarış və məşqlərin keçirilməsi üçün lazımi şərait yaradılıb. Yarış nəticələrinin göstərilməsi üçün elektron məlumat lövhəsi qurulub. Kompleksdə idman ləvazimatlarının satış bölməsi və bufet istifadəyə verilib, iş, soyunub-geyinmə və digər xidməti otaqlarda lazımi şərait yaradılıb.

Ali Məclisin Sədri kompleksin imkanlarından səmərəli istifadə olunması və yaradılan şəraitin qorunub saxlanılması barədə tapşırıqlar verib.



## Nazirlər Kabinetində qaçqın və məcburi köçkünlərin məskunlaşdığı binaların vəziyyətinə dair iclas keçirilib



Mayın 2-də Nazirlər Kabinetində qaçqın və məcburi köçkünlərin məskunlaşdığı binaların vəziyyətinə dair iclas keçirilib.

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş nazirin müavini Əli Əhmədovun sədrlik etdiyi iclasda müvafiq dövlət qurumlarının rəhbərlərinin və nümayəndələrinin iştirakı ilə müzakirələr aparılıb.

Baş nazirin müavini bildirib ki, Prezident İlham Əliyev bu kateqoriyadan olan vətəndaşlarımızla bağlı məsələni sosial siyasətin prioritet istiqamətlərindən biri kimi müəyyən edib. Dövlətimizin başçısı tərəfindən verilən tapşırıqlar icra olunur, məcburi köçkünlərin problemlərinin həlli istiqamətində vacib addımlar atılır. Əli Əhmədov paytaxt ərazisində yerləşən məcburi köçkünlərin məskunlaşdığı binaların nəzarətdə saxlanılmasının vacibliyini vurğulayıb.

İclasda paytaxt ərazisində məcburi köçkünlərin məskunlaşdığı binalarda yoxlamalar aparan Fövqəladə Hallar Nazirliyinin arayışı dinlənilib.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev bu kateqoriyadan olan insanların kommunal problemlərlə üzləşməməsi üçün hazırda aidiyyəti qurumların komitə ilə birgə xüsusi komissiyanın tərkibində işlədiyini bildirib. Sədr komissiyanın artıq bir neçə binaya baxış keçirdiyini və mövcud vəziyyətlə bağlı rəy hazırladığını deyib.

Bu məsələnin dövlətimizin başçısının nəzarətində olduğunu vurğulayan Baş nazirin müavini komissiyaya qaçqın və məcburi köçkünlərin məskunlaşdığı binaların vəziyyəti, həmin binalarda elektrik və qaz xətlərində olan nasazlıqların aradan qaldırılması istiqamətində görülən işlərlə bağlı tez bir zamanda Nazirlər Kabinetinə məlumat verilməsini tapşırıb.

## SUTKA ƏRZİNDƏ ATƏŞKƏS 24 DƏFƏ POZULUB

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyindən Trend-ə verilən məlumata görə, Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan Avropa ilə Asiya arasında körpülərin yaradılmasında mühüm rol oynayır

## BAKIDA V ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU İŞƏ BAŞLAYIB

### *Azərbaycan Prezidenti İlham Əliyev Forumun açılışında iştirak edib*

⇨ Əvvəli 2-ci səhifədə

İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, ATƏT, Avropa Şurası və digər beynəlxalq təşkilatlar Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qətnamə və qərarlar qəbul ediblər. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Bizim ərazi bütövlüyümüz bərpa edilməlidir və münaqişə beynəlxalq hüququn normaları, BMT Nizamnaməsi, Təhlükəsizlik Şurasının müvafiq qətnamələri və Helsinki Yekun Aktına əsasən həll edilməlidir.

Bu böyük problem və humanitar fəlakətə baxmayaraq, Azərbaycan müasir ölkəyə çevrilə bilib. Bizim fəal xarici siyasətimiz var. İqtisadi siyasətimiz ölkə əhalisinin yaşayış səviyyəsinin yaxşılaşdırılmasına imkan yaradıb. Xarici siyasət sahəsində Azərbaycan etibarlı tərəfdaşdır. Biz İslam Əməkdaşlığı Təşkilatının fəal üzvüyük. Bizim Avropa İttifaqı ilə yaxın münasibətlərimiz var. Avropa İttifaqının 9 üzvü ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında sənədlər qəbul edilib. Qeyd etdiyim kimi, "Bakı Prosesi" Avropa ilə müsəlman dünyası arasında körpülərin qurulması baxımından bizim töhfəmizdir.



Yəni, bizim xarici siyasət gündəliyimiz əməkdaşlığın, tərəfdaşlığın gücləndirilməsi və qarşılıqlı fayda üzərində qurulub. Bizim xarici siyasətimiz bizə əhəmiyyətli beynəlxalq nəqliyyat layihələrini reallaşdırmağa imkan yaradır. Müxtəlif ölkələrlə və tərəfdaşlarla yaxşı əməkdaşlıq olmadan bu layihələrin icrası mümkünsüz olardı. Son illər ərzində bizim iqtisadi inkişafımız enerji layihələrimizə söykənib. Qonşularımız və tərəfdaşlarımızla birlikdə biz şaxələndirilmiş neft-qaz kəmərləri vasitəsilə Xəzər dənizini Qara dənizlə və Xəzəri Aralıq dənizi ilə birləşdirə bildik. Bu isə bizim, qonşularımızın və dünyanın bir sıra ölkələrinin enerji təhlükəsizliyinin təmin edilməsi deməkdir. Bu gün biz Cənub Qaz Dəhlizinin həyata keçirilməsi üzərində fəal çalışırıq. Bu, artıq yeni miqyasda həyata keçirilən layihədir. O, 7 ölkəni birləşdirir və həmin ölkələrə layihədən faydalanmağa imkan yaradır.

Son 15 ildə bizim iqtisadiyyatımız ən sürətlə inkişaf edən iqtisadiyyatlar sırasında olub. Biz mühüm islahatlar həyata keçirmişik ki, bu da bizə ölkədə biznes mühitinin yaxşılaşdırılması və sərmayə cəlb etmək imkanı yaradıb. Dünya Bankının sonuncu "Doing Business" hesabatına görə, Azərbaycan dünyada 25-ci yerdə qərarlaşıb. Ölkədə xarici sərmayələr üçün münbit biznes mühiti mövcuddur.

Biz xarici borcumuzun azaldılması strategiyası üzərində çalışırıq. O, onsuz da aşağı səviyyədədir - ümumi daxili məhsulumuzun 19 faizi səviyyəsində. Eyni zamanda, biz iqtisadiyyatımızın şaxələndirilməsi, yoxsulluq və işsizliyin tamamilə aradan qaldırılması üzərində çalışırıq. Bu, gündəliyimizdə duran başlıca məsələlərdəndir. Çünki bizim iqtisadi inkişafımız insanlarımızın yaşayış səviyyəsinin yaxşılaşdırılması ilə nəticələnir. On beş il öncə əhalinin 50 faizi yoxsulluq səviyyəsində yaşayırdı. Bu gün bu göstərici 5-6 faiz səviyyəsindədir.




Yoxsulluq, işsizlik, sosial bərabərsizlik və savadsızlıq radikalizmin və ekstremizmin mənbələrindəndir. Azərbaycan beynəlxalq terrorizm, radikalizm və ekstremizmlə mübarizədə çox fəal tərəfdaşdır. Bununla yanaşı, biz dünyada İslam sivilizasiyasının dəyərlərini təbliğ edirik. Biz dünyanın müxtəlif yerlərində öz mədəniyyətimizi və digər tərəfdaş müsəlman dövlətlərinin mədəniyyətini əks etdirən çoxsaylı sərgi və təqdimatlar keçiririk.

Bağlılıq haqqında danışarkən istərdim Azərbaycanın iştirak etdiyi nəqliyyat layihələrini xüsusi qeyd edim. Biz bu layihələrə yalnız nəqliyyat bağlılığı kimi baxmırıq. Əslində, bu layihələr regionda ab-havanı dəyişir. Onlar geniş beynəlxalq əməkdaşlıq formatını yaradır. Azərbaycan qədim İpək Yolu üzərində yerləşir. Son illər yaratdığımız müasir nəqliyyat infrastrukturu artıq Azərbaycanı vacib tranzit ölkəyə çevirib. Yaxın qonşularımız və digər tərəfdaşlarımızla sıx əməkdaşlıq olmasa idi, biz tranzit ölkəyə çevrilə bilməzdik. Bunun üçün qonşular və tərəfdaşlar tələb olunur.

Nəqliyyat sahəsinə qoyulan sərmayələr avtomatik olaraq regionda daha da proqnozlaşdırıla bilən vəziyyət yaradır ki, burada ölkələr birgə faydalanır. Bizim siyasətimiz əməkdaşlıq, qarşılıqlı anlaşma və qarşılıqlı fayda vasitəsilə məqsədlərimizə nail olmaq və ölkəni gücləndirməkdən ibarətdir.

Enerji təhlükəsizliyi ilə bağlı siyasətimizdə də biz hər zaman istehsalçı, tranzit dövlətlər və istehlakçılar arasında lazımi balansı tapmağa çalışırıq. Burada hər bir tərəf fayda görməsə, uğurdan söhbət gedə bilməz. Biz hər zaman tərəfdaşlarımızın ehtiyacı olduğu vaxt onlara dəstək verməyə hazır olmalıyıq. Eyni zamanda, lazım gəldikdə onlardan da eyni dəstəyi gözləyirik.

Azərbaycan, həmçinin Şimal-Cənub nəqliyyat dəhlizinin fəal iştirakçısıdır. Xəritəyə baxsanız Şərqdən-Qərbə, Şimaldan-Cənuba gedən nəqliyyat marşrutlarının ölkəmizin ərazisindən keçdiyini görərsiniz. Buna nail olmaq üçün isə gərgin işləməli olduq. Burada coğrafiya kifayət deyil, bu, yalnız ilkin şərt, zəruri element sayıla bilər. Biz nəqliyyat infrastrukturuna - dəniz limanları, dəmir yolları, hava limanları və magistral yollara böyük sərmayə yatırdıq. Beləliklə, bu gün coğrafi və nəqliyyat mərkəzi olmaq baxımından Azərbaycan tərəfdaşlarına çoxlu imkanlar təklif edir.

Əziz dostlar, Azərbaycanda keçirilən bugünkü Forum əlamətdar hadisədir. Bir daha bu Forumda iştirak edən bütün tərəfdaşlar, tərəfdaş təşkilatlar, ziyalılar, alimlər, siyasətçilər, ictimai xadimlər, QHT və media nümayəndələrinə minnətdarlığımı bildirirəm. Əminəm ki, müzakirələr səmərəli olacaq və bunun nəticəsində müvafiq tövsiyələr veriləcək və ölkələrin gələcəyi və regional inkişafla bağlı qərar qəbul edən şəxslər bizim tövsiyələrimizi nəzərə alacaq, beləliklə, dünya daha sabit və təhlükəsiz olacaq.

Çox sağ olun.

* * *

Sonra qədim sivilizasiyalara və müasir Azərbaycandakı tolerantlıq mühitinə həsr edilmiş videoçarx nümayiş olundu.

* * *

Tədbirin moderatoru Forumun yüksək səviyyədə təşkilinə və dərin məzmunlu çıxışına görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Qeyd etdi ki, "Bakı Prosesi" sülhsevər qüvvələri gücləndirməklə münaqişələri aradan qaldırmağa kömək edən prosesdir.

* * *

Forumda çıxış edən BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel MORATİNOS dedi:

-Zati-aliləri Azərbaycan Respublikasının Prezidenti.

Hörmətli qonaqlar, xanımlar və cənablar, hörmətli dostlar.

Mənim üçün bu cür möhtəşəm Bakı şəhərində olmaq çox fərəhləndirici faktdır. Bu, mənim üçün həm hisslər, həm məsuliyyət ehtiva edən bir faktdır. Hisslər və emosiyalar ona görədir ki, möhtərəm cənab Prezident, mən birinci dəfədir Azərbaycana, Bakıya təşrif buyururam. Buraya BMT-nin Sivilizasiyalar Alyansının Ali nümayəndəsi kimi gəlmişəm. Məsuliyyət ondan ibarətdir ki, Sivilizasiyalar Alyansı "Bakı Prosesi"nin tərəfdaşıdır. Məhz bu səbəbdən çıxışım, fikirlərim mənim üçün böyük məna kəsb edir. Zənnimcə, V Forumun başlığı açıq-aydın ismarıcı ehtiva edir. Buraya üç açar söz daxildir: dialoq, dialoqun qurulması və fəaliyyət naminə. Mən istərdim üçüncü konsepsiyanı incələyim. Dialoq, fəaliyyət və bunun nəticəsində yaranan alyans və yaxud ittifaq. Mən hesab edirəm ki, bu Forum vaxtında təşkil olunub.

Forumda müzakirə olunan əsas mövzulardan biri - dünyada baş verən münaqişələr haqqında danışan BMT-nin Ali nümayəndəsi bu problemin kökündə dinin və imanın deyil, dinlə manipulyasiya edərək insanları bir-birinə qarşı qoyan qüvvələrin dayandığını əsaslandırdı. İnsanları bu tendensiyanın yaratdığı zorakı ekstremizmdən və terrorizmdən qorumaq üçün icmaların, beynəlxalq təşkilatların, bütün sülhsevər qüvvələrin birliyinə ciddi ehtiyac olduğunu bildirən Migel Anxel Moratinos bununla bağlı BMT-nin hazırladığı sülh konsepsiyası barədə məlumat verdi və "Bakı Prosesi"nin bu konsepsiyaya mühüm töhfələr verəcəyinə əminliyini ifadə edərək dedi:

-Xanımlar və cənablar, zənnimcə, mədəniyyətlərarası dialoqa həsr olunmuş bu forum dünyaya çox açıq-aydın mesaj göndərən bir platformadır. Bu, sülh mesajıdır.

Möhtərəm cənab Prezident Əliyev, mən qeyd etməliyəm ki, "Bakı Prosesi", mədəniyyətlərarası dialoqu təşviq edən və sülhü bərqərar edən əsas elementlərə çevrilir. Görürəm ki, bizim işimizdə sinerji və tamamlıq, həmahənglik var. Biz illər ərzində çalışaraq bir-birimizi dəstəkləyirik, bir-birimizin işinə töhfə veririk, tərəfdaşlığımızı gücləndiririk. Əslində, Bakı BMT-nin Sivilizasiyalar Alyansının regional habına çevrilə bilər. Bir daha qeyd etməliyəm ki, müasir, mürəkkəb dünyada biz yeni yanaşmalara möhtacıq. Yeni alyanslar formalaşdırmalıyıq. Biz yeni alyanslar quraraq bu gün işləməliyik.

Yekunda, möhtərəm cənab Prezident, icazənizlə vurğulamaq istəyirəm ki, sülh üçün biz müntəzəm səylər göstərməliyik və birlikdə çalışaraq səlahiyyətlərimiz və məsuliyyətimiz çərçivəmizdə nəyəsə nail ola bilərik. İspan dilində çox möhtəşəm bir söz var: "Kombiventiya". Yəni, vahid bir sözdür. Birgə yaşamaq. İngilis dilində "Live in together", İspan dilində "Kombiventiya". "Kombiventiya" "Bakı Prosesi"nin ruhuna aid olmalıdır. Çox sağ olun.

⇨ Davamı 6-cı səhifədə

# Azərbaycan Avropa ilə Asiya arasında körpülərin yaradılmasında mühüm rol oynayır

## BAKIDA V ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU İŞƏ BAŞLAYIB

### *Azərbaycan Prezidenti İlham Əliyev Forumun açılışında iştirak edib*



⇨ Əvvəli 5-ci səhifədə

**UNESCO-nun Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Nada Al-NAŞİF dedi:**

-Cənab Prezident Əliyev, müxtəlif beynəlxalq təşkilatlardan olan qonaqlar, xanımlar və cənablar.

Burada yenidən Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etməkdən məmnunluğumu ifadə edirəm. UNESCO bu tədbirə yarandığı ilk günlərdən etibarən xüsusi əhəmiyyət verib və cənab Prezidentin burada iştirakı, eləcə də Azərbaycan hökuməti mədəniyyətlərarası dialoqun və qarşılıqlı anlaşmanın təbliği və təşviqində Bakı Forumu şəklində təsbit edilən bir proqramın həyata keçirilməsində xüsusi rol oynayır. Bu beynəlxalq mədəniyyətlərarası dialoq proqramında çox uzunmüddətli bir hədəf mövcuddur. Biz bu məsafəni birlikdə qət etmişik. Forumun əsasında duran bu konsepsiya bizim hamılıqla və "daha az daha çox olacaqdır" prinsipi ilə çalışaraq daha dolğun bir strukturun yaradılmasına, müxtəlif debat və müzakirələrlə konkret əməli tədbirlər görməyimizə kömək edəcək. Bizim bu V Forumun keçirilməsindən əsas məqsədimiz də baxışlarımızın yenilənmiş innovasiya və ruhun fonunda məhz bu tədbirlərin təsirini və davamlılığını təmin edə bilməkdir. UNESCO da Azərbaycan Respublikasının Hökuməti ilə bu prosesdə yaxından əməkdaşlıq edir.

Nada Al-Naşif zorakılıq, etinasızlıq, münaqişələr, cəmiyyətlərdəki qütbləşmə, məcburi köçkünlərlə bağlı problemlər və bu qəbildən digər müasir çağırışların qarşısının alınması üçün səyləri birləşdirməyin zəruriliyini vurğulayaraq dedi:

-Bizim əsas məqsədimiz müsbət dəyişiklikləri insan hüquqları və qarşılıqlı hörmət əsasında təbliğ etmək, müsbət istiqamətdə daha ədalətli, inklüziv və dayanıqlı bir cəmiyyət formalaşdırmağa çalışmaqdır. Bu, davamlı inkişaf hədəflərinin də ümdə prinsipləridir ki, bu da heç kəsi arxada qoymamaq prinsipi ilə həmahəngdir. Bütün bunların hamısı müxtəlifliyin hər zaman güc və qüdrət mənbəyi olduğunu nümayiş etdirmək və bunlardan cəmiyyətlərdə hamının bəhrələnməsinə imkan yaratmaqdır. UNESCO-nun da əsas məqsədi qadınların və kişilərin təfəkkürünə sülh prinsiplərini aşılamaqdır. Bir sıra beynəlxalq təşkilatların məqsədi də cəmiyyəti bu hədəflərə doğru irəli aparmaqdır. BMT də 2013-cü ildən bəri icra olunan beynəlxalq onillik proqramında mədəniyyətlərin dialoqunu təşviq edir. Bizim bu 10 illik proqramımız 2022-ci ildə başa çatacaq. Biz artıq nailiyyətlərimizi nəzərdən keçirərək 2022-ci ildən sonra nələr etmək barədə düşünəcəyik. Bu fürsət bizə yeni təşəbbüslərlə çıxış etməyə, illər boyunca topladığımız təcrübəmizi, "Bakı Prosesi"ni bütün maraqlı tərəflərlə birlikdə daha da irəli aparmağa kömək edəcək.

Nada Al-Naşif mədəniyyətlərarası dialoqun gücləndirilməsi üçün UNESCO çərçivəsində təhsil məsələlərinə xüsusi diqqət yetirildiyini, bu istiqamətdə bir sıra praktiki addımların atıldığını vurğulayaraq dedi:

-Bakı Forumunun da əsas prinsipi olan daha səmərəli və daha mütərəqqi dialoq qurmaq üçün biz gücümüzü, qüvvələrimizi birləşdirərək səfərbər etməliyik.

Xanımlar və cənablar, biz Bakıya toplaşmaqla məhz əməli tədbirlərin, dinamik inkişafın, sosial-iqtisadi, siyasi mühitin güclənməsinin vacib olduğunu bir daha yəqin etdik. Bu gün konkret tədbirlər görməyimiz, addımlar atmağımız, çeviklik, cəsarət və şücaət göstərməyimiz həmişəkindən daha artıq dərəcədə vacibdir. Beləliklə, daha faydalı, daha mənalı bir dialoq bizim müxtəlifliklərimizi daha yaxşı anlamağa kömək edəcək. Əminəm ki, biz ümumi dəyərlərimiz naminə əməkdaşlığımızı bundan sonra da davam etdirəcəyik. Təşəkkür edirəm.

* * *



**Bakı Forumunun mühüm əhəmiyyətini xüsusi vurğulayan İslam Əməkdaşlıq Təşkilatının Baş katibi Yusif bin Əhməd Əl-OSAYMİN dedi:**

- Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyev.

Xanımlar və cənablar.

Allahdan sizə sülh diləyirəm.

Mən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda iştirak etmək üçün gözəl Bakı şəhərində yenidən olmaqdan məmnunam. Əvvəlcə, icazə verin, məni dəvət etdiyinə görə Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə və onun hökumətinə təşəkkürümü bildirim.

Əlbəttə ki, bu tədbir Qərb və İslam dünyası arasında mədəniyyətlərarası dialoqun aparılmasına verilən bir töhfədir və onun gücləndirilməsinə yönələn bir addımdır. Təbii ki, bu il keçirilən Forum məhz bizim ümumi əməyimizə əsaslanır, xüsusən də münaqişələrə və radikal ünsürlərə qarşı mübarizənin aparılmasında ümumi cəbhədən çıxış etməyi bizdən tələb edir. Təbii ki, biz bununla mədəniyyətlərarası dialoqun bütün sahələrdə gücləndirilməsi zərurətini müşahidə edirik. İstərdik ki, biz ümumi məxrəcdən çıxış edərək ayrı-seçkiliyin, ksenofobiyanın və ekstremizmin bütün formalarına qarşı birgə mübarizə aparaq. Əlbəttə, hesab edirik ki, bu məqsədə nail olmaq üçün bu və ya digər ölkələr tərəfindən xüsusi səylər tələb olunur. Bu, bizim hamımızın - sivilizasiyaların, cəmiyyətlərin üzərinə böyük öhdəlik qoyur. Buna görə ayrı-seçkiliyə və münaqişələrin aradan qaldırılmasına gəldikdə, hesab edirik ki, vəziyyət yaxşılaşmaqdansa daha da pisləşir, gərginləşir. Görürük ki, bu gün müxtəlif qütblər arasında qarşıdurmalar baş verir.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi mədəniyyətlərarası dialoqun möhkəmləndirilməsi üçün bütün ölkələrin səyləri birləşdirmələrinin vacibliyini diqqətə çatdıraraq bildirdi:

- İslam Əməkdaşlıq Təşkilatı kifayət qədər uzun müddətdə bu istiqamətdə işləyib, fəaliyyət göstərib və digər təşkilatları da bu addımları atmağa, mədəniyyətlərarası dialoqu gücləndirməyə səsləyib. Müxtəlif regionlarla birbaşa əlaqələr quraraq İslam Əməkdaşlıq Təşkilatı bunu aydın şəkildə bəyan edib ki, əməkdaşlığın qarşılıqlı şəkildə aparılması, siyasi və mədəni sahələrdə işbirliyi çox vacibdir. Bu, əslində mədəniyyətlərarası və sivilizasiyalararası anlaşmaya aparan bir yoldur.

Yusif bin Əhməd Əl Osaymin dünyada mədəniyyətlərarası dialoq şəraitində birgəyaşayışın təmin olunması üçün müvafiq mühitin yaradılmasının zəruriliyinə toxunaraq dedi:

- Xanımlar və cənablar, Zatiliələri, biz münaqişələrin və qarşıdurmaların, həmçinin bərabərsizliyin aradan qaldırılmasına bu yolla nail ola bilərik. Buna görə bu gün müxtəlif cəmiyyətlərdə onu görürük ki, həmin bərabərsizliklə üzləşən təbəqələr küçələrə çıxır, etirazını bildirir. Təbii ki, göstərilən bu səylərdə hökumətlər daha fəal olmalıdır. Bizim təşkilatımız bir daha bəyan edir ki, qərarları qəbul edən qurumlar, tərəflər arasında daha çox əməkdaşlıq olmalıdır. Əgər söhbət müasir cəmiyyətdən gedirsə, təbii ki, bu dəyərlərdən çıxış edərək insanlar bir-biri ilə yanyana yaşamağa, dinc şəkildə fəaliyyət göstərməyə vərdiş etməlidirlər.

Buna görə biz bütün tərəflər arasında dialoqun tərəfdaşıyıq. İstərdik ki, bundan sonra da bizə yaxın olan tərəfdaşlarımızla, bu kimi tədbirlərdə iştirak edən tərəflərlə hamımız səylərimizi birləşdirərək qarşımızda olan çağırışları anlayaq, onları nəzərdən keçirək və beləliklə, münaqişələrin həllinə və yaxud da qarşıdurmaların yaranmasının qarşısının alınmasına töhfə verək.

İslam Əməkdaşlıq Təşkilatının Baş katibi rəhbərlik etdiyi qurumun müxtəlif müsəlman ölkələrində mədəniyyətlərarası dialoqla bağlı həyata keçirdiyi tədbirləri diqqətə çatdıraraq bildirdi:

- Yekun olaraq bildirmək istəyirəm ki, İslam Əməkdaşlıq Təşkilatı bütün regionlara dialoqun gücləndirilməsi öhdəliyinə sadiqdir və dünyada baş verən hadisələrdən irəli gələrək biz öz proqramlarımıza müvafiq düzəlişləri etməyə hazırıq. Mən hamınıza təşəkkürümü bildirirəm və V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun işinə uğurlar arzulayıram. Çox sağ olun.

* * *



**Avropa Şurasının Baş katibinin müavini Qabriella BATTAİNİ-DRAQONİ dedi:**

-Zati-aliləri möhtərəm cənab Prezident İlham Əliyev.

Birinci vitse-prezident xanım Əliyeva.

Hörmətli məruzəçilər, xanımlar və cənablar.

İlk növbədə, mən qeyd etməliyəm ki, Azərbaycana gəlməkdən böyük şərəf hissi keçirirəm. Azərbaycan bizim zəruri üzv ölkəmizdir. Bizim gənc, dinamik, demokratik dövlətdir. Avropanın bu hissəsində yerləşən bir məmləkətdir. Habelə nəinki mədəniyyətlərarası dialoq, həmçinin məxsusi olaraq müzakirə etdiyimiz mövzu ilə bağlı aparıcı dövlətdir. Odur ki, qeyd etmək istəyirəm, burada - bu Forumda bir daha çıxış etmək mənim üçün böyük fəxrdir.

Mən Azərbaycan hökumətinə nəinki bu tədbirin təşkilatçılığına görə öz minnətdarlığımı bildirmək istəyirəm, həmçinin ümumi "Bakı Prosesi"nin təşkilinə görə minnətdarlığımı bildirmək istəyirəm. Həqiqətən, əvvəlki məruzəçilərin qeyd etdiyi kimi, mən onların fikrini paylaşmaq istəyirəm. Yəni, "Bakı Prosesi" əslində uğur tarixçəsinə çevrilib. Bu proses təhsilə yönəlib. Ekspertlər, mədəniyyətlərarası dialoq sahəsində çalışan mütəxəssislər üçün təcrübələrini, biliklərini və anlayışlarını paylaşmaq üçün müqayisəolunmaz bir fürsətdir. Bildiyiniz kimi, mən bu gün Avropa Şurasını təmsil edirəm. Avropa Şurası mədəniyyətlərarası dialoq sahəsində çalışır və bundan sonra biz böyük nailiyyətlərə imza atmağa çalışırıq.

Biz bu prosesə minnətdarıq. Nəyə görə minnətdarıq? Çünki mədəniyyətlərarası dialoq yanaşması həddən ziyadə mühüm və vacibdir. Bu yanaşma yaşadığımız çağdaş mürəkkəb dünya üçün səciyyəvidir.

Avropa Şurasının Baş katibinin müavini Qabriella Battaini-Draqoni dedi ki, mədəniyyətlərarası dialoqun təşviq olunması bir anlıq hadisə deyil. Bu, heç vaxt bitməyən bir çağırışdır. Odur ki, bizim qarşımızda dialoqun fəaliyyətə çevrilməsi ilə bağlı məsuliyyətin olduğunu deyən Baş katibin müavini bildirdi:

-Mədəniyyətlərarası dialoq, sosial inklüzivlik, habelə azlıq hüquqlarının qorunması həddən ziyadə vacibdir. Yekunda tərəqqi siyasi iradə əsasında təmin olunacaq. Biz bununla bağlı məhz bu hissləri keçiririk. Sizin vasitənizlə, möhtərəm cənab Prezident, biz güclü liderliyi və siyasi iradəni sezə bilirik və bu, bizim planlarımızı irəli apara bilər. Bir faktı qeyd etməliyik ki, biz öz inamımızı və dəyərlərimizi qorumalıyıq. Biz sülh üçün dialoq qurmalıyıq, ləyaqət və qarşılıqlı hörmətə əsaslanan rəğbət göstərməliyik. Bu, bizim fəaliyyətimizə veriləcək qiymətdir. "Bakı Prosesi" məhz buna həsr olunur.

* * *



**ISESCO-nun Baş direktoru Əbdüləziz Osman əl-TUVEYCRİ də Forumun əhəmiyyətinə toxundu. ISESCO-nun İslam aləmində sivilizasiyalararası münasibətlərə töhfə vermək üçün yorulmaz fəaliyyət göstərdiyini qeyd edərək dedi:**

-Zati-aliləri, Prezident İlham Əliyev.

Hörmətli Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva.

Xanımlar və cənablar, Zatiliələri.

Bu gün belə bir mötəbər Forumun açılışında iştirak etməkdən məmnunluq duyuram. Mən hesab edirəm ki, bu, dünyanın ən nüfuzlu tədbirlərindən biridir. 2011-ci ildə bu Forumun təməlini biz Bakı şəhərində qoyduq. O vaxt bildirildi ki, əgər siyasi iradə, öhdəlik, sabitlik olarsa, uğur gələcək.

⇨ Davamı 7-ci səhifədə

# Azərbaycan Avropa ilə Asiya arasında körpülərin yaradılmasında mühüm rol oynayır

## BAKIDA V ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU İŞƏ BAŞLAYIB

## *Azərbaycan Prezidenti İlham Əliyev Forumun açılışında iştirak edib*

⇨ Əvvəli 6-cı səhifədə

Əbdüləziz Osman əl-Tuveycri Prezident İlham Əliyevin Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun işinə göstərdiyi dəstəyi yüksək qiymətləndirdi.

Dünyada müharibələrin, yoxsulluğun artdığını təəssüflə qeyd edən ISESCO-nun Baş direktoru mənfi meyillərlə mübarizədə təhsilin roluna toxundu. “Biz insanlara təhsil verməliyik, həm dini, həm də mədəni dəyərlər haqqında onları maarifləndirməliyik”, - deyə Əbdüləziz Osman əl-Tuveycri vurğuladı. O, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə də toxunaraq dedi:

-Bizim hamımıza məlum olan reallıq ondan ibarətdir ki, Azərbaycanın 20 faiz ərazisi Ermənistanın işğalı altındadır. Bu da beynəlxalq hüququn pozulmasıdır. BMT-nin Təhlükəsizlik Şurasının bununla bağlı qətnamələri var. Azərbaycan sülh, dialoq və qarşılıqlı hörmətə, yanaşmaya əsaslanan ölkədir. Dünya Azərbaycana yardım etmir, dünya Azərbaycana ədalətsiz yanaşır. Ancaq bu torpaqlar yenidən Azərbaycana qovuşmalıdır. Bu, sülhə aparan yoldur, bu, dialoqun uğurlu olmasına aparan yoldur.









ISESCO-nun Baş direktoru rəhbərlik etdiyi qurumun Azərbaycanın təşviq etdiyi dəyərlərə tərəfdar olduğunu vurğulayaraq bildirdi:

- Azərbaycana gəldikdə, ISESCO lap əvvəlcədən Azərbaycanın bu dialoq, hörmət dəyərlərinə tərəfdar çıxıb. Biz öz müxtəlifliyimizi qorumalıyıq, ona hörmətlə yanaşmalıyıq, insanlarımızı qorumalıyıq, dini dəyərlərə sadiq olmalıyıq. Biz bütün bunlara hörmətlə yanaşmalıyıq. Tolerantlıq o deməkdir ki, biz digər düşüncəyə, digər dəyərlərə malik olan insanı qəbul etməliyik. Bu, o deməkdir ki, onlara da hörmətlə yanaşmalıyıq. İstərdik ki, həmçinin bu yanaşma bizə münasibətdə də olsun. Bu, təhlükəsizliyə aparan yeganə yoldur. Bununla əsl dialoq olur, mənalı dialoq olur və zorakı münaqişələrin qarşısı bununla alınır.

Əbdüləziz Osman əl-Tuveycri dedi ki, İslam sülh və mərhəmət dinidir. Sonda Baş direktor tədbirin təşkilinə görə bir daha prezident İlham Əliyevə minnətdarlığını bildirərək dedi:

- Mən cənab Prezident, Sizə təşəkkürümü bildirirəm. Ümid edirəm ki, bütün iştirakçılar öz ölkələrinə qayıtdıqdan sonra burada aparılan müzakirələrdən nəticə çıxaracaqlar, Azərbaycanın işğal olunmuş ərazilərinin azad edilməsində və ərazi bütövlüyünün bərpa olunmasında ölkənizə dəstək verəcəklər. Arzu edirəm ki, Allahın iradəsi ilə bütün dünyada sülh və rifah bərqərar olsun. Sağ olun.

* * *

Sonra insanları sülhə, dialoqa, həmrəyliyə, firavan dünya qurmağa çağıran “Necə gözəl bir dünya” mahnısı ifa edildi.

* * *

Sonda xatirə şəkli çəkdirildi.

* * *

Forum çərçivəsində mədəniyyətlərarası dialoq və insan ləyaqətini təbliğ etməklə inklüziv və davamlı cəmiyyətlərin qurulmasında dövlət, özəl və üçüncü sektoru təmsil edən təşkilatlar üçün ümumi yol xəritəsini hazırlamaq məqsədilə digər maraqlı tərəflərlə yanaşı, həm də siyasi, iqtisadi, maliyyə, hərbi, humanitar və sosial təşkilatlar arasında tərəfdaşlığın formalaşdırılması üçün beynəlxalq təşkilatların və nazirlərin 2-ci yüksək səviyyəli görüşü nəzərdə tutulub. Eyni zamanda, iki gün ərzində “Akademik Forum: dinlərarası dialoq və dini müxtəlifliyin idarə olunması”, “Müxtəlifliyin idarə olunması: çoxsəviyyəli və çoxtərəfli əməkdaşlıq”, “Qlobal vətəndaşlıq təhsili: sülh mədəniyyətinin aşılanması”, “Sülh naminə çoxtərəflilik və diplomatiya”, “Türkdilli ölkələr arasında dialoqun qurulmasında Böyük İpək Yolunun rolu” və digər mövzularda plenar və aralıq sessiyalar keçiriləcək. Həmçinin tədbir günlərində qonaqlar üçün sərgi də açılacaq, musiqili proqramlar təşkil ediləcək.

Beləliklə iki gün ərzində Bakıda müasir dünyanı narahat edən ən aktual məsələlər müzakirə mövzusu olacaq.

Dünyada sülh və bərabərliyin, qarşılıqlı etimadın və anlaşmanın əldə olunmasında bu Forum mühüm əhəmiyyət kəsb edir.

PREZİDENT TAPŞIRIĞI:

# Yeniliklər, müsbət təcrübə, dünyada mövcud olan ən mütərəqqi yanaşma Azərbaycanda tətbiq edilməlidir

*Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında idarəçilik sistemində təkmilləşmənin yol açdığı uğurlar əsaslı şəkildə diqqətə çatdırıldı*



**Dövlətimizin başçısı İlham Əliyev Nazirlər Kabinetinin bu günlərdə keçirilən 2019-cu ilin birinci rübünün yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında "Ümumiyyətlə, idarəetmə sahəsində islahatların aparılmasına böyük ehtiyac var. Mən bunu demişəm, bu gün də, əvvəlki çıxışlarda da.**

Hər bir sahədə inkişaf üçün böyük meydan var. Hər bir sahədə, əgər o sahəyə rəhbərlik edən insanlar öz işinə vicdanla yanaşarlarsa, mütləq nəticə də olacaq. Bu, ictimaiyyət tərəfindən də mütləq yüksək qiymətləndiriləcək. Ona görə bir daha demək istəyirəm ki, yerli və mərkəzi icra orqanlarının nümayəndələri daim vətəndaşların problemləri ilə məşğul olmalıdırlar" söyləyərək, davamlı inkişafı şərtləndirən amilləri əsaslı şəkildə diqqətə çatdırmışdır.

Təbii ki, uğurlarımızın əsasında islahatların zamanın və dövrün tələblərinə uyğun olaraq təkmilləşməsi, gələcəyə hesablanmış strategiyamızın dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə istinadən hazırlanması əsas yer tutur. Ölkə Prezidenti İlham Əliyev iclasda bu məqamı da xüsusi qeyd etmişdir ki, hazırda iqtisadiyyatımızın yeni inkişaf strategiyası üzərində işlərə başlanılıb. Bu prosesə qabaqcıl beynəlxalq mütəxəssislərin, alimlərin cəlb edilməsi yeni inkişaf strategiyasının uğurlu nəticələrə yol açmasına hesablanıb. Təbii ki, gələcəyə nikbinliklə baxmağa əsas verən əsas amil bugünkü uğurlarımızdır. Hədəflərə yüksək səviyyədə nail olmaq üçün regionların potensial imkanlarından maksimum istifadə etmək məqsədilə Regional inkişaf proqramlarının uğurlu icrası nəticələrdən də aydın görünür. "Növbəti beşillik proqram - Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində bu gün hələ də görə bilmədiyimiz bütün layihələri icra edəcəyik. Bu, möhkəm bir zəmindir. Biz bu zəmin üzərində yeni iqtisadi inkişaf modeli qurmalıyıq və qururuq. Bizdə həm təcrübə, həm də iradə var" söyləyən cənab İlham Əliyev həyata keçirilən siyasətin aparıcı beynəlxalq maliyyə qurumları tərəfindən dəstəkləndiyini hesabatlara istinadən diqqətə çatdırır. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və digər mötəbər maliyyə qurumları ölkəmizin iqtisadi inkişaf modelini yüksək dəyərləndirir, ən əsası Azərbaycan ən islahatçı ölkə kimi mövqeyini möhkəmləndirir.

Məlum olduğu kimi, 2016-cı ilin sentyabrında keçirilən ümumxalq səsverməsinə çıxarılan Konstitusiyaya əlavə və dəyişikliklərin bir qismi idarəçilik sistemində təkmilləşməni nəzərdə tutur. Bu prosesdə peşəkar gənclərin fəal iştirakını təmin etmək üçün yaş məhdudiyyətlərinin aradan götürülməsi ictimaiyyət tərəfindən böyük dəstək qazandı. Eyni zamanda, vitse-prezidentlik institutunun yaradılması da bu təkmilləşmə sırasındadır. Dövlətimizin başçısı İlham Əliyev Nazirlər Kabinetinin iclaslarında daim dövlət idarəetmə sisteminin təkmilləşdirilməsinə böyük ehtiyacın olduğunu bildirir: "Hesab edirəm ki, inkişafa mane olan, xüsusilə idarəetmə sahəsində problem yaradan amillər də aradan qaldırılmalıdır. Burada da çox ciddi islahatlara ehtiyac var. Bəzi strukturlar bir-birinin fəaliyyətini təkrarlayır, biz buna da yol verməməliyik, burada optimallaşdırma siyasəti aparılmalıdır və bu sahəyə də diqqət verilməlidir."

Onu da xatırladaq ki, cənab İlham Əliyevin 23 avqust 2017-ci il tarixli Fərmanına uyğun olaraq Nazirlər Kabineti Aparatının yeni strukturu təsdiq edilmişdir. Bir neçə bölmənin birləşdirilməsi, yaxud yeni bölmələrin yaradılması ümumilikdə hədəflərə yüksək və nəzərdə tutulduğu vaxtdan da tez çatmağa stimul verir. Cari ilin ilk ayları da təkmilləşmə, strukturların birləşdirilməsi ilə müşayiət olundu. Bu kimi təkmilləşmələr qarşıya qoyulan məqsədlərə daha tez nail olmağa geniş imkanlar açır. Eyni funksiyanı yerinə yetirən, amma müxtəlif adlarda fəaliyyət göstərən qurumların birləşdirilməsi dövrün tələbi olmaqla yanaşı, vaxt itkilərinin aradan qaldırılması üçün də zəruridir.

Atılan addımlar günümüzün əsas çağırışlarından olan sahibkarlığın inkişafına da geniş yol açır. Həyata keçirdiyi siyasətin önündə yeniləşməni, modernləşməni əsas amil kimi önə çəkən Azərbaycan hər zaman ilklərə imza atan ölkə kimi tanınır və nüfuz qazanır. Azərbaycan brendi kimi dünyaya səs salan "ASAN xidmət", "ABAD", "DOST" layihələri də şəffaflığın artırılmasına, əmək, sosial müdafiə və təminat sahələrində vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, elektron xidmətlərə keçidin sürətləndirilməsinə, habelə süründürməçilik hallarının qarşısının alınmasına və vətəndaş məmnunluğunun yüksəldilməsinə xidmət edir. Azərbaycanın dünyada yenilikçi ölkə kimi nüfuz qazanmasını təsdiqləyən mühüm hadisələrdən biri kimi ötən il robot "Sofiya"nın ölkəmizə səfərini qeyd edə bilərik. "Bakı bu gün həqiqətən dünyanın özündə yeni texnologiya və innovasiyaların, müasir və qədim memarlıq üslubunun vəhdətini təcəssüm etdirən ən gözəl şəhərlərindən biridir" söyləyən cənab İlham Əliyev bildirmişdir ki, "ASAN" bizim milli brenddir. Bu, bizim nou-haudur. Bu gün Azərbaycanın təkcə təbii ehtiyatlarını və yaxud məhsullarını yox, eyni zamanda, intellektual məhsullarını ixrac etməsi bizi fərəhləndirir: "Biz artıq belə xidməti yaratmaq istəyən bəzi ölkələrlə də işləyirik. Buna görə də "ASAN"ın təkcə Azərbaycanda yox, bütün dünyada parlaq gələcəyi var." Azərbaycan brendinin dünyada belə nüfuz qazanması təbii ki, dövlətimizin həyata keçirdiyi təkmil siyasətə dəstəyin ifadəsidir.

Müasir dövrün əsas çağırışlarından olan yoxsulluqla mübarizə sahəsində daim Azərbaycanın təcrübəsini yüksək qiymətləndirən xarici qonaqlar bu fikri bildirirlər ki, yoxsul yox, yaxşı idarə olunmayan ölkə var. Azərbaycanın idarəçilik sistemində həyata keçirdiyi təkmil islahatlar uğurların davamlılığında əhəmiyyətli rol oynayır. Bu baxımdan "ASAN xidmət" dövlət idarəçiliyində innovasiyaların tətbiqi baxımından uğurlu bir nümunədir. Dövlətimizin başçısı iclasda bildirmişdir ki, bu il bölgələrdə beş "ASAN xidmət" mərkəzinin yaradılması nəzərdə tutulur, onların sayı 20-yə çatacaq: "Mənə verilən məlumata görə, Bakı şəhərində də yeni mərkəzlərin tikintisinə ehtiyac var. Çünki "ASAN xidmət"in funksiyalarının həcmi və müraciətlərin sayı artır, bəzi yerlərdə növbələr yaranır. Biz "ASAN xidmət"i məhz ona görə yaratdıq ki, bu, asan olsun, bu xidmət rahat olsun, növbə olmasın, heç bir pozuntu olmasın, şəffaf olsun. Buna nail olmuşuq. "ASAN xidmət"in bəyənmə əmsalı 100 faizə yaxındır. Ancaq nəzərə alsaq ki, funksiya genişlənir və müraciətlərin sayı artır, bəzi yerlərdə növbələr yaranır. Ona görə göstəriş vermişəm ki, - ilkin vəsait də ayrıldı, - Bakı şəhərində əlavə iki "ASAN xidmət" mərkəzi yaradılsın və beləliklə, onların sayı 22-yə çatacaq."

Hər bir layihə özlüyündə inkişaf, tərəqqi deməkdir. Atılan hər addımda vətəndaş amilinə verilən dəyər daha qabarıq şəkildə özünü büruzə verir. Ailə təsərrüfatlarının inkişafına dəstəyi asan şəkildə həyata keçirən "ABAD", hər bir vətəndaşın yaxın dostuna çevrilən "DOST" idarəetmədə şəffaflığın qorunmasını, rəqabətin gücləndirilməsini şərtləndirir. Dövlətimizin başçısının bu fikirlərini də xatırlatmaq istərdik: "Rəqabət olmasa, inkişaf da olmaz, keyfiyyətli məhsullar da olmaz. Qoy, hər kəs istehsal etsin. Yaxşı, bazarımız ola bilər ki, kifayət qədər məhduddur. Elə məhsullar yetişdirin, istehsal edin ki, xaricə sata biləsiniz. Dövlət də bunu təşviq etsin. Bizim gələcəkdə iqtisadiyyatımızın inkişafını təmin edən əsas sahə ixrac olacaqdır. Bunu mən dəfələrlə demişəm. Biz buna çox ciddi hazırlaşırıq... Biz xaricdə logistika mərkəzləri yaradırıq. Nə üçün? Ona görə xaricə vəsait qoyuruq ki, məhsullarımız oraya - yeni bazarlara çıxsın. Bunu ona görə edirik ki, sahibkarların gedib öz məhsullarını rahat satmaq imkanları olsun. Burada isə əgər kimsə nəyisə istehsal edirsə, qoymur ki, başqası da istehsal etsin. Yaxud da ki, himayədarları müxtəlif yollarla bu işlərə cəlb edir. Buna yol vermək olmaz. O cümlədən idxalla bağlı inhisarçılığa yol vermək olmaz. Yenə də deyirəm, biz açıq bazar iqtisadiyyatı siyasətini aparırıq. Bizim siyasətimiz, dövlət siyasəti, Prezidentin siyasəti, bax, budur. Ona görə bütün qurumlar bu siyasəti aparmalıdırlar, vəssalam!"

Ölkə Prezidentinin vurğuladığı kimi, biznesin sadələşdirilməsi, "bir pəncərə" prinsipinin tətbiqi şəraitində əldə olunan uğurlar və təcrübə beynəlxalq səviyyədə də qiymətləndirilir, öyrənilir və tətbiq olunur. Lazımsız yoxlamaların aparılmasına, yerli icra hakimiyyəti orqanlarının, o cümlədən hüquq mühafizə orqanlarının bəzi hallarda sahibkarlara problem yaratmasına, lisenziyaların sayının həddən artıq çox olmasına və digər məsələlərə hər zaman çıxışlarında diqqət yönəldən cənab İlham Əliyev qeyd olunan istiqamətlərdə atdığı addımları ilə sahibkarlığın inkişafına yaradılan imkanları daha da genişləndirdi.

Əvvəldə də qeyd etdiyimiz kimi, dövlətimizin başçısı İlham Əliyevin son "Azərbaycan Respublikasında dövlət idarəçiliyinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında", "Aqrar sahədə idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında", "Azərsilah" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında", "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 27 oktyabr tarixli Fərmanında dəyişiklik edilməsi barədə Fərmanları gələcək planların uğurlu icrasını şərtləndirir. Sənədlərdə ölkəmizin iqtisadi inkişafı fonunda ayrı-ayrı sahələrdə həyata keçirilən islahatlar önə çəkilərək, təkmilləşmənin vacibliyi diqqətə çatdırılmışdır. Bu məqsəd açıqlanır ki, dövlət idarəçiliyinin daha da təkmilləşdirilməsi, dövlət orqanlarının fəaliyyətinin optimallaşdırılması və dövlət büdcəsi vəsaitindən səmərəli istifadənin təmin edilməsi prioritetdir.

İdarəçilik sistemində təkmilləşmənin yol açdığı uğurlardan geniş bəhs edən dövlətimizin başçısı İlham Əliyev iclasda bir daha bildirmişdir ki, görülmüş düzgün yolda olduğumuzu söyləməyə əsas verir.

Təkmil islahatların davamı kimi dövlətimizin başçısı İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanını da qeyd etməliyik. "Elektron məhkəmə" informasiya sisteminin yaradılması məhkəməyə müraciət imkanlarının daha da genişlənməsinə, ədalət mühakiməsinin həyata keçirilməsində süründürməçilik və sui-istifadə hallarının qarşısının alınmasına, şəffaflıq və operativliyin təmin edilməsinə, məhkəmə qərarlarının icrasına nəzarətin effektivliyinin artırılmasına, elektron kargüzarlığın və sənəd dövriyyəsinin təmin olunmasına xidmət edəcək. Ölkə Prezidenti iclasda bu məqamı xüsusi qeyd etmişdir: " Hesab edirəm ki, onun icrası bu sahədə də ciddi dönüşə səbəb olacaq. Yəni biz gərək hər bir sahədə irəli gedək. Yeniliklər, müsbət təcrübə, dünyada mövcud olan ən mütərəqqi yanaşma Azərbaycanda tətbiq edilməlidir. Nəzərə almalıyıq ki, bizim neft-qaz sektorumuz da iqtisadiyyata böyük dəstəkdir. Nəzərə almalıyıq ki, biz indi nəqliyyat mərkəzlərindən birinə çevrilirik. Bu yaxınlarda Çində keçirilmiş "Bir kəmər, bir yol" Forumunda Azərbaycanın iştirakı bir daha onu göstərir ki, ölkəmiz bu önəmli layihənin tərkib hissəsidir. Bizim gəlirlərimiz artacaq, maliyyə və iqtisadi imkanlarımız daha da böyüyəcək." Cənab İlham Əliyev bütün sahələri əhatə edən, Azərbaycanın hərtərəfli inkişafına xidmət edən təkmil islahatlara, uğurlu nəticələrə əsaslanaraq, bu əminliyi ifadə etmişdir ki, biz 2019-cu ili də uğurla başa vuracağıq.

**Yeganə Əliyeva,**
***"İki sahil"***

# Bakı: dialoq mərkəzi, mədəniyyət Davosu...

Dünən Bakıda “Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq” şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlayıb. Forum Azərbaycan dövlətinin dünya sivilizasiyasına növbəti sülhpərvər çağırışıdır. Eyni zamanda, bu, ikili standartların mövcud olduğu indiki məqamda beynəlxalq aləmə mədəniyyətlərarası dialoqun vacibliyini göstərən amildir.

Forumun açılışında çıxış edən Prezident İlham Əliyev birmənalı olaraq bildirib ki, bu beynəlxalq tədbir dünya ölkələri ilə əməkdaşlığın və tərəfdaşlığın genişləndirilməsinə yönəlib. Eyni zamanda, ölkəmizin həyata keçirdiyi nəhəng layihələrə toxunan dövlət başçısı boru kəmərləri vasitəsilə Xəzər dənizinin Qara dənizlə birləşdiyini, Avropanın enerji təhlükəsizliyinə xidmət edən bu kəmərlərin, həmçinin Azərbaycanın təşəbbüsü ilə yaradılan beynəlxalq nəqliyyat dəhlizlərinin həm də ölkələr və xalqlar arasında əlaqələrin daha da möhkəmlənməsinə xidmət etdiyini deyib.

Bu tədbirin növbəti dəfə Bakıda keçirilməsi bir daha göstərir ki, fərqli sivilizasiyaların, mədəniyyətlərin, dinlərin arasında anlaşmanın, əməkdaşlığın optimal yollarının tapılması hazırda çağdaş dünyanın qarşısında duran ən mühüm problemlərdən biridir. Bu mövzuda son illər müxtəlif səviyyəli müzakirələrin aparılması, beynəlxalq toplantıların keçirilməsi, qurumların təsis olunması bir daha problemin nə qədər aktual olduğunu göstərir. Məhz bu amili diqqətə alan Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycanda əsrlər boyunca müxtəlif dinlərin, etnik qrupların nümayəndələri birgə yaşayıb, ölkəmizdə daim dini tolerantlıq hökm sürüb. Bu gün multikulturalizm Azərbaycanda dövlət siyasətinin mühüm tərkib hissəsidir.

Mədəniyyətlərarası əməkdaşlıq məsələsi uzunmüddətli və mürəkkəb bir prosesdir. Bu kimi dialoqların əbədi humanist idealı xalqları bəşəri dəyərlər ətrafında birləşdirməkdir, sülhə çağırış, müharibəyə nifrət aşılamaqdır. Ona görə də Bakıda davamlı keçirilən bu humanist tədbirlər nəinki dünyaya multikultural dəyərlərin inkişafı nümunəsidir, eyni zamanda, böyük siyasətçilərin, nüfuzlu beynəlxalq təşkilatların yüksək dəyərləndirdiyi bir beynəlxalq tədbirdir. Dünənki Forumda iştirak edən UNESCO-nun Baş direktorunun müavini Nada Al-Naşif bu beynəlxalq tədbiri yüksək dəyərləndirərək deyib ki, dünyada multikulturalizmin təbliğində və bəşəri dəyərlərin bərqərar olmasında Prezident İlham Əliyevin və Azərbaycanın xüsusi rolu var. O, Bakıda keçirilən bu kimi tədbirlərin dünya üçün böyük əhəmiyyət daşıdığını bildirib.



Dünyada çox mürəkkəb proseslərin getdiyi, qloballaşmanın intişar tapdığı bir zamanda mədəniyyətlərarası dialoq müstəsna önəm kəsb edir. Mədəniyyətin də gücü, sözsüz ki, çoxtərəfli mədəni münasibətlərdən asılıdır. Mövcud şəraitdə mədəniyyətlərarası forumlar, təşəbbüslər həm insanlara, toplumlara, həm də dövlətlərə çox böyük təsir edir. Çünki qloballaşma dövründə belə bir yanlış fikir də yarana bilər ki, hər şey iqtisadiyyatdan, siyasətdən, informasiya texnologiyalarından asılıdır. Lakin mədəniyyətsiz iqtisadiyyat, siyasət və informasiya texnologiyaları heç bir rol oynaya bilməz.

Bu gün Azərbaycan mədəniyyətlərarası dialoqlara və multikultural dəyərlərə önəm verən bir ölkə kimi nüfuz qazanıb. Ölkəmiz dünyanın bir parçası olmaqla bu prosesə öz töhfəsini verir. 2008-ci ildən etibarən ölkəmiz bu istiqamətdə beynəlxalq tədbirlərə ev sahibliyi etməyə başlayıb. XX əsrin əvvəlində bir müsəlman ölkəsi olaraq dünyaya ilk demokratik respublikanı bəxş etmiş, müsəlman Şərqində ilk dəfə mütərəqqi Qərb dəyərlərini dövlət səviyyəsində əxz və tətbiq etmiş Azərbaycan üçün bugünkü dünyaya mədəni tolerantlıq örnəyi olmaq, mədəniyyətləri qovuşduran məkan rolunda çıxış etmək tarixin üzərimizə qoyduğu bir missiyadır. Bu gün qloballaşma prosesi dünyanın dörd bir yanını bir-birinə bağlayır. Belə bir vəziyyətdə Azərbaycanın qarşısında duran mühüm məqsədlərdən biri qabaqcıl dövlətlərlə ayaqlaşmaq, bu qlobal inteqrasiya prosesində Azərbaycan xalqının milli “mən”ini, milli zənginliyini dünyaya layiqincə təqdim etmək və eyni zamanda milli mənəvi dəyərlərimizin mütərəqqi dünya dəyərləri ilə üzvi sintezinə nail olmaqdır. Xalqımızın böyük mütəfəkkirlərinin, dövlət adamlarının, ictimai xadimlərinin fəaliyyətində bu ideya zaman-zaman özünü göstərib.

Bakıda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu elə bir vaxtda keçirilir ki, ölkəmiz iqtisadi və sosial yüksəlişin yeni mərhələsindədir. Eyni zamanda, bu Foruma dünyanın böyük maraq göstərməsi bir daha sübut edir ki, ölkəmiz beynəlxalq güclərin toqquşan deyil, qovuşan məkanıdır. Yəni bu Forum bir daha təsdiq edir ki, Azərbaycanın hərtərəfli, o cümlədən elmi-mədəni inkişafı elə səviyyəyə çatıb ki, ölkəmiz Şərqlə Qərb, Şimalla Cənub arasında, sadəcə, kəsişmə nöqtəsi, körpü rolunu oynamır, həm də bu münasibətlərə öz töhfəsini verir.

Məhz buna görədir ki, Azərbaycana dünyanın hər hansı məkanından gələn şəxs üçün istər dünyagörüşü, dini baxışları, istərsə də digər fərqli cəhətləri ilə burada özünü yad hiss etmir. Azərbaycanın tolerant cəmiyyəti, sosiomədəni mühitəsi istənilən əcnəbiyə burada tamamilə kompleksiz, rahat olmağa imkan verir. Odur ki, ölkəmizə uzun müddətə işləməyə gələn xarici diplomat da, qısa müddətə təşrif buyuran hər hansı əcnəbi şəxs də burada özünü evindəki, vətənindəki kimi hiss etdiyini bildirir. Bir sözlə, bu gün Azərbaycan dünyada zəngin milli-mədəni dəyərləri ilə yanaşı, həm də mədəniyyətlərarası ünsiyyət, anlaşma məkanı kimi tanınır. Paytaxtımız Bakı dialoq mərkəzinə, mədəniyyət Davosuna çevrilir.

**Elçin Zaman,**
***“İki sahil”***



*Hadi Rəcəbli:*

# Əhalinin sosial müdafiəsinin gücləndirilməsi daim dövlətin diqqət mərkəzindədir

Dövlətimizin başçısının seçkilər ərəfəsində yeni iqtisadi modelə keçidlə, iqtisadi və sosial sahədə islahatların aparılacağı ilə bağlı vədləri ardıcıl olaraq yerinə yetirilir. Aprelin 30-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirildi ki, islahatların məqsədyönlü şəkildə həyata keçirilməsi məqsədilə çox ciddi addımlar atılıb, respublikamızın gələcək inkişafı üçün möhkəm zəmin yaradılıb.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, siyasi elmlər doktoru, professor Hadi Rəcəbli İkisahil.TV-yə müsahibəsində bildirib ki, hər zaman fəaliyyətində xalqın dəstəyinə arxalanan Prezident İlham Əliyev xalq ilə daim təmasda olur, vətəndaşları narahat edən problemləri birbaşa onların dilindən dinləyir və bu məsələlərin həlli ilə bağlı müvafiq göstərişlər verir. Prezident İlham Əliyevin ölkə əhalisinin sosial rifahının yüksəldilməsinə dair həyata keçirdiyi işlərin miqyası gündən-günə genişlənir. Təsadüfi deyildir ki, seçkilərdə qələbə qazandıqdan sonra Prezident İlham Əliyevin imzaladığı ilk Fərman şəhid vərəsələrinə birdəfəlik ödəmənin verilməsi ilə bağlı olub. Dövlətimizin başçısının ölkənin sosial həyatında inqilabi addımların davamlı xarakter aldığını göstərən qərarları ilə ötən bir il ərzində minimum pensiya məbləği, minimum əməkhaqqı orta hesabla 40 faiz artırıldı. Cənab İlham Əliyevin 2019-cu il 25 fevral tarixli Sərəncamı ilə isə 600 minədək şəxsə, o cümlədən 300 min əlilliyi olan şəxsə yönələn sosial müavinətlər, təqaüdlər orta hesabla 100 faiz artırıldı, əlavə olaraq bir sıra kateqoriyalardan olanlar üçün Prezidentin aylıq təqaüdləri təsis olundu.

Ölkəmizdə 2019-cu ilin əvvəlindən sosial sahədə bilavasitə insanların rifah halının yaxşılaşmasına hədəflənən tədbirlərin reallaşdırılması daha da intensivləşib. Hazırda vaxtilə verilən vədlərin uğurla reallaşdırılması prosesi gedir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, 2019-cu il sosial inkişaf, əhalinin sosial müdafiəsi baxımından başqa illərdən fərqlənən il olacaq. Bu və digər faktlar Azərbaycan dövlətinin sosial siyasətinin davamlı səciyyə daşıdığı barədə konkret təsəvvür yaradır. Ümumiyyətlə, bu gün Azərbaycan dövlətinin sosial sahədə atdığı addımlar öz miqyasına, təsir dairəsinə, əhəmiyyətinə görə heç bir ölkədə müşahidə olunmur. Bütövlükdə, 3 milyona yaxın insan dövlətin sosial təşəbbüslərinin icrasından böyük dərəcədə faydalanacaq. Azərbaycan dövlətinin yürütdüyü dərinməzmunlu sosial siyasət, həqiqətən də inqilabi xarakter daşıyır. Bu, ilk növbədə, cənab Prezidentin, Azərbaycan dövlətinin öz vətəndaşına olan diqqət və qayğısının əyani nümunəsidir.

Komitə sədri ölkə Prezidentinin 2019-cu ili sosial islahatlar ili elan etməsi ilə bağlı bildirdi ki, iqtisadi və sosial sahədə aparılan siyasət rəqəmlərdə də özünü büruzə verir. Bu ilin fevral ayının sonlarında imzalanan Sərəncamla məcburi köçkünlər və onlara bərabər tutulan şəxslər üçün aylıq müavinət 50 faiz artırıldı ki, bu da minlərlə məcburi köçkünün rifah halının yüksəldilməsinə xidmət edir. Həmçinin bu il 110 minədək tələbənin də təqaüdlərinin ciddi şəkildə artırılması təmin olundu. Azərbaycan Prezidentinin humanizm prinsiplərinə söykənən sosialyönümlü siyasətini, daim hər bir vətəndaşının yanında olduğunu təsdiqləyən digər bir addım isə 800 mindən çox insanın problemli kredit məsələsini aradan qaldıracaq Fərman oldu. Dövlətimizin başçısı tərəfindən imzalanan daha bir Fərmanla isə istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərindən ibarət 350-400 min insanın mənafeyi təmin olundu. Dövlət başçısı son bir neçə ayda imzaladığı sosialyönümlü Sərəncam və fərmanlara aprelin 15-də daha birini də əlavə etdi. Fərmana görə, müharibə veteranlarına Azərbaycan Respublikası Prezidentinin 80 manat məbləğində təqaüdü təsis olundu.

H.Rəcəbli vurğuladı ki, sosial sahədə atılan bu mütərəqqi addımlar Azərbaycan vətəndaşının maraqlarının dövlətin həyata keçirdiyi siyasətin mərkəzində dayandığını bir daha təsdiq edir. Vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin əsasında qurulan bu siyasət ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır. Ölkəmizin maliyyə imkanlarının güclənməsi istər regionların sosial-iqtisadi inkişafı, istərsə də insanların sosial rifah halının daha da yaxşılaşdırılması istiqamətində layihələrin reallaşdırılmasına da imkan verib. Cənab Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkədə həyata keçirilən siyasətin mərkəzində məhz Azərbaycan vətəndaşları, onların maraqları dayanır.

Ümumiyyətlə, Azərbaycanın sosial-iqtisadi cəhətdən inkişafı dinamik xarakter daşıyır. Davamlı olaraq islahatların həyata keçirilməsi inkişaf proseslərini daha da gücləndirir. Artıq ölkəmizdə iqtisadi sabitliyin təmin olunması ilə bağlı atılan önəmli addımlar, ardıcıl şəkildə həyata keçirilən ciddi islahatlar öz müsbət nəticələrini verir. Vətəndaşların rifahının daha da yüksəldilməsi, qayğıya ehtiyacı olan insanların sosial müdafiəsinin gücləndirilməsi daim dövlətin diqqət mərkəzindədir. Ölkə Prezidenti cənab İlham Əliyevin verdiyi qərarlar vətəndaşların maraqlarına xidmət edir. Respublikamızda inklüzivliyin təmin olunması, əhaliyə göstərilən xidmətlərin əlçatanlığının artırılması və bələbiklə də, vətəndaş məmnunluğunun təmin olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir, sosial infrastruktur quruculuğuna getdikcə daha böyük həcmlərdə maliyyə vəsaiti yönəldilir.

**Şəmsiyyə Əliqızı,**
***“İki sahil”***

# Beynəlxalq birliyin dialoq məkanı kimi Azərbaycanı seçməsi təsadüfi deyil



Bu gün Azərbaycan dünya miqyasında beynəlxalq dialoq məkanı, sabitləşdirici, sülhsevər ölkə kimi tanınır. Təbii ki, belə müsbət imicin formalaşması uzun illər ərzində həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin, gərgin səylərin nəticəsində mümkün olub. Ölkəmiz artıq neçə illərdir ki, beynəlxalq tədbirlərə ev sahibliyi edir, dünyanın bir çox dövlətindən nüfuzlu siyasi, ictimai və dövlət xadimləri bu tədbirlərdə iştirak etmək üçün Azərbaycana gəlir, ölkəmizin sürətli inkişafını, həqiqətləri, reallıqları öz gözləri ilə görürlər. Mayın 2-də Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında öz işinə başlayan V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu da bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Forumda 100-dən çox ölkənin, 30-dan çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmi şəxsləri iştirak edirlər. Bu göstərici bir daha Azərbaycanın beynəlxalq dialoq məkanı kimi çəkisini daha da artırır, nüfuzunu yüksəldir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri **YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə** KİV-ə açıqlamasında söyləyib.

Vüqar Rəhimzadə bildirib ki, Azərbaycan Prezidentinin təşəbbüsü ilə paytaxt Bakıda təşkil olunan bu beynəlxalq tədbirlər regionumuza və dünyaya sabitlik, sülh, əmin-amanlıq vəd edir. 2008-ci ildən start götürən "Bakı Prosesi" bu illər ərzində müxtəlif qitələri təmsil edən, dinindən, irqindən, etnik mənsubiyyətindən asılı olmayaraq hər kəsi öz ətrafına toplamağı bacarıb. İldən-ilə coğrafiyası genişlənən bu dəfəki Forumda Böyük Britaniya, Səudiyyə Ərəbistanı, hətta Okeanın o tayından ölkələrin təmsilçiləri iştirak edirlər. Hesab edirəm ki, V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun builki şüarından da göründüyü kimi, ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişələrə qarşı fəaliyyət naminə dialoq qurmaq baxımından faydalı olacaq.

"İki sahil" qəzetinin baş redaktoru vurğulayıb ki, bu imi beynəlxalq əhəmiyyətli tədbirlərin Azərbaycanda keçirilməsi təsadüfi xarakter daşımır: "Dövlətimizin başçısının təşəbbüsü ilə 2016-cı il Azərbaycanda "Multikulturalizm İli", 2017-ci il isə "İslam Həmrəyliyi İli" elan edilib. Multikulturalizm ölkəmizdə dövlət siyasətinin əsas tərkib hissəsidir. Bu, tarixən də belə olub. Yüzilliklər boyu müxtəlif dinlərə, mədəniyyətlərə mənsub insanlar Azərbaycan ərazisində mehriban, sülh və təhlükəsizlik şəraitində yaşayıblar. Ona görə də beynəlxalq birliyin dialoq məkanı kimi Azərbaycanı seçməsi təsadüfi deyil. Hesab edirəm ki, bu Forum da kifayət qədər ciddi müzakirə mövzuları ilə zəngin və məhsuldar olacaq".

# Əbədiyaşar Lider

**Mayın 2-də Yeni Azərbaycan Partiyası (YAP) Pirallahı rayon təşkilatı və rayon Ağsaqqallar Şurasının birgə təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr olunmuş "Əbədiyaşar Lider" mövzusunda tədbir keçirilib. Gənclər Mərkəzində keçirilən tədbirdə Pirallahı rayon ağsaqqalları və ictimaiyyət nümayəndələri iştirak ediblər.**









YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov qeyd edib ki, Azərbaycan xalqının böyük tarixi şəxsiyyəti, ümummilli lider Heydər Əliyevin ideyaları XXI əsrdə Onun layiqli davamçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Pirallahı rayon Ağsaqqallar Şurasının sədri Fazil Məhəmmədov Pirallahı ağsaqqallarına göstərilən dövlət qayğısından danışıb.

Respublika Ağsaqqallar Şurası sədrinin birinci müavini Bayram Yusibov Ümummilli Liderin xilaskarlıq xüsusiyyətlərini vurğulayıb.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədr müavini Rauf Əliyev ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial, siyasi və iqtisadi siyasətin əsasının ulu öndər Heydər Əliyev tərəfindən qoyulduğunu qeyd edib: "Heydər Əliyev siyasət məktəbinin layiqli yetirməsi olan cənab İlham Əliyevin böyük siyasətdə atdığı inamlı addımlar nəticəsində Azərbaycanda təkcə sosial-iqtisadi sistemdə deyil, həm də siyasi və ictimai təsisatlarda əsaslı yeniləşmələr olub, səmərəli intensiv islahatlar aparılıb."

Pirallahı Rayon İcra Hakimiyyətinin başçısı Vasif İmanov çıxışında bildirib ki, Azərbaycanın sosial-iqtisadi inkişafı bu gün, ilk növbədə, insanların gündəlik həyatında özünü qabarıq büruzə verir: "Azərbaycan Prezidenti cənab İlham Əliyevin yürütdüyü siyasətin məqsədyönlülüyü, ardıcıllığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi ölkəmizin hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın istər daxili, istərsə də xarici siyasətində əldə edilən hər bir uğur ulu öndər Heydər Əliyevin zəkasının təcəssümü, onun irsən qoyub getdiyi milli tərəqqi ideyalarının təzahürüdür."

Çıxışının sonunda Vasif İmanov rayonda həyata keçirilən sosial layihələr barədə tədbir iştirakçılarına məlumat verib.

Tədbirin bədii hissəsi 168 №-li orta məktəbin şagirdlərinin ifasında kompozisiya ilə davam etdirilib.

Sonda Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının ictimai-siyasi həyatında fərqlənən bir qrup şəxsə Fəxri fərmanlar və YAP sıralarına yeni qəbul olunmuş üzvlərə partiyanın vəsiqələri təqdim olunub.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

## 3 MAY - ÜMUMDÜNYA MƏTBUAT AZADLIĞI GÜNÜDÜR

# Azərbaycanda söz və mətbuat azadlığı bütün demokratik prinsiplərə cavab verir



Demokratiyanın əsas göstəricilərindən sayılan söz və məlumat azadlığı prinsipi dövlətlərin, xalqların hərtərəfli inkişafında, cəmiyyətlərin formalaşmasında müstəsna rol oynayır. Bu gün söz və mətbuat azadlığı problemi dünya jurnalistikasında hələ də aktuallığını saxlamaqdadır və müasir medianın inkişafında, şübhəsiz ki, bu problem ən çox müzakirə olunan mövzulardandır. Bu istiqamətdə dünya dövlətlərinin atdığı ən mühüm addımlardan biri 1991-ci il mayın 3-də Namibiyanın paytaxtı Vindhukda baş tutan regional seminar olub. Seminara toplaşan jurnalistlər azad və müstəqil informasiya vasitələrinə yardımçı olmaq məqsədilə dünya hökumətlərini mətbuat azadlığının və demokratiyanın təmin edilməsinə yardımçı olmağa çağıran "Vindhuk Bəyannaməsi"ni qəbul ediblər. Bununla bağlı BMT Baş Məclisi 1993-cü ildə mayın 3-nü "Beynəlxalq söz və mətbuat azadlığı günü" kimi qeyd etməyi qərara alıb. Həmin gündən hər il mayın 3-ü Ümumdünya Mətbuat Azadlığı Günü kimi qeyd olunur. Bu gün münasibətilə keçirilən tədbirlərdə söz və mətbuat azadlığının əsas prinsipləri, ifadə azadlığının inkişaf perspektivləri müzakirə edilir, mətbuatın müstəqilliyinin təmin olunması, senzuranın ləğvi, insan hüquq və azadlıqlarının müdafiəsində mətbuatın rolu və digər məsələlər araşdırılır.

Azərbaycan söz azadlığının yüksək səviyyədə qorunduğu, mətbuat azadlığı prinsipinə hörmətlə yanaşılan ölkələrdəndir. Mətbuatın sözün həqiqi mənasında, müstəqilliyini əldə etməsi, ölkəmizdə söz və mətbuat azadlığının bərpa olunması xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndərin hakimiyyətə qayıdışı ilə bütün sahələrdə olduğu kimi, medianın inkişafında da böyük üfüqlər açıldı. Ölkənin müvafiq qanunvericilik aktlarında dəyişikliklər edildi və Azərbaycan söz və mətbuat azadlığının təmin olunması ilə əlaqədar mövcud beynəlxalq konvensiyalara və sazişlərə qoşuldu. Ulu öndər Heydər Əliyevin 1998-ci ildə imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" fərman mediamızın azad və müstəqil fəaliyyət göstərməsi istiqamətində ciddi əhəmiyyət daşıdı. Bu fərmanla mətbuata nəzarət edən baş idarə ləğv olundu. Həmçinin həmin sənəddə ölkəmizdə fəaliyyət göstərən aparıcı mətbu orqanların maddi-texniki imkanlarının gücləndirilməsi və s. kimi məsələlər də öz əksini tapdı. "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üçün Tədbirlər Proqramı" təsdiq olundu. Vətəndaş müraciətlərinə baxılması, informasiyaların mühafizəsi, məlumat azadlığı, radio-televiziya yayımları, TV və radio haqqında müxtəlif qərar və qanunlar qəbul etməklə KİV-in fəaliyyətinin genişləndirilməsi təmin edildi. 15 mart 2003-cü ildə jurnalistlərin I qurultayında jurnalistlərin qeyri-hökumət təşkilatı olan, özü-özünü tənzimləyən Mətbuat Şurası yaradıldı.

Ulu öndər Heydər Əliyev siyasi kursunun uğurlu davamçısı cənab İlham Əliyev Prezident kimi fəaliyyətə başladığı ilk gündən medianın inkişafına yönəlmiş əhəmiyyətli addımlar atmaqla bu siyasətə sadiq olduğunu təsdiqlədi. Son on beş ildə dövlət başçısı İlham Əliyevin bu sahənin inkişafına xidmət edən addımlarına nəzər salmaq yetərlidir ki, mətbuatın daha da gücləndirilməsi, inkişaf etdirilməsi, peşəkar fəaliyyət göstərməsi üçün görülən böyükmiqyaslı işlərin şahidi olaq. 2008-ci ildə ölkə başçısı İlham Əliyev Ümummilli Liderin yolunu davam etdirərək "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nı təsdiq etdi və medianın inkişafına dəstəyi dövlət siyasəti səviyyəsinə qaldırdı. 2009-cu ildə yaradılmış Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu bu günə qədər azad medianın inkişafına öz önəmli töhfələrini verir. "Əməkdar jurnalist" adının bərpa olunması, "Azərbaycan mətbuat işçilərinin təltif edilməsi haqqında", "Azərbaycan mətbuat işçilərinə fəxri adların verilməsi haqqında", "Kütləvi informasiya vasitələrinə maliyyə yardımı göstərilməsi haqqında" sərəncamlar, mətbuatın 130, 135 və nəhayət 140 illik yubileylərinin respublikanın bütün bölgələrində yüksək səviyyədə qeyd olunması, jurnalistlərin fəxri adlarla mükafatlandırılması, bir neçə peşəkar jurnalistin Prezident təqaüdünə layiq görülməsi, jurnalistlərin mənzil şəraitinin yaxşılaşdırılması atılan addımlar sırasındandır. Bütün bunlar medianın inkişafına dövlət qayğısının ən bariz göstəricisi olmaqla yanaşı, söz və mediaya verilən dəyər, fikir və ifadə azadlığına göstərilən diqqətdir.

**Sevinc Azadi,**
***"İki sahil"***

## Azərbaycançılıq ideologiyası




Nizami Rayon Sosial-İctimai Maarifləndirmə İctimai Birliyi Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə “Azərbaycançılıq ideologiyası və milli mənəvi dəyərlərimiz mövzusunda tədbirlərin təşkili” layihəsinin icrasına başlayıb.

Bununla əlaqədar İctimai Birliyin yaydığı açıqlamada bildirilir ki, azərbaycançılıq ideologiyası real müstəqilliyə nail olmaq, vahid, bölünməz Azərbaycanı qoruyub saxlamaq və möhkəmləndirmək üçün vasitədir. Ulu öndər Heydər Əliyevin fəlsəfi baxışlarına görə, azərbaycançılıq milli mənsubiyyəti, milli mənəvi dəyərləri qoruyub saxlamaq, eyni zamanda, onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək deməkdir. Xalqımızın milli mənəvi dəyərlərini həm müdafiə etməyi, həm də qoruyub saxlamağı bacaran, dövlətlə vətəndaşların mənafeyini üzvi şəkildə birləşdirən azərbaycançılıq ideologiyası ölkədə vətəndaş birliyi və vahid sosium üçün uğurlu təməldir. “Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq”, - deyən Heydər Əliyev dühası azərbaycançılığı milli ideologiyaya çevirməklə cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdu.

Layihə çərçivəsində əsasən gənclər və yeniyetmələr arasında təlim-maarifləndirmə və yaradıcı müsabiqə işlərinin aparılması nəzərdə tutulur.

Qeyd edək ki, 3 ay davam edəcək layihə çərçivəsində müxtəlif tədbirlər keçiriləcək, bukletlər paylanacaq və iştirakçılara sertifikatlar veriləcək.

**Rəşad Bağırov,**
***“İki sahil”***

# Heydər Əliyev və milli mənəvi dəyərlərimiz



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə Yeni Azərbaycan Partiyası (YAP) Kürdəmir rayon təşkilatı Qadınlar Şurasının və Kürdəmir Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Heydər Əliyev və milli mənəvi dəyərlərimiz” mövzusunda “dəyirmi masa” keçirilib. Tədbirdə Kürdəmir Rayon İcra Hakmiyyəti başçısının müavini Vəsilə Əsgərli, Qadınlar Şurasının üzvləri, fəal qadınlar iştirak ediblər. Öncə “dəyirmi masa” iştirakçıları Ulu Öndərin büstü önünə gül-çiçək dəstələri düzüblər.

Tədbiri giriş sözü ilə YAP rayon təşkilatı Qadınlar Şurasının sədri Sevda Hacıyeva açaraq Ulu Öndərin Azərbaycan qadınlarına hər iki hakimiyyəti dövründə qayğısından danışıb. S.Hacıyeva bildirib ki, ümummilli lider Heydər Əliyev müasir Azərbaycan dövlətinin memarı və qurucusudur, Azərbaycan xalqının son min illik tarixində ən böyük tarixi şəxsiyyətlərdəndir.

Kürdəmir Rayon İcra Hakimiyyəti başçısının müavini Vəsilə Əsgərli bildirib ki, Azərbaycanın bugünkü və gələcək nəsillərinin Heydər Əliyevin şərəfli adı və ruhu qarşısında müqəddəs borcu onun qurub-yaratdığı müasir Azərbaycan dövlətinin daha da çiçəklənməsi və qüdrətlənməsi, xalqımızın rifahı naminə fədakarlıqla çalışmaq, milli birliyimizə sədaqətlə xidmət göstərməkdir. Natiq qeyd edib ki, hazırda Azərbaycan qadını ölkəmizin ictimai həyatında fəal iştirak etməklə hətta onu müxtəlif xarici qurumlarda belə təmsil edir: “Bir daha ötən dövrlərə nəzər salarkən Heydər Əliyev fenomeninin, böyüklüyünün, onun Azərbaycan dövləti və xalqı qarşısında misilsiz xidmətlərinin dəyəri daha dərindən dərk edilir. Bu şəraitə, bu inkişafa görə Ulu Öndər siyasətinə və ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarıq.”

YAP rayon təşkilatı İdarə Heyətinin üzvü, Kürdəmir şəhər 6 saylı tam orta məktəbin direktoru Elmira Şıxəliyeva, Mərkəzi Kitabxanalar Sisteminin baş kitabxanaçısı Məhinə Şirəliyeva, Rayon Heydər Əliyev Mərkəzinin elmi işçisi Elnarə Bayramova mövzu ətrafında çıxış ediblər. Natiqlər ulu öndər Heydər Əliyev haqqında, onun həyatı və siyasi fəaliyyəti, haqqında danışaraq, Azərbaycan qadınlarının qəlbində öz əbədi heykəlini ucaltmış Ümummilli Liderin danılmaz xidmətlərindən söhbət açıblar. Vurğulayıblar ki, bu gün xalqımız Ümummilli Liderin siyasi varisi, dünya siyasətində özünəməxsus yer tutan ölkə Prezidenti cənab İlham Əliyevin ətrafında sıx birləşib.

**Orxan Vahidoğlu,**
***“İki sahil”***

# YAP gəncləri ölkəmizin ictimai-siyasi həyatında yüksək fəallıq nümayiş etdirirlər






Yeni Azərbaycan Partiyası (YAP) Kürdəmir rayon təşkilatı Gənclər Birliyinin hesabat-seçki konfransı keçirilib.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov, Milli Məclisin deputatı Elman Nəsirov, Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov və YAP fəallarının, gənclərin iştirakı ilə keçirilən konfransda iştirakçılar ilk olaraq rayon mərkəzində ulu öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Konfransda YAP Kürdəmir rayon təşkilatının sədri Ağali Kərimli bildirib ki, ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə gənclərin himayədarı olaraq sağlam düşüncəli yeni nəslin yetişdirilməsini dövlət və cəmiyyətin mühüm vəzifəsi hesab edib, onların ümummilli dövlət mənafeləri əsasında səfərbər olunması üçün mühüm addımlar atıb. Əsası Ümummilli Liderimiz tərəfindən qoyulmuş dövlət gənclər siyasətin ölkə Prezidenti, YAP-ın Sədri cənab İlham Əliyev tərəfindən layiqincə yerinə yetirilir.

Konfransda YAP Kürdəmir rayon təşkilatı Gənclər Birliyinin sədri Daşqın Rüstəmovun hesabat məruzəsi dinlənilib. Məruzəçi qeyd edib ki, hazırda Gənclər Birliyi 4310 nəfər gənci öz sıralarında birləşdirir, bu da rayon üzrə partiya üzvlərinin 44,5%-ni təşkil edir.

Məruzə ətrafında rayon təşkilatının şura üzvü Heydər Əliyev Mərkəzinin əməkdaşı Xəyyam Məlikov, şəhər 1 saylı tam orta məktəbin müəllimi Günel Musayeva “Azərxalça” ASC-nin Kürdəmir rayon filialının müdiri Rauf Abuşov, Karrar kənd tam orta məktəbinin direktoru Mais Bayramov çıxış edərək Gənclər Birliyinin hesabat dövründəki fəaliyyətini qənaətbəxş hesab edərək, öz rəy və təkliflərini bildiriblər. Bütünlükdə gənclərə göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Konfransda təşkilati məsələlərə baxılıb. 19 nəfərdən ibarət YAP Kürdəmir rayon təşkilatı Gənclər Birliyinin Şura üzvü və 9 nəfərdən ibarət İdarə Heyəti seçilib. Rauf Abuşov YAP Kürdəmir rayon təşkilatı Gənclər Birliyinin sədri, Mais Bayramov və Hacıoğlan Məlikov sədrin müavinləri seçiliblər. Eyni zamanda, YAP Gənclər Birliyinin V konfransına nümayəndələr seçilib.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, partiyanın Gənclər Birliyinin sədri Seymur Orucov, Milli Məclisin deputatı Elman Nəsirov, Kürdəmir Rayon İcra Hakimiyyətinin başçısı Ceyhun Cəfərov respublikamızda gənclər üçün yaradılan böyük imkanlardan və yüksək şəraitdən danışaraq bu gün gəncliyin artıq siyasi cəhətdən formalaşmış, yetkinləşmiş səviyyədə olduğunu diqqətə çatdırıblar. Bildiriblər ki, müasir Azərbaycan dövlətinin memarı Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə gənclərə böyük diqqət və qayğı ilə yanaşıb. Yeni Azərbaycan Partiyasının keçdiyi şərəfli yoldan danışan natiqlər bu gün ölkə rəhbəri cənab İlham Əliyevin gənclərə verdiyi önəmi vurğulayaraq bütün ictimai-siyasi proseslərdə gənclərin fəal şəkildə iştirakını qeyd ediblər.

Natiqlər vurğulayıblar ki, bu gün əsası Ulu Öndər tərəfindən qoyulan, ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən uğurlu gənclər siyasətinin nəticəsidir ki, ölkəmizdə layiqli gənclik yetişir. Azərbaycan gəncliyi yüksək biliklərə yiyələnməklə, müasir dünya görüşünə sahib olmaqla, eyni zamanda, azərbaycançılıq ideyalarına yiyələnməklə ölkəmizin layiqli vətəndaşları kimi formalaşırlar. Hər bir xalqın gələcəyi gənclərlə bağlıdır. Bu gün dövlətçiliyimizə sadiq gəncliyin əhəmiyyətli hissəsi Yeni Azərbaycan Partiyası Gənclər Birliyində təmsil olunurlar. Yeni Azərbaycan Partiyasında təmsil olunan gənclər Azərbaycanın ictimai-siyasi həyatında yüksək fəallıq nümayiş etdirirlər. YAP Gənclər Birliyi sözün həqiqi mənasında özündə böyük siyasi, mənəvi gücü, gənclik enerjisini birləşdirir.

**Orxan Vahidoğlu,**
***“İki sahil”***

# Əməkdaşlıq Razılaşması imzalandı




Bakı Ali Neft Məktəbində (BANM) Cenevrə Biznes Məktəbi (GBS) ilə Neft və Qaz Menecmenti üzrə birgə MBA proqramı barədə Əməkdaşlıq haqqında Razılaşma imzalanıb. Razılaşmanın məqsədi Beynəlxalq Biznes Məktəbləri (IBS) vasitəsilə GBS və BANM arasında tədris və akademik sahələrdə tərəfdaşlıqdır. İmzalanma mərasimində BANM-in professor-müəllim heyəti və əməkdaşları ilə yanaşı, SOCAR-ın Əmək şəraiti normalarının işlənməsi idarəsinin rəis müavini Kamran Dadaşov və idarənin İqtisadi göstəricilər və maliyyə modelləşdirməsi şöbəsinin rəisi Ziya Mürsəlov da iştirak ediblər.

Razılaşmaya əsasən, Bakı Ali Neft Məktəbi növbəti tədris ilindən etibarən GBS-in tədris proqramı əsasında Neft və Qaz Menecmenti üzrə MBA proqramına qəbul həyata keçirəcək. Proqram çərçivəsində tələbələrə neft-qazın treydinqi, rəqəmsal idarəetmə (digital menecment), blokçeyn menecment və digər müasir fənlər tədris olunacaq. Tədrisin yekununda tələbələr həm BANM, həm də GBS-in diplomlarını alacaqlar.

Qonaqları salamlayan BANM-in rektoru Elmar Qasımov GBS ilə danışıqların uğurla nəticələnməsindən məmnun olduğunu söyləyib. O, Azərbaycanda ilk dəfə tədris olunacaq yeni MBA proqramının tələbələr arasında böyük maraq doğuracağını, eyni zamanda, bu proqramın təhsilin beynəlmiləlləşməsində mühüm rol oynayacağını bildirib. Həmçinin rektor deyib ki, BANM-in bütün proqramları kimi, sözügedən MBA proqramı da beynəlxalq standartlara tam cavab verir.

GBS-in Cenevrə kampusunun rektoru Mark Hatton BANM ilə Əməkdaşlıq haqqında Razılaşmanın imzalanmasından məmnun olduğunu, xüsusilə birgə tədris olunacaq Neft və Qaz Menecmenti üzrə MBA proqramının ən yüksək keyfiyyətlə icrası istiqamətində Ali Məktəbə hərtərəfli dəstək göstərəcəklərini bildirib. Mark Hatton əlavə edib ki, bu əməkdaşlıqdan əsas gözləntisi tələbələrin daha çox sosial bacarıqlarının inkişafı və bu bacarıqların praktiki biznesdə tətbiq olunmasına nail olmaqdır.

GBS İsveçrənin ən nüfuzlu tədris müəssisələrindən biridir və dünyanın altı şəhərində bakalavr, magistratura və doktorantura üzrə təhsil verir.

**Zamin Məmmədov,**
***"İki sahil"***

# QAZMA ƏMƏLİYYATLARINA BAŞLANILIB

Birləşmiş Krallığın "Union Jack Oil" neft-qaz hasilatı istismarı şirkəti Şimali İngiltərənin tarixi əyalətlərindən olan Yorkshiredə yerləşən "West Newton" yatağında ənənəvi qazma əməliyyatlarına başlayıb.

"Union Jack Oil" şirkətinin verdiyi məlumata görə, qazma əməliyyatlarına yataqdakı "West Newton A-2" qiymətləndirmə quyusundan başlanılıb. Sözügedən qiymətləndirmə quyusu qaz ehtiyatı ilə zəngin "Kirkham Abbey Shoal", neft ehtiyatı ilə zəngin olan "Cadeby Reef" qumdaşlarını hədəfə alıb. Quyuda qazma işlərinə aprel ayının 26-dan start verilib.

"West Newton A-2" quyusunun yerləşdiyi "PEDL183" bloku Birləşmiş Krallığın "Rathlin Energy" şirkəti tərəfindən idarə olunur və "Union Jack" blokda 17% payın sahibidir. Blokdan 189 milyard kub fut qaz ekvivalenti həcmində ehtiyat hasil olunur. Quyunun hədəfə aldığı "Cadeby Reef" qumdaşlarının ehtiyat həcmi 79.1 milyon barrel neft ekvivalenti təşkil edir.

"İki sahil" "compelo.com" saytına istinadən xəbər verir ki, "West Newton A-2" qiymətləndirmə quyusunun 2061 metr dərinliyə qədər qazılacağı və qazma işlərinin 40 gün



çəkəcəyi gözlənilir. "Union Jack" şirkətinin baş icraçı direktoru David Bramhill çıxışında "West Newton" Birləşmiş Krallıqda yeni bir rübün başlanğıcıdır və gözləntilərimiz yüksəkdir",- deyə bildirib.

# SIZMA MÜŞAHİDƏ OLUNUB



ABŞ-ın Qərbi Vircinya ştatında yerləşən Stonkol gölündə baydarka (yüngül idman qayığı) sürən qayıqçılar neft sızması aşkar ediblər.

Qərbi Vircinyanın Ətraf Mühitin Mühafizəsi Agentliyi əraziyə yollanıb və ərazidən sızan neft yığılıb və təmizləmə işləri aparılıb. Agentliyin direktoru Kasey Korbini sızma ilə əlaqədar ilk məlumatı verərək bildirib ki, sızmanın mənbəyi ərazidən keçən qaz boru xəttidir və boru xətti "Ross and Wharton Gas Company Inc." şirkətinə məxsusdur. Hazırda sızmanın həcmi məlum deyil.

"İki sahil" "wvnews.com" saytına istinadən xəbər verir ki, sızma ətraf təbiətə mənfi təsirini göstərməyib.

## "ATATÜRK YENİDƏN BAKIDA...":

# Ermənilər niyə əl-ayağa düşüb?

Azərbaycan ilə Türkiyə Respublikası arasında hərbi əməkdaşlıq haqqında sazişə əsasən, mayın 1-də "Mustafa Kamal Atatürk-2019" Azərbaycan-Türkiyə birgə döyüş atışlı taktiki təlimi başlayıb. Mayın 3-dək davam edəcək təlimin əsas məqsədi qərargahların müştərək planlarının hazırlanması, şəxsi heyətin döyüş hazırlığı səviyyəsinin artırılması və onların birgə əməliyyatları icra etmək vərdişlərinin inkişaf etdirilməsi ilə Azərbaycan və Türkiyə hərbi bölmələrinin qarşılıqlı fəaliyyətinin koordinasiyasına nail olmaq, həmçinin təcrübə mübadiləsi həyata keçirməklə iki ölkənin hərbi qulluqçularının qarşılıqlı münasibətlərinin və qarşılıqlı anlaşmasının yüksək səviyyədə saxlanılmasıdır.

Azərbaycan və Türkiyə ordularının şəxsi heyəti, zirehli texnikası, artilleriya qurğuları və minaatanları, Hərbi Hava Qüvvələrinin döyüş və nəqliyyat helikopterləri, həmçinin hava hücumundan müdafiə və zenit-raket bölmələrinin cəlb edildiyi birgə təlim başlar-başlamaz Ermənistan cəmiyyəti də yenidən çaxnaşmaya düşüb.

Belə ki, işğalçı ölkənin "Iragir" saytında "Atatürk yenidən Bakıda..." sərlövhəli yazıda Ermənistan ictimaiyyətinin həmin təlimlə bağlı təşvişi aydınca hiss olunur. Sözügedən internet portalının siyasi icmalçısı Naira Ayrumyanın yazıya qoyduğu başlıq da təbii ki, təsadüfi seçilməyib. Bununla da Azərbaycan-Türkiyə hərbi-strateji əməkdaşlığı barəsində həmişə qorxu ilə söz açan təcavüzkar ölkənin analitikləri bu dəfə də narahatlıqlarını və təlaşlarını dilə gətirməkdən özlərini saxlaya bilməyiblər: "Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı Ermənistan üçün yenilik deyil: Vaxtaşırı türk hərbi təlimçiləri Azərbaycan hərbçilərini öyrədir, Türkiyə Azərbaycan üçün silah tədarük edir, amma ən əsası həmişə Bakının diplomatiyasına dəstək verir..."

Müəllif iki ölkənin birgə təliminin regiona və dünyaya güc göstərisi olduğunu iddia edərək bir tərəfdən Azərbaycan-Türkiyə sarsılmaz ittifaqına olan qısqanclığını gizlədə bilməyib, digər tərəfdən isə mümkün müharibə ehtimalında Bakının çox güclü strateji bir müttəfiqlə birgə işğalçı Ermənistan ordusunu darmadağın edəcəyindən duyduğu qorxunu ifadə edib.



N.Ayrumyan paranoyak düşüncələrinin müşayiəti ilə iki ölkənin birgə təliminin Atatürkün şərəfinə adlandırılmasının da təsadüfi olmadığını iddia edərək buna öz cəfəng fikirləri ilə şərh verib.

Yazı müəllifi sözügedən birgə təlimi əsas gətirərək Rusiyaya xitabən "Azərbaycanla münasibətləri getdikcə yaxınlaşdırmaq istiqamətində yavaşlamağı" da "məsləhət" görməyi unutmayıb: "Rusiya Ermənistana arxa çevirərək Bakı ilə nəzərdə tutduğu müttəfiqliyi istiqamətində "sürəti-ni" yavaşlatmalıdır.

Xatırladaq ki, Rusiyanın Ermənistandakı hərbi bazasını çoxfunksiyalı qırıcılarla təchiz etmək niyyəti, eləcə də bu cür qırıcıların Ermənistana satışının nəzərdə tutulması Bakıda qeyri-dostluq addımı kimi qəbul edilib. Rusiya ona görə də indi Azərbaycan və Ermənistana olan münasibətində seçimini etməlidir".

Həm texniki təchizat, həm də döyüşçü potensialı baxımından bərbad vəziyyətdə olan Ermənistan ordusunun guya bütün təmas xətti boyu çox ciddi şəkildə hər şeyi nəzarətdə saxladığını da yazısında qeyd edən şərhçinin özünə təsəlli verməyə çalışdığı sezilir.

Bütövlükdə Türkiyə-Azərbaycan strateji əməkdaşlığının Ermənistanı əməlli-başlı qorxutması başadüşüləndir. Çünki Türkiyə dövləti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ilk günlərindən daim Azərbaycanın haqlı mövqeyini dəstəkləyir. Türkiyə rəhbərliyi mütəmadi olaraq beynəlxalq tribunalardan Ermənistanın işğal etdiyi tarixi Azərbaycan torpaqlarından dərhal və qeyd-şərtsiz çıxması tələbi ilə çıxış edir, ölkəmizin ərazi bütövlüyünün təmin olunması istiqamətində böyük səylər göstərir.Türkiyə dövləti hər zaman münaqişənin həlli yolunun yalnız Azərbaycanın razılaşacağı şərtlər çərçivəsində qəbul edəcəyini bildirərək bu məsələ öz ədalətli həllini tapmayana qədər Ermənistan ilə diplomatik münasibətlər qurmayacağı və heç bir iqtisadi əlaqə yaratmayacağı barədə öz prinsipial mövqeyini qorumaqdadır.

Xatırladaq ki, Türkiyə 1993-cü ildən etibarən Azərbaycanı dəstəkləyərək işğalı davam etdirməsi səbəbindən Ermənistanla sərhədini bağlayıb.

Bu gün də ölkələrimiz arasında strateji tərəfdaşlıq münasibətləri ən yüksək səviyyədə davam edir, eyni zamanda, hər iki ölkənin rəhbərləri şəxsi dostluq münasibətləri müstəvisində də bütün sahələrdə əlaqələrin uğurla inkişafı üçün əllərindən gələni əsirgəmirlər.

Bölgədə Türkiyə-Azərbaycan əməkdaşlığı, işbirliyi olmadan heç bir təşəbbüs, heç bir layihənin gerçəkləşməməsi də işğalçılıq siyasəti ucbatından regionda təcrid edilən Ermənistanı daim hiddətləndirən əsas amillərdəndir.

Bütün bu faktlara və Türkiyə-Azərbaycan qardaşlığı tablosuna ümumi nəzər saldıqda, əlbəttə, ayrumyanların və qeyri-ayrumyanların xeyli təlaşlanmasına böyük əsas var. Dünyanın möhtəşəm ordusuna malik ölkələrdən biri olan Türkiyə və hərbi potensialına görə dünyanın ən güclü 50 ordusu sırasında yer alan Azərbaycan Silahlı Qüvvələrinin iki doğma bayraq altında bir vahid qardaşlıq amalı ətrafında birləşməsi işğalçı Ermənistanı qorxu içində saxlamaq üçün yetərlidir. Ermənistan işğalçılıq siyasətindən əl çəkməyənə qədər Atatürk ordusunun Azərbaycanda görünməsi ilə hər dəfə bu qorxunu iliklərinə qədər yaşamağa məhkumdur...

**Sevinc Abdullayeva,**
***"İki sahil"***

## Azərbaycanın ərazi bütövlüyü danışıqlar predmeti olmayıb və olmayacaq



Bu gün Azərbaycanın xarici siyasətində əsas prioritet ölkənin ərazi bütövlüyünü təmin etmək, tez bir zamanda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həllinə nail olmaqdır. İşğalçı Ermənistan isə beynəlxalq hüquqa əhəmiyyət vermir, onları kobud şəkildə pozur, dünya ictimaiyyətinə saygısızlıq nümayiş etdirir. Dövlətimizin başçısı cənab İlham Əliyev bütün xarici səfərlərdə, eləcə də Bakıda keçirdiyi çoxsaylı görüşlərdə Ermənistanın hərbi təcavüzü məsələsini daim önə çəkərək Azərbaycan xalqının öz torpaqlarının işğalı ilə heç zaman razılaşmayacağını, ehtiyac yarandığı halda, hərbi əməliyyatların başlanmasına qərar verəcəyini belə vurğulayır. Ona görə də Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən xarici siyasət kursunda Dağlıq Qarabağ münaqişəsinin həlli hər zaman əsas vəzifə kimi qarşıya qoyulur.

Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Prezident İlham Əliyev Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinə toxunaraq münaqişənin həlli ilə bağlı mövqeyimizdə heç bir dəyişiklik olmadığını qeyd etdi: "Prinsipial mövqeyimiz ondan ibarətdir ki, bu məsələ ölkəmizin ərazi bütövlüyü çərçivəsində, beynəlxalq təşkilatların qəbul etdikləri qərar və qətnamələr əsasında, Helsinki Yekun Aktına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun həll olunmalıdır. Başqa yanaşma yoxdur".

Dövlətimizin başçısı qeyd edib ki, Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq: "Onu da bildirməliyəm ki, danışıqlar formatı dəyişməz olaraq qalır. Baxmayaraq ki, bəzi cəhdlər olub, ancaq bizim fəaliyyətimiz nəticəsində bu cəhdlərin qarşısı alınıb. Həmçinin Minsk qrupunun həmsədrləri tərəfindən martın 9-da verilmiş açıqlama birmənalıdır və bir daha onu göstərir ki, münaqişənin iki tərəfi var. Ona görə hesab edirəm ki, bu mövzu artıq öz həllini tapıb. Biz bundan sonra da öz prinsipial mövqeyimizdə qalacağıq, ölkəmizi, ordumuzu gücləndirəcəyik. Bu ilin əvvəlindən bu istiqamətdə də böyük işlər görülüb və görüləcək".

Politoloq Rufiz Qonaqov sözgedən məsələ ilə bağlı qəzetimizə açıqlamasında bildirdi ki, Prezident İlham Əliyev Nazirlər Kabinetinin son iclasında Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı növbəti dəfə həm ölkə, həm dünya ictimaiyyəti, həm də kütləvi informasiya vasitələri üçün böyük maraq doğuran fikirlər səsləndirdi: "Cənab Prezident bildirdi ki, heç zaman Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın ərazi bütövlüyü danışıqlar predmeti olmayıb. Biz bilirik ki, Azərbaycanın ərazi bütövlüyü prinsipi bütün dünya birliyi, beynəlxalq təşkilatlar tərəfindən tanınıb. Bununla da işğal altında olan ərazilərimiz Azərbaycanın əzəli və tarixi torpağı kimi göstərilir. Bu gün Birləşmiş Millətlər Təşkilatının, ATƏT-in, Avropa Şurasının, Avropa Birliyinin, İslam Əməkdaşlıq Təşkilatı və digər təşkilatların işğalçı Ermənistan və Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qətnamələri göz önündədir".

Politoloq onu da qeyd etdi ki, çıxışı zamanı cənab Prezident bildirdi ki, Ermənistanın yeni hökuməti buraya separatçı rejimi cəlb etməklə status-kvonunu qoruyub saxlamaq istəyirdi: "Lakin bütün bunlara son qoyuldu. Çünki ATƏT-in Minsk qrupunun martın 9-da olan bəyanatında açıq-aşkar göstərildi ki, burada iki tərəf var Ermənistan və Azərbaycan. Sözsüz ki, Ermənistan işğalçı ölkədir. Azərbaycanın əraziləri isə Ermənistan tərəfindən işğal edilib. Bununla da artıq bu məsələyə, Ermənistanın hiyləgər mövqeyinə də son qoyuldu. Əlbəttə ki, burada başqa cür də ola bilməzdi. Çünki qeyd olunduğu kimi, heç kəs Dağlıq Qarabağı bir müstəqil ölkə kimi tanımayıb və tanıya da bilməz. Bu, sadəcə olaraq, Ermənistanın orada yaratdığı separatçı bir rejimdir. Bu baxımdan hər kəs bilir ki, Azərbaycan yalnız Ermənistan tərəfindən təcavüzə məruz qalıb. Prezident İlham Əliyevin də son iclasda səsləndirdiyi fikirlər bir daha onu göstərdi ki, kimlərsə bunu imitasiya edərək səsləndirirlərsə hansısa daxili, xarici qüvvələr və yaxud da xaricdə olan erməni diasporunun təsiri altında olan qüvvələr bunu birdəfəlik bilməlidirlər ki, heç bir zaman Azərbaycanın ərazi bütövlüyü danışıqlar predmeti olmayıb və bundan sonra da olmayacaqdır".

**Mənsumə Babayeva,**
***"İki sahil"***

# "Azərsu" Qazaxda layihənin icrasına başlayıb



"Azərsu" Açıq Səhmdar Cəmiyyəti (ASC) cəbhə bölgəsində yerləşən Qazax şəhərinin içməli su və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsinin icrasına başlayıb. Podratçı təşkilat əraziyə lazımi texnika və avadanlıqlar, mal-material ehtiyatları tədarük edib, küçələrdə su və kanalizasiya xətlərinin tikintisi paralel aparılır. Tikinti işlərinin icra vəziyyəti və gələcəkdə görüləcək işlər Qazax şəhərində "Azərsu" ASC-nin, məsləhətçi və podratçı təşkilatların nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə geniş müzakirə olunub.

"Azərsu" ASC-nin sədr müavini Etibar Məmmədov əhalinin içməli su və kanalizasiya sistemi ilə təminatının yaxşılaşdırılması istiqamətində görülən işlərdən danışıb. Qeyd edib ki, Prezident İlham Əliyev şəhər və rayon mərkəzlərinin, həmçinin kəndlərin içməli su təchizatının yaxşılaşdırılmasını daim diqqətdə saxlayır. Cəbhə bölgəsində yerləşən Qazax şəhərində içməli su və kanalizasiya layihəsinin icrası əhalinin sosial problemlərinin həllinə göstərilən diqqətin nümunəsidir.

Tədbirdə layihənin məqsədi, faydası, tikinti-quraşdırma işlərinin icra qrafiki, ekoloji əhəmiyyəti barədə ətraflı məlumat verilib. Layihə və podratçı təşkilatların nümayəndələri tikinti-quraşdırma işlərinin vaxtında və keyfiyyətli icrası üçün bütün lazımi tədbirlərin görüləcəyini bildiriblər.

Qeyd olunub ki, Qazax şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması layihəsi Azərbaycan Hökuməti və İslam İnkişaf Bankı tərəfindən birgə maliyyələşdirilən "Azərbaycanın 6 rayonunda Milli Su Təchizatı və Kanalizasiya Proqramı" çərçivəsində həyata keçirilir. Layihə 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla Qazax şəhərində 26 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Bu layihə çərçivəsində gələcəkdə Qazax rayonunun Ağköynək, Qarapapaq, Hüseynbəyli və Ağstafa rayonunun Dağ Kəsəmən kəndlərinə də içməli suyun verilməsi nəzərdə tutulur. Ümumilikdə bu layihədən 45 min sakin faydalanacaq.

Qazax şəhərində əhalinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə 6,4 km magistral su kəməri, ümumi tutumu 10 min kubmetr olan 2 ədəd su anbarı, 106,4 km paylayıcı su şəbəkəsi inşa ediləcək. Bununla paralel olaraq şəhərin kanalizasiya infrastrukturu da yenidən qurulacaq. Şəhər ərazisində 82,3 km uzunluğunda kanalizasiya şəbəkəsi yaradılacaq, 4,4 km kanalizasiya kollektoru tikiləcək. Ümumilikdə şəhərdə 5870 ünvan su və kanalizasiya şəbəkələrinə qoşulacaq və sayğaclar quraşdırılacaq. İçməli su və kanalizasiya şəbəkələrinin tikintisinin 2020-ci ilin sonunda başa çatdırılması planlaşdırılır.

Şəhərdə yaranan tullantı sularının təmizlənib zərərsizləşdirilməsi məqsədilə gələcəkdə məhsuldarlığı sutkada 10 min kubmetr olan tullantı sutəmizləyici qurğu tikiləcək.

Qeyd edək ki, Azərbaycan Hökuməti və İslam İnkişaf Bankı tərəfindən birgə maliyyələşdirilən layihə Qazax şəhəri ilə yanaşı, Tərtər, Gədəbəy, Daşkəsən və Astara şəhərlərini də əhatə edir. İndiyədək Tərtər, Gədəbəy və Daşkəsən şəhərlərində içməli su və kanalizasiya, Astara şəhərində isə içməli su şəbəkələrinin tikintisi başa çatıb.

**Orxan Vahidoğlu,**
***"İki sahil"***

# Forum milli-mədəni irsimizin təbliğində əhəmiyyətli rol oynayacaq

**Mayın 2-də Heydər Əliyev Mərkəzində "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu işə başlayıb. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Forumun açılış mərasimində iştirak ediblər. Forum Azərbaycan hökumətinin təşkilatçılığı, UNESCO-nun, BMT-nin Sivilizasiyalar Alyansının, Dünya Turizm Təşkilatının, Avropa Şurasının və İSESCO-nun tərəfdaşlığı ilə keçirilir. Tədbirdə 100-dən çox ölkənin və 30-dan çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmiləri iştirak edirlər.**



Sözügedən beynəlxalq tədbirin Bakıda keçirilməsinin əhəmiyyətini şərh edən **"Bakı xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev** qəzetimizə açıqlamasında bildirdi ki, bu gün Azərbaycanın dünya arenasında çox yaxşı işgüzar münasibətlərdə olduğu təşkilatlardan biri də UNESCO-dur: "UNESCO həm dünya mədəni irsinin müdafiə olunması sahəsində təcrübənin Azərbaycan ictimaiyyətinə çatdırılmasında, həm də ölkəmizin milli-mədəni, mənəvi irsinin mühafizə olunmasında və bunun dünyaya çatdırılmasında çox böyük rol oynayır. Xüsusilə UNESCO-nun Azərbaycanda Heydər Əliyev Fondu ilə əməkdaşlığı çox yüksək səviyyədədir və bu əməkdaşlıq real praktiki nəticələr verir. Heç şübhəsiz ki, sözügedən beynəlxalq tədbirin Bakıda keçirilməsinin çox böyük əhəmiyyəti var. O mənada ki, həm belə beynəlxalq tədbirlərin təşkilində və keçirilməsində ölkəmizin böyük təcrübəsi var, həm də Azərbaycan ictimaiyyətinin bu tədbirlərin respublikamız üçün böyük faydalar gətirə biləcəyinə artıq böyük inamı formalaşıb".

A.Quliyev söylədi ki, ictimaiyyətimiz belə tədbirlərin ilk növbədə dövlətimizin reallıqlarının dünyada tanıdılmasında və malik olduğumuz milli mədəni, maddi sərvətlərin əcnəbilərə təqdim olunmasında nə qədər böyük rol oynadığının fərqinə varır: "Həm də Azərbaycan mediası bu cür tədbirlərin işıqlandırılmasında böyük təcrübəyə malikdir. Ona görə də bu tədbirin ölkəmizdə keçirilməsi millimənəvi dəyərlərimizin dünyada tanıdılması istiqamətində yeni bir şansın açılmasında böyük rol oynayacaq. Xüsusilə də cəmiyyətimizdəki tolerant ənənələrin, milli mənəvi dəyərlərin, bizim malik olduğumuz mənəvi sərvətlərin ilk nümunələrinin əcnəbi qonaqlara təqdim olunması və onların bir daha bunlarla tanış edilməsində bu tədbirin böyük əhəmiyyəti olacaq. Maraqlıdır ki, bu tədbirdə iştirak edən qonaqların özlərinin də Azərbaycana çox böyük marağının olduğunu düşünürəm. Çünki əvvəlki təcrübələrdən bilirik ki, Azərbaycanda belə tədbirlərdə iştirak edən əcnəbi qonaqlar növbəti dəfə də belə tədbirlərə gəlib iştirak etməyə həvəsli olurlar. Çünki ölkəmizdəki qonaqpərvərlik, Azərbaycan cəmiyyətinin qonaq qarşılamaq sahəsində malik olduğu dəyərlər onlar üçün çox məqbuldur. Ona görə bu tədbirin həm milli mənəvi dəyərlərimizin, həm də mədəni irsimizin dünyaya bir daha tanıdılmasında əhəmiyyətli rol oynayacağı şübhəsizdir. İnanıram ki, Azərbaycan cəmiyyəti də bütün əvvəlki beynəlxalq tədbirlərdə olduğu kimi, bu tədbirin də yüksək səviyyədə keçirilməsi və qonaqpərvərliyimizin nümayiş etdirilməsi üçün lazım olan bütün addımları atacaq".

**Cavid Əkbərov,**
***"İki sahil"***

# YAP Qaradağ rayon təşkilatında Ulu Öndərin doğum günü qeyd edilib

***Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Qaradağ rayon təşkilatının Neftçi nəqliyyatçı, 4 saylı BUX, Lökbatan bələdiyyəsi, Lökbatan qəsəbə nümayəndəliyi, Ə.Əmirov adına NQÇİ, 180, 223, 321 saylı tam orta məktəb, Su kanal idarəsi, SOCAR Təlim-Tədris Mərkəzi, Poçt idarəsi, DSMF və digər təşkilatlar üzrə ərazi ilk partiya təşkilatlarında tədbirlər keçirilib.***



Tədbirlərdə YAP Qaradağ rayon təşkilatının sədri, Milli Məclisin deputatı Aydın Huseynov, rayon təşkilatının sədr müavini Munis Bayramov, aparat rəhbəri Haci İbrahimov, baş məsləhətçi Ramiz Yusubov, İdarə Heyətinin üzvləri Nəzakət Məmmədova, Ramin Quliyev, Nəriman Qurbanov, Gənclər Birliyinin sədri Seyidməmməd Məmmədzadə və digərləri iştirak ediblər. Tədbirlərdə deputat Aydın Hüseynov çıxış edərək Ulu Öndərin Azərbaycan dövlətçiliyi qarşısında misilsiz xidmətlərindən danışıb.

Bildirilib ki, Azərbaycanın yeni tarixinin bütöv bir mərhələsi bilavasitə dünya səviyyəli siyasətçi və dövlət başçısı, zəmanəmizin bənzərsiz şəxsiyyəti Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderimizin adı özünü azərbaycanlı sayan hər bir kəsin qəlbində sadəliyi, səmimiyyəti, alicənablığı, vətənpərvərliyi və bütün digər yüksək insani keyfiyyətləri ilə unudulmaz izlər buraxıb. Bu dahi insanın adı Azərbaycan xalqının simvoluna, əməlləri isə şəxsi hünər rəmzinə çevrilib, həyat və fəaliyyəti doğma xalqına və torpağa məhəbbət və sədaqət meyarı olub.

Aydın Hüseynov qeyd edib ki, Azərbaycanı məhv olmaq təhlükəsindən xilas edən Ulu Öndər ölkəni xaos və böhrandan qurtardı, vətəndaş müharibəsinin qarşısını aldı, ölkədə siyasi sabitlik yaratdı. Heydər Əliyevin müdrikliyi, siyasi iradəsi, uzaqgörənliyi nəticəsində digər sahələrdə olduğu kimi, iqtisadi sahədə də genişmiqyaslı islahatlar həyata keçirilib. Ümummilli Liderin davamlı və dayanıqlı, sosialyönümlü və innovativ iqtisadiyyatın formalaşması istiqamətində həyata keçirdiyi strategiya, o cümlədən neft, aqrar islahatlar, özəlləşdirmə, regionların tarazlı inkişafı siyasəti, sahibkarlığın inkişafı, infrastrukturun, yeni istehsal sahələrinin yaradılması, nüfuzlu beynəlxalq maliyyə institutları ilə əlaqələrin qurulması kimi kompleks tədbirlər sonrakı illərdə ölkə iqtisadiyyatının dinamik inkişafı üçün möhkəm zəmin yaradıb.

**Zamin Məmmədov, "İki sahil"**

*Migel Silva:*

# Foruma çoxsaylı peşəkar mütəxəssislərin və ekspertlərin dəvət olunması təqdirəlayiqdir

Forumun çox zəngin proqramı var. İki gün ərzində bizim müzakirə edəcəyimiz məsələlər beynəlxalq əməkdaşlıq baxımından çox önəmlidir. Forum müxtəlif ölkələrdən olan nüfuzlu alimlərin, siyasi və ictimai xadimlərin bir yerə toplaşaraq mövcud çətinlikləri, problemləri və onların həlli yollarını müzakirə etməsinə imkan yaradır.



Bu fikri AZƏRTAC-a müsahibəsində Forum çərçivəsində BMT-nin Sivilizasiyalar Alyansının təşkil etdiyi "Qlobal vətəndaşlıq təhsili: sülh mədəniyyətinin aşılanması" aralıq sessiyasının panelçisi, Avropa Şurasının Şimal-Cənub Mərkəzinin Qlobal Təhsil Proqramının meneceri Migel Silva deyib.

O bildirib ki, dünyada şiddətə, zorakılığa qarşı mübarizə aparmaq istəyən, sülh, qarşılıqlı anlaşma uğrunda çalışan insanların sayı durmadan artır. Bakıda təşkil edilən Forumun iştirakçılarının sayı da bunu deməyə əsas verir. Azərbaycan hökuməti tərəfindən builki Foruma dinlərarası və mədəniyyətlərarası dialoq sahəsində çoxsaylı peşəkar mütəxəssislərin və ekspertlərin dəvət olunması təqdirəlayiqdir. Bu Forum dünyanı narahat edən çağırışların həlli yollarını tapmaqla bağlı səmərəli müzakirələrin aparılması baxımından xüsusi əhəmiyyət daşıyır.

*Kuani Şimon:*

# Azərbaycan dünyanın mədəniyyətlərarası dialoq mərkəzlərindən birinə çevrilib

Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu xalqlar, icmalar və cəmiyyətlər arasında dialoq üçün optimal şəraitin və bu şəraitin həm daxili, həm də millətlərarası "müxtəliflik dividentlərini", yeni cəmiyyətlərin daha da müxtəlifləşməsindən irəli gələn fayda və üstünlükləri artırmaq yollarını araşdırmağa imkan yaradacaq.



Bu fikri AZƏRTAC-a müsahibəsində Forum çərçivəsində BMT-nin Sivilizasiyalar Alyansının təşkil etdiyi "Qlobal vətəndaşlıq təhsili: sülh mədəniyyətinin aşılanması" aralıq sessiyasının panelçisi, UNESCO-nin Sülh və Dayanıqlı İnkişaf üzrə Mahatma Qandi Təhsil İnstitutunun təhsil vasitəsilə zorakı ekstremizmin qarşısının alınması üzrə mütəxəssisi Kuani Şimon deyib.

O qeyd edib ki, Forumda 105-dən çox ölkə və 35-dən çox beynəlxalq təşkilatın yüksək səviyyəli rəsmilərinin iştirakı "Bakı Prosesi"nin coğrafiyasının və beynəlxalq əməkdaşlığın genişlənməsindən xəbər verir: "Forumun Bakıda təşkili Azərbaycanın dünyanın mədəniyyət və mədəniyyətlərarası dialoq mərkəzlərindən birinə çevrilməsinə dəlalət edir. Dialoq, anlaşma, sülh, sabitlik, mehriban birgə yaşama, tolerantlıq kimi şüarların və təbliğat işlərinin yayılması olduqca vacibdir. Azərbaycana və Prezident İlham Əliyevə belə bir təşəbbüsü reallaşdırdığına görə təşəkkür edirəm."

*UNESCO rəsmisi:*

## Bakı Forumu dünya qarşısında duran çağırışlarla bağlı səmərəli müzakirələr aparmaq üçün böyük imkanlar verir

Bakıda "Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq" şüarı altında keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu dünya qarşısında duran çağırışlarla bağlı səmərəli müzakirələr aparmaq üçün böyük imkanlar verir.



Trend-in məlumatına görə, bunu UNESCO-nun Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Nada Al-Naşif Forum çərçivəsində beynəlxalq təşkilatların yüksək səviyyəli panelində müzakirələr zamanı deyib.

Al-Naşif bildirib ki, bu gün insanların fikirlərində sülhü və təhlükəsizliyi təbliğ etməyə ehtiyac var. O qeyd edib ki, dünyada sülhün və təhlükəsizliyin təmin edilməsi üçün dialoqun və tərəfdaşlığın mühüm rolu var: "Bu gün dünyanın daha geniş dialoqa, tərəfdaşlığa ehtiyacı var. Bu baxımdan Bakı Forumu səmərəli müzakirələr aparmaq üçün böyük imkanlar verir. Forum dünyanın tanınmış ekspertlərini bir araya gətirir, səmərəli fikir və təcrübə mübadiləsi aparılır".

# ADU-da görüş



Mayın 2-də Azərbaycan Dillər Universitetinin (ADU) rektoru, akademik Kamal Abdulla Türkiyənin Atılım Universitetinin rektor köməkçisi, professor Sərkan Ərylmazın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Qardaş ölkə təmsilçilərini rəhbərlik etdiyi universitetdə görməkdən məmnun olduğunu söyləyən rektor Kamal Abdulla ötən il Türkiyənin Atılım Universiteti ilə ADU arasında əməkdaşlıq memorandumunun imzalandığını xatırladıb. Elm, təhsil sahəsində qardaş ölkənin ali təhsil müəssisələri ilə əməkdaşlığın əhəmiyyətli olduğunu vurğulayan rektor bu istiqamətdə müxtəlif layihələrin həyata keçiriləcəyini söyləyib.

K.Abdulla Azərbaycanda multikulturalizmlə bağlı görülən işlər barədə məlumat verərək bu istiqamətdə də birgə əməkdaşlığın mümkünlüyündən danışıb.

ADU ilə təcrübə mübadiləsinin hər iki universitet üçün faydalı olacağını bildirən Atılım Universitetinin rektor köməkçisi, professor Sərkan Ərylmaz təmsil etdiyi ali təhsil müəssisəsi haqqında məlumat verib. O bildirib ki, 1996-cı ildə yaradılan, Türkiyənin paytaxtı Ankara şəhərində yerləşən universitet fəaliyyət göstərdiyi qısa zaman ərzində "QS İnkişaf Etməkdə olan Avropa və Mərkəzi Asiya" regionu üzrə reytinq cədvəlində, "Times Higher Education World University Ranking"lərdə əhəmiyyətli mövqelər tutub. S.Ərylmaz bildirib ki, Atılım Universitetində 50-dən çox xarici ölkədən olan gənclər təhsil alırlar. Bu universitetdə tədris türk və ingilis dillərində aparılır.

Daha sonra qarşılıqlı əməkdaşlıq, tələbə və müəllimlərin təkmilləşdirilməsi istiqamətində görüləcək işlər müzakirə olunub.

# Memorandum imzalanıb



Mayın 2-də Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (ADNSU) ilə Türkiyənin Atılım Universiteti arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. İmzalanma mərasimində ADNSU-nun Tədris işləri üzrə prorektoru, dosent Qasım Məmmədov, Beynəlxalq əlaqələr üzrə prorektor, dosent Rafiq Camalov, Qaz-neft-mədən fakültəsinin dekanı professor Qafar İsmayılov, həmçinin Əcnəbi tələbələrin dekanı Yaşar Həsənov və digərləri iştirak ediblər.

ADNSU-nun tədris işləri üzrə prorektoru, dosent Q.Məmmədov universitetdə tədris prosesi, fakültələr, beynəlxalq əməkdaşlıq, startap layihələri, o cümlədən universitetin nəzdində fəaliyyət göstərən Azərbaycan-Fransız Universiteti (UFAZ) haqqında qonaqlara geniş məlumat verib. Bildirib ki, 1920-ci ildən fəaliyyət göstərən ali məktəb gələn il 100 illik yubileyini keçirməyə hazırlaşır. ADNSU-nun Avropa və Asiya regionunda ilk neft təmayüllü ali məktəb olduğunu deyən prorektor burada Türkiyə də daxil olmaqla dünyanın ayrı-ayrı ölkələrinin vətəndaşlarının təhsil aldığını söyləyib.

Türkiyənin Atılım Universitetinin rektor köməkçisi, professor Sərkan Ərylmaz bu əməkdaşlığın hər iki tərəfə böyük fayda verəcəyini və Türkiyə-Azərbaycan əlaqələrinin daha da möhkəmlənməsinə xidmət edəcəyini vurğulayıb. S.Ərylmaz onu da vurğulayıb ki, Ankaranın "Esenboğa" hava limanında fəaliyyət göstərən Mülki Aviasiya Tədris Mərkəzində tələbələrin təcrübə proqramları keçmələri üçün də hər bir şərait yaradılıb.

Qonaqlar ADNSU ilə əməkdaşlıq imkanlarını nəzərdən keçirib, yeni layihələr üzərində işləmək istədiklərini diqqətə çatdırıblar.

# İldırım Məmmədov: Ölkəmizdə güclü sahibkarlar sinfi formalaşıb

"Sahibkarlığın inkişafı ölkəmizin iqtisadi potensialının hərəkətə gətirilməsi baxımından olduqca əhəmiyyətlidir. Buna görə də hazırda sahibkarlara, demək olar ki, maksimum dərəcədə sərbəstlik verilib. Prezident İlham Əliyev də sahibkarlarla görüşlərində, eləcə də keçirdiyi müşavirələrdə sahibkarlığın inkişafının ölkə üçün prioritet məsələlərdən biri olduğunu dəfələrlə vurğulayıb". Bu fikirləri **Kənd Təsərrüfatı Nazirliyinin nəzdində fəaliyyət göstərən Fermerlər Şurasının üzvü, "Tərəqqi" medallı İldırım Məmmədov** "İki sahil" qəzetinə açıqlamasında söylədi. Bildirdi ki, artıq sahibkarlığın inkişafı regional iqtisadi siyasətin ən mühüm elementlərindən birinə çevrilib: "Belə ki, son illər regionların sosial-iqtisadi problemlərinin həllində özəl sektora daha çox üstünlük verilir. Bu baxımdan kənd təsərrüfatının inkişaf etdirilməsi regionlardakı problemlərin aradan qaldırılmasına şərait yaradır. Məsələn, bu yaxınlarda Qubada yeni süd emalı sexinin və istehsal olunmuş məhsulların satışı bazasının tikintisinə başlanılıb. Artıq beton konstruksiya işləri başa çatmaq üzrədir. Məlumata görə, burada həm süd və süd məhsulları, həm də şirniyyat-konditer məmulatları istehsal ediləcəkdir. Gündə 22-24 ton süd qəbul edə biləcək sexdə 135 nəfər işçinin çalışacağı nəzərdə tutulub. Göründüyü kimi, bir sexlə bu qədər insan işlə təmin olunacaq ki, bu da işsizliyin aradan qaldırılmasına bir sahibkar töhfəsi olacaq. Yeri gəlmişkən, hazırda Şabranda yun emalı sexi də inşa olunur".

Müsahibimiz vurğuladı ki, bu gün hər bir imkanlı adam ölkəmizin müxtəlif bölgələrində bu sahənin inkişafında maraqlıdır: "Niyə də olmasın? Son illər ölkəmizdə özəl bölmənin inkişafı ilə bağlı həyata keçirilən dövlət siyasəti iqtisadiyyatın müxtəlif sahələrində işgüzar fəaliyyət üçün normativ hüquqi, təşkilati və maliyyə təminatı səviyyəsini yüksəldib. Üstəlik, indi heç bir regionumuzda işıq, qaz, su, yol problemi yoxdur. Yəni infrastruktur layihələri həyata keçirilib. Prezident İlham Əliyevin bildirdiyi kimi, əgər infrastruktur layihələri olmasaydı, sahibkar investisiya qoya bilməzdi. Bu mənada 2004-cü ildən uğurla icra olunan regionların sosial-iqtisadi inkişafına dair Dövlət proqramları rayonların iqtisadi potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin yüksəlməsinə təkan verib. Digər tərəfdən, dövlət sahibkarları həmişə dəstəkləyir, onlara güzəştli kreditlər verir. Təkcə bir faktı xatırladım ki, 2018-ci ildə İqtisadiyyat Nazirliyinin tabeliyində Sahibkarlığın İnkişafı Fondunun xətti ilə 999 sahibkara 160 milyon manat məbləğində güzəştli şərtlərlə kreditlər ayrılıb. Bu kreditlərin 64,3 faizi regionların, 35,7 faizi isə Bakı şəhərinin qəsəbələrinin payına düşüb. Güzəştli kreditlərin 70,3 faizi aqrar sektorun, 29,7 faizi müxtəlif sənaye məhsullarının istehsalı və emalı sahələrinin inkişafına yönəldilib.



Sahibkarların fəaliyyətinə əsassız və qanunsuz müdaxilələr, bürokratik yoxlamalar aradan qaldırılıb. Bütün bunlara baxmayaraq, aprelin 30-da Nazirlər Kabinetinin 2019-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında iqtisadi inkişafın təminatçısı sayılan sahibkarlar sinfinin fəaliyyətini yüksək dəyərləndirən Prezident İlham Əliyevin diqqət yetirdiyi əsas məqamlardan biri məhz sahibkarlıqla bağlı oldu: "Ölkə Prezidenti iclasda bildirdi ki, sahibkarlar bundan sonra da fəal olmalıdırlar və yeni müəssisələr, iş yerləri yaradılmalıdır: "Əlbəttə ki, mən bütün bu işlərdə sahibkarların rolunu qeyd etmək istərdim. Son vaxtlar Azərbaycanda güclü sahibkarlar sinfi formalaşıb. Mən sahibkarları daim dəstəkləyirəm, sahibkarlarla çoxsaylı görüşlərdə onlara öz dəstəyimi ifadə edirəm, dövlət onları dəstəkləyir, həm güzəştli kreditlərlə, həm tövsiyələrlə və yaradılmış şəraitlə... Əlbəttə, biz gözləyirik ki, yeni müəssisələr, yeni sənaye sahələri yaradılsın və burada iş yerləri kifayət qədər çox olsun". Güman edirəm ki, dövlət başçımızın bu müraciəti də öz bəhrəsini verəcək".

**Qvami Məhəbbətoğlu,**
***"İki sahil"***

# Azərbaycanda media infrastrukturu beynəlxalq standartlara cavab verir

1991-ci il mayın 3-də Namibiyanın paytaxtı Vindhukda seminara toplaşmış jurnalistlər azad və müstəqil informasiya vasitələrinə yardımçı olmaq məqsədilə bütün dünya hökumətlərinə mətbuatın azadlığının və demokratikliyinin təmin edilməsinə yardımçı olmağa çağıran "Vindhuk Bəyannaməsi"ni qəbul etdilər. BMT Baş Məclisi isə bu sənəd əsasında 1993-cü ildən mayın 3-nü Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü kimi qeyd etməyi qərara aldı. Ümumdünya Mətbuat Azadlığı Günü Azərbaycanda da fəal dəstəklənir. Müstəqil Azərbaycan dövləti ölkədə insan hüquqlarının müdafiəsi, söz və mətbuat azadlığı kimi məsələlərə xüsusi önəm verir. Ölkəmiz də azad sözün cəmiyyət həyatında üstün yer tutması, maneəsiz yayılması və daim qorunması üçün zəruri addımlar atmışdır.

**Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dosenti, Vəkillər Kollegiyasının üzvü Bəhruz Məhərrəmov** mövzu ilə bağlı "İki sahil"ə açıqlamasında bildirdi ki, mətbuat azadlığı elə azadlıqlardandır ki, həm dövlət, həm şəxsiyyət, həm də cəmiyyətin qarşılıqlı fəaliyyətindən birbaşa asılıdır, hər üç subyektin bu sahədə fəaliyyəti digərinin mövqeyinə əhəmiyyətli dərəcədə təsir edir. "Nəticədə isə hər üç subyektin üzərinə aktiv və passiv öhdəliklər qoyulur. Ona görə də bu suala cavab verərkən ayrıca dövlətin üzərində fokuslanmaq, eləcə də hansısa media qurumunu nədəsə günahlandırmaq doğru yanaşma olmaz. Azərbaycanda media qurumlarının yaradılması, bu sahədə lisenziyalaşdırma ilə bağlı əsaslı bir problem görmürəm. Hətta hansısa süni bürokratik maneə yaransa belə, qanunvericiliyimiz imkan verir ki, istər dövlətdaxili müdafiə vasitələri, istərsə də beynəlxalq məhkəmələrə müraciət imkanlarını realizə etməklə şəxs öz hüququnu bərpa etsin. Ölkə Prezidentinin jurnalistləri mənzillərlə təmin etməsi, kütləvi informasiya vasitələrinə birdəfəlik yardımlar edilməsi kimi mediaya dəstək ifadə edən uğurlu sosial model formalaşıb. Yəni, bütün bunların fonunda demək olar ki, Azərbaycanda media infrastrukturu beynəlxalq standartlara cavab verir."



Ekspert qeyd etdi ki, mətbuat azadlığının qorunması nisbi amildir: "Mətbuat azadlığı önündə əsas əngəl bu sahədə normativ bazanın olmaması, yaxud media azadlığına yönələn hüquqi aktların yarıtmaz vəziyyətdə olması hesab edilə bilər. Təhlil etsək görərik ki, Azərbaycan Respublikasında bu istiqamətdə problem mövcud deyil. Belə ki, "Kütləvi informasiya vasitələri haqqında" Qanunda qeyd edilir ki, bu sahədəki qanunvericilik adı çəkilən qanundan əlavə, həmçinin Azərbaycan Respublikasının Konstitusiyasından, "Televiziya və radio yayımı haqqında", "Məlumat azadlığı haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Vətəndaşların müraciətlərinə baxılma qaydası haqqında", "Dövlət sirri haqqında", "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikası qanunlarından, habelə digər müvafiq qanunvericilik aktlarından ibarətdir. Göründüyü kimi, kifayət qədər zəngin qanunvericilik bazamız mövcuddur. Bundan əlavə, media azadlığının səmərəli təmininə xidmət edən, həmçinin qanunvericilik müddəalarının effektiv şərh edilməsinə uyğunsuzluğun müəyyən edilməsinə imkan verən konstitusiya icraatı təcrübəsi, həmçinin bu çərçivədə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun bir neçə mühüm Qərarı mövcuddur. Eləcə də Konstitusiyamızın 148-ci maddəsinin II hissəsini rəhbər tutaraq qeyd etmək yerinə düşər ki, media azadlığının təmininə yönələn Azərbaycan Respublikasının tərəfdar çıxdığı onlarla beynəlxalq konvensiyanın müddəaları bu sahədə qanunvericilik sisteminin ayrılmaz tərkib hissəsi kimi mövcuddur. Bu mənada azad mətbuatın fəaliyyəti üçün, yaxud başqa cür desək, media azadlığını təmin etmək üçün təkmil normativ baza baxımından ölkəmizdə heç bir hüquqi maneə yoxdur. Deməli, 28 illik qısa zaman kəsiyində ölkəmiz media azadlığı üçün təkmil normativ hüquqi bazanı formalaşdıra, inkişaf etdirə və qoruyub saxlaya bilib."

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***

# Qiymətlərin süni şəkildə artırılması cinayətdir



**Zahid Rza**

### Süni qiymət artımı və mal qıtlığı yaratmaqla vəziyyətdən sui-istifadə edən işbazlar, natəmiz adamlar və möhtəkirlər ciddi şəkildə cəzalandırılmalıdırlar

Azərbaycan iqtisadiyyatının keyfiyyətcə yeni mərhələsi başlayır. Prezident İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında ölkə başçısı hazırda iqtisadiyyatımızda yeni inkişaf strategiyasının hazırlandığını bildirdi. Ölkə başçısı, həmçinin bildirdi ki, cəmiyyətin bütün sahələrini əhatə edən islahatlar daha da dərinləşəcək. Siyasi, iqtisadi, sosial, məhkəmə-hüquq, təhsil, səhiyyə islahatlarına dair geniş paket hazırlanaraq həyata keçiriləcək. Bütün bunlara nail olmaq üçün bizim hər cür imkanımız var. Ökəmizin geniş maliyyə imkanları, sabitlik, xalq-iqtidar birliyi qarşıya qoyulan bütün vəzifələrin həllində mühüm amildir.

Ekspertlər qeyd edirlər ki, Azərbaycanda yeni iqtisadi inkişaf strategiyasının təməlində vətəndaşların rifah halının daha da yaxşılaşdırılması dayanacaq. Əmək haqlarının, pensiyaların, təqaüdlərin artırılması, icbari tibbi sığortanın tətbiq edilməsi, aztəminatlı ailələrə sosial yardımların edilməsi, sosial problemlərin səmərəli formada öz həllini tapması kimi çoxsaylı prioritet istiqamətlər də daim diqqət mərkəzində olacaq.

Ölkə başçısı çalışır ki, vətəndaşlar mümkün qədər az sıxıntı yaşasınlar, hər kəs dövlət qayğısı ilə təmin olunsun. Bu sahədə dövlət üzərinə düşən bütün vəzifələri layiqincə yerinə yetirir. Çox təəssüf ki, bəzi işbazlar maaşların, pensiyaların, minimum əmək haqqının, təqaüdlərin artırılmasından istifadə edərək heç bir iqtisadi əsas olmadan süni qiymət artımına yol verərək öz gəlirlərini artırmaq istəyirlər. Bütün bunlar vicdansızlıq, mənəvi-əxlaqi aşınma əhalinin rifah halının yüksəldilməsi istiqamətində atılan addımların sabotaj olunmasıdır.

Prezident İlham Əliyev aprelin 30-da Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirib ki, ölkəmizdə makroiqtisadi vəziyyət və manatın məzənnəsi sabitdir, inflyasiya aşağı səviyyədədir. Belə olan halda süni qiymət artımına yol verməK olmaz.

Ölkə başçısı qeyd edib ki, bəzi hallarda müəyyən məhsulların qiymətlərində artım olur: "Bunun heç bir əsası yoxdur. Bəzi hallarda mövsümi xarakter daşıyır. Amma bəzi hallarda qiymətlər süni şəkildə artırılır. İndi ölkə iqtisadiyyatında canlanma var. İnsanların alıcılıq qabiliyyəti artır. Biz bunu indi statistik göstəricilərdən görürük. İndi istehlak bazarına nəzarət edən qurumlar bunu görür. Maaşlar, müavinətlər artır, problemli kreditlərlə bağlı ödənişlər başlayıb. Ancaq biz imkan verə bilmərik ki, bundan hansısa natəmiz adamlar, möhtəkirlər istifadə etsinlər, qiymətləri süni şəkildə qaldırsınlar, yaxud da ki, hansısa bir inhisarçılıqla məşğul olsunlar. Ona görə istehlak qiymətlərinə daim nəzarət olmalıdır. Süni qiymət artımına qətiyyən yol verilməməlidir. Müvafiq qurumlar bu işlərlə çox ciddi məşğul olmalıdırlar".

Bu gün aidiyyəti qurumlar ölkə başçısının qeyd etdiyi kimi, bu işlərlə çox ciddi məşğul olaraq süni qiymət artımı və mal qıtlığı yaratmaqla vəziyyətdən sui-istifadə edən işbazlar, təsərrüfat subyektləri barədə, habelə inhisarçılıq və korrupsiya kimi neqativ halların vaxtında aşkar edilərək qarşısının alınması məqsədi ilə tədbirlər həyata keçirməklə qanun pozuntularına yol vermiş şəxsləri ciddi şəkildə cəzalandırmalıdırlar.

# Azərbaycanın uğur səhifələri dünya mətbuatında vərəqlənir

## İQTİSADİ, SİYASİ, HUMANİTAR MƏRKƏZƏ ÇEVRİLƏN ÖLKƏMİZİN HƏR SAHƏDƏ TƏCRÜBƏSİNİN NÜMUNƏ OLDUĞU ƏSASLI ŞƏKİLDƏ DİQQƏTƏ ÇATDIRILIR



**Azərbaycanın beynəlxalq əhəmiyyətli tədbirlərə ev sahibliyi etməsi, eyni zamanda, bu və ya digər ölkələrdə keçirilən qlobal forumların, konfransların əsas iştirakçısına çevrilməsi günümüzün reallıqları sırasındadır. Bu uğurumuz sözsüz ki, Azərbaycanın mövqeyinin, siyasi çəkisinin, dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar qarşısında qazandığı hörmətin, etimadın ifadəsidir.**

Dövlətimizin başçısı İlham Əliyev bildirir: "Azərbaycan son 15 il ərzində beynəlxalq aləmdə böyük uğurlara imza atdı. Bizim dünyadakı mövqelərimiz möhkəmlənir, Azərbaycan çox müsbət beynəlxalq reputasiyaya malik olan bir ölkədir. Bizə qarşı dünya birliyi tərəfindən böyük rəğbət, dəstək var, biz bunu hiss edirik və əldə edilmiş nəticələr, qəbul edilmiş qərarlar bunu bir daha təsdiqləyir. Əlbəttə ki, bunun ən bariz nümunəsi bizim 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına seçilməyimiz olubdur. Bu, gənc müstəqil dövlət üçün çox böyük nailiyyətdir və bu, onu göstərir ki, dünya birliyinin mütləq əksəriyyəti bizi dəstəkləyir."

Təkcə cari ilin arxada qalan dövründə ölkəmizin iştirakçısı olduğu və ev sahibliyi etdiyi tədbirlərə diqqət yetirək. Bu il ölkə Prezidenti İlham Əliyev Davos Dünya İqtisadi Forumunun sayca 49-cu sessiyasında iştirak etdi. Builki zirvə toplantısında mövzu "Qloballaşma 4: Dördüncü sənaye inqilabı dövründə yeni infrastrukturun formalaşdırılması" oldu ki, bununla da 110 ölkədən 3 mindən çox iş adamı, siyasətçi, elm adamı və vətəndaş cəmiyyəti nümayəndəsi tədbirə qatıldı. Fevralda ənənəvi olaraq Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin beşinci toplantısı keçirildi. Dövlətimizin başçısı İlham Əliyev bu fikri böyük inamla ifadə etmişdir ki, enerji sahəsinin xronologiyasına nəzər salsaq görərik ki, tədricən məqsədimizə çatmışıq. Məqsəd enerji resurslarının nəqlinin şaxələndirilməsi və bunun üçün müasir infrastrukturun yaradılması idi. Mart ayında 55 ölkədən 500-dən çox nümayəndənin iştirakı ilə "Dünyanın yeni xarici siyasəti" mövzusunda keçirilən VII Qlobal Bakı Forumuna hazırda fəaliyyətdə olan 5 prezident, 1 baş nazir, 2 baş nazirin müavini, 42 sabiq dövlət başçısı və baş nazirlər, çoxsaylı analitiklər, jurnalistlər, gənc liderlər toplaşdılar. Forumda 10 müxtəlif sessiya zamanı iştirakçılar tərəfindən qlobal və regional əhəmiyyət daşıyan məsələlər müzakirə edildi. Dünyada mühüm beynəlxalq platformaya çevrilən Qlobal Bakı Forumu çərçivəsində "Qlobal siyasətin dəyişməsində böyük güclərin rolu", "Davamlı inkişaf çağırışları", "Təhlükəsizlik naminə orta Şərq əməkdaşlığı", "Müasir qərarların qəbul edilməsində elm və mədəniyyətin rolu müzakirə olundu. Hər bir mövzunun təhlili Azərbaycanın bu sahələrdə qazandığı təcrübələrin təqdimatına böyük töhfə oldu.

Aprel ayında Fransanın "Opinion Way" şirkəti Azərbaycanda keçirdiyi sorğunun nəticələrini açıqladı. Dövlətimizin başçısı İlham Əliyevin yenə də öz seçicilərinin yüksək etimadına malik olduğu təsdiqləndi. Sorğunun nəticələrinə görə, respondentlərin 80,1 faizi ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanılmasını Prezident İlham Əliyevin fəaliyyətinin ən uğurlu nəticəsi kimi dəyərləndirdi. Sorğunun Prezident İlham Əliyevin xarici siyasəti ilə bağlı nəticələri əhalinin pozitiv mövqeyini ifadə etmişdir: Sorğuda iştirak edənlərin 89,9 faizi bu suallı müsbət cavablandırmışdır.

Aprel ayının 26-28 tarixləri Azərbaycanın malik olduğu imkanların təqdimatı üçün gözəl imkanlar açdı. Ənənəvi keçirilən Formula -1 yarışı ölkəmizə iqtisadi və siyasi dividentlər gətirdi. Bu tədbirlə eyni vaxtda Azərbaycan Pekində keçirilən 2-ci "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda iştirakçı oldu.

Diqqət çəkən əsas məqam bu uğurlarımızın dünya mətbuatında geniş şərh olunmasıdır. Azərbaycanın tolerant ölkə olması, multikultural dəyərlərin inkişafına davamlı töhfələri dünya mətbuatının səhifələrində xüsusi yer alır.

"Sinxua" informasiya agentliyi "Bir kəmər, bir yol" İkinci Beynəlxalq Əməkdaşlıq Forumunun açılışından əvvəl azərbaycanlı çinşünas alim, Azərbaycan Dillər Universitetində Konfutsi İnstitutunun direktoru Rafiq Abbasovun "Bir kəmər, bir yol" layihəsi daha da sıx regional əməkdaşlığa töhfə verir" adlı analitik materialı yayımlayıb. Həmin məqalədə bildirilib ki, Avrasiya nəqliyyat strukturunun diversifikasiyasında mühüm əhəmiyyət kəsb edən yeni nəqliyyat dəhlizi Azərbaycanın regionun beynəlxalq yükdaşımalarında əsas tranzit qovşağına çevrilməsinə səbəb olur. Lakin İpək Yolunun Bakı-Tbilisi-Qars dəmir yolu həm regionda davamlı inkişafı və təhlükəsizliyi, həm də Xəzəryanı regionun və Mərkəzi Asiyanın Avropa ilə birbaşa nəqliyyat əlaqələrini təmin edəcək. Azərbaycan İpək Yolunun bərpası istiqamətində də ciddi investisiyalar yatırır, nəqliyyat infrastrukturunun modernləşməsini həyata keçirir. Ticarətin asanlaşması və regiondaxili və transregional infrastrukturun kooddinasiyasına gətirib çıxaran effektiv çoxmodullu nəqliyyat dəhlizlərinin yaradılması, şübhəsiz ki, Azərbaycan-Çin əlaqələrinin inkişafına və Avrasiya məkanında davamlı inkişafın sürətlənməsində öz töhfəsini verəcək".

Sirr deyil ki, Azərbaycan inkişafın bütün istiqamətləri üzrə öz inkişaf modelini dünyaya təqdim etməkdədir. Əvvəldə də qeyd etdiyimiz kimi, Azərbaycanın beynəlxalq münasibətlər sistemində yeri və rolunun artmasının təsdiqi kimi, 2011-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsini, iki dəfə bu nəhəng təşkilata sədrlik etməsini qeyd edə bilərik. Azərbaycan sözünün imzası qədər gücü, qüdrəti olduğunu bütün dünyaya nümayiş etdirir. Əsas hədəfimiz Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görməkdir. Ölkə Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, bunun üçün potensialımız vardır. Azərbaycanın beynəlxalq əhəmiyyətli tədbirlər üçün ideal məkan seçilməsi də təsadüfi deyil.

2012-ci ildə "Evrovision" musiqi yarışmasına, 2015-ci ildə Birinci Avropa Oyunlarına, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarına, son illər ənənəvi keçirilən Formula-1 yarışlarına ev sahibliyi etməsi dünyanın diqqətini Azərbaycana yönəltməklə beynəlxalq baxışı daha da möhkəmləndirir. Azərbaycan iki sivilizasiya arasında körpüdür.

Formula-1 yarışları bir daha göstərdi ki, Azərbaycan sürətlə inkişaf edir. Tədbirin təşkilatçıları da bu faktı təsdiqləyirlər ki, onlar belə tədbirlərin keçirilməsi üçün ölkə seçərkən, ilk növbədə, sabitliyə, təhlükəsizliyə diqqət göstərirlər. Bu yarışlarla dünya Azərbaycanı yenidən kəşf edir. Ölkəmizə gələn turistlər gördüklərindən heyranlıqlarını gizlətmirlər.

Bir mühüm məqamı da xüsusi qeyd etməliyik ki, dövlətimizin başçısı İlham Əliyev Azərbaycan həqiqətlərinin dünya mətbuatında yayılmasını qarşıya mühüm vəzifə kimi qoyub. Keçirilən beynəlxalq səviyyəli hər bir tədbir bu çağırışın yüksək səviyyədə cavablandırılmasına geniş yol açır. Formula-1 növbəti dəfə bu imkanı yaratdı. Yarışı izləyənlər arasında xüsusi yer alan xarici mətbuat nümayəndələri qədimliyin və müasirliyin harmoniyasını yaradan doğma Bakımız və Azərbaycanımız haqqında çoxsaylı məlumatlar əldə edərək, ölkələrinə dönməklə bir növ Azərbaycanın təbliğatçısına çevriləcəklər. Mətbuat səhifələrində yer alan materiallar ölkəmizin uğurlarının təqdimatı olacaq.

Xatırladaq ki, Formula-1 yarışı Azərbaycanda dördüncü ildir təşkil olunur. 2016-cı ildə keçirilən birinci yarışda almaniyalı, 2017-ci ildə təşkil olunan Formula- 1 yarışında avstraliyalı, 2018-ci il yarışında britaniyalı, builki yarışda isə finlandiyalı pilot qələbə qazanıb.

Bu kimi tədbirlər, eyni zamanda, yeganə problemimiz olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ həqiqətlərinin dünyaya çatdırılması baxımından da xüsusi əhəmiyyət kəsb edir. Ölkəmizə gələn turistlər reallıqların yaxından şahidi olmaqla Azərbaycan haqqında əsassız məlumatlar yayan qüvvələri cavablandırmış olacaqlar.

Birləşmiş Ərəb Əmirliklərinin ərəb dilli "samanews" və "kolalarab" xəbərlər agentliyi, həmçinin ingilis, çin və rus dillərində nəşr olunan "Avia Most" qəzetində ölkəmizin uğurlarını özündə geniş əks etdirən məqalələr dərc olunub. Yazılarda qeyd olunur ki, Prezident İlham Əliyevin ölkədə apardığı inamlı siyasət Azərbaycan xalqı tərəfindən böyük rəğbətlə qarşılanır və dəstəklənir. Təsadüfi deyil ki, 11 aprel 2018-ci ildə keçirilmiş prezident seçkilərində cənab İlham Əliyev seçicilərin 86 faizdən çox səsini qazanaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib.

Dünya mətbuatında Azərbaycan reallıqlarını özündə əks etdirən xeyli sayda məqalələrin yer alması təbii ki, ölkəmizə diqqətin, həyata keçirilən siyasətə dəstəyin ifadəsidir. Azərbaycan hər bir beynəlxalq əhəmiyyətli tədbirlərə qatılmaqla, ev sahibliyi etməklə nüfuzunu daha da artırır, söz sahibliyini nümayiş etdirir. Dünya mətbuatında geniş müzakirə olunan "Bir kəmər, bir yol" Forumu da Azərbaycanın tranzit imkanlarının təqdimatı baxımından xüsusi diqqət çəkib. Hansı sahəyə diqqət yetirsək Azərbaycan təcrübəsinin nümunə olduğu diqqətdən kənarda qalmır. Düşünülmüş və məqsədyönlü siyasəti ilə müstəqillik tarixinin uğur səhifələrini daha da zənginləşdirən Azərbaycan dünya mətbuatının diqqətini özünə çəkməklə bir mühüm məqamı da açıqlamış olar ki, dünya informasiya məkanına inteqrasiya istiqamətində atılan addımlar öz müsbət nəticəsini verir. İnternet resurslarının inkişaf etdiyi müasir dövrümüzdə bu və ya digər ölkə haqqında geniş məlumat əldə etmək çətin deyil. Əsas olan bu məlumatların doğruluğu, reallıqları özündə əks etdirməsidir. Həqiqətlərin real həyatda şahidi olmaq isə o ölkə haqqında daha dolğun təəssüratlara yol açır. Azərbaycan bu gün iqtisadi, siyasi, humanitar mərkəzə çevrilməklə, həmçinin bu və ya digər ölkələrin təşəbbüslərinə dəstəklərini uğurlu addımları ilə təsdiqləməklə bu imkanlarını daha da artırır, ən əsası dünyanın yeni xarici siyasətinin müzakirə olunduğu, ümumi yanaşmaların ortaya qoyulduğu məkana çevrilir. Uğur səhifələrimiz dünya mətbuatında vərəqləndikcə Azərbaycan xoşbəxt ölkə olduğunu bir daha təsdiqləyir.

**Yeganə Əliyeva,**
***"İki sahil"***

## "RUMAİLA" YATAĞINDA HASİLAT YÜKSƏLİB



İraqın nəhəng "Rumaila" neft yatağında hasilat gündəlik 1,5 milyon barrelə çatıb. Məlumatı BP-nin layihə rəhbəri Nik Uayt açıqlayıb.

Nik Uayt bildirib ki, Britaniyanın BP və Çinin "CNPC" şirkətlərinin birgə həyata keçirdiyi layihədə hasilatın yüksəlməsinə səbəb qurğuların yenilənməsi, yeni quyuların qazılması və su inyeksiya əməliyyatları olub. O qeyd edib ki, quraşdırılan duzsuzlaşdırma və dehidrasiya avadanlıqları yataqdan çıxarılan neftin keyfiyyətinin daha da yaxşılaşdırılmasına şərait yaradacaq.

BP qarşısına qoyduğu ən yüksək hasilat hədəfinə, gündəlik 2,1 milyon barrel hasilata çatmaq üçün sözügedən yataqda daha dörd yeni hasilat qurğusu quraşdırmağı planlaşdırır.

# SOCAR-ın TENDERLƏRİ



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**Rezes-metçiklərə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsinin vaxtının uzadılmasını (11075AM-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi;

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 15.05.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla 21.05.2019-cu il, Bakı vaxtı ilə saat 12:00-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, rus və ya ingilis dilində əldə etmək istəyənlər 118 manat (ƏDV-ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

Müsabiqələr üzrə iştirak haqqı ödənilərkən ödəniş tapşırığında müsabiqənin nömrəsi, iddiaçı şirkətin tam adı mütləq qeyd olunmalıdır. Əks halda edilmiş ödəniş etibarsız sayılacaqdır!

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsi 60 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqəyə təklif verilən zaman olunacaq bank təminatı:***
Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyası - tələb olunmur.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ 1000, Bakı şəhəri, Səbail rayonu, Neftçilər pr-ti 73
"Azneft" İstehsalat Birliyinin inzibati binası
**Əlaqələndirici şəxs:**
Kamil Musayev
Satınalma və təchizat şöbəsinin böyük eksperti
Telefon nömrəsi: +99 412 521-00- 00 (11-337) 050 417 71 01
Elektron ünvan: Kamilh.Musayev@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 21.05.2019-cu il, Bakı vaxtı ilə saat 12:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**



Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azneft" İstehsalat Birliyi

**yanğın söndürmə avadanlıqlarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsinin (11078AM-19) vaxtının uzadılmasını elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 14.05.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya rus dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
* Müsabiqə təklifi bir əsli və 1 surəti olmaqla. 21.05.2019-cu il, Bakı vaxtı ilə saat 11:30-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
* İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
* İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya rus dilində əldə etmək istəyənlər 118 AZN (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***
* Satınalma müqaviləsinin 60 təqvim günü yerinə yetirilməsi tələb olunur.

***V. Müsabiqəyə təklif verilən zaman olunacaq bank təminatı:***
Müsabiqə təklifinin təminatı üzrə bank qarantiyası - tələb olunmur.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.

Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ1000, Bakı şəhəri, Səbail rayonu; Neftçilər prospekti 73; SOCAR, Azneft İB
**Əlaqələndirici şəxs:**
Musayev Kamil
Satınalmalar və Təchizat şöbəsi, ekspert
korporativ telefon nömrəsi: +99412 5211153
korporativ mobil nömrəsi: +99450 8411153
korporativ faks nömrəsi: +99412 521 11 72
korporativ elektron ünvanı: samad.asadov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı. 21.05.2019-cu il, Bakı vaxtı ilə saat 11:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azneft" İstehsalat Birliyinin Satınalmalar qrupu**

# SOCAR-ın TENDERLƏRİ

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azərikimya" İstehsalat Birliyi

**"Etilen-Polietilen" zavodunun "Piroliz" sahəsində istismarda olan benzin, etan və metan sobalarında aparılacaq təmir işlərinə tələb olunan mal-materialların təmin olunması üçün açıq müsabiqə (31020-19) elan edir.**

***Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
- Müsabiqədə iştirak haqqında müraciət;
- İştirak haqqının ödənilməsi barədə bank sənədi;
- Müsabiqə təklifinin təminatı;
- Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 23.05.2019-cu il, Bakı vaxtı ilə saat 17:00-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

- Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 30.05.2019-cu il, Bakı vaxtı ilə saat 16:30-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
- Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
- İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
- İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.
- Müsabiqə təklifi bank təminatı ilə birlikdə təqdim edilməlidir.

***İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

- Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, ingilis və ya rus dilində əldə etmək istəyənlər ƏDV daxil 1400 AZN və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın 1-ci qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi: Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120, VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti, Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881, SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin şərtlər toplusunda qeyd olunmuş təchizat müddətinə uyğun yerinə yetirilməsi tələb olunur.

**Satınalan təşkilatın ünvanı:**
AZ5000, Səməd Vurğun küçəsi 86, Sumqayıt şəhəri, Azərbaycan Respublikası

**Əlaqələndirici şəxs:**
Məhəmmədova Təranə
Satınalmalar və təchizat şöbəsinin böyük eksperti
Telefon nömrəsi: +994 12 521 25 46
+994 12 521 00 00 dax.31052
Elektron ünvan: tarana.mahammadova@socar.az

***Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 30.05.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 17:00-da Satınalan təşkilatın elanda göstərilmiş ünvanında baş tutacaqdır.

***Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azərikimya" İB-nin Satınalmalar qrupu**

---

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)

## "Azərikimya" İstehsalat Birliyi

**N-86 və N-88 mövqeli nasoslar üçün açıq müsabiqə (31002-19) elan edir.**

***Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
- Müsabiqədə iştirak haqqında müraciət;
- İştirak haqqının ödənilməsi barədə bank sənədi;
- Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 23.05.2019-cu il, Bakı vaxtı ilə saat 17:00-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

- Müsabiqə təklifi bir əsli və 2 surəti olmaqla 03.06.2019-cu il, Bakı vaxtı ilə saat 14:30-a qədər zərflərin açılış zalında Satınalmalar qrupuna təqdim olunmalıdır. İddiaçının nümayəndələri qeydiyyatdan keçmələri üçün ən az yarım saat öncədən Satınalan təşkilata gəlməlidirlər.
- Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
- İştirakçının inzibati binaya buraxılışını təmin etmək üçün müraciət məktubunda iddiaçı şirkəti təmsil edəcək şəxsin adı, soyadı, vəzifəsi mütləq qeyd olunmalıdır.
- İddiaçını müsabiqədə təmsil edəcək şəxslə bağlı sonradan edilən dəyişiklik qəbul olunmayacaqdır.
- Müsabiqə təklifi bank təminatı ilə birlikdə təqdim edilməlidir.

***İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan, ingilis və rus dilində əldə etmək istəyənlər ƏDV daxil 118 AZN və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə hər lot üçün iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən 03.06.2019-ci, 14:30 tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi: Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120, VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti, Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881, SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin şərtlər toplusunda qeyd olunmuş təchizat müddətinə uyğun yerinə yetirilməsi tələb olunur.

***Satınalan təşkilatın ünvanı:***
AZ5000, Səməd Vurğun küçəsi 86, Sumqayıt şəhəri, Azərbaycan Respublikası

**Əlaqələndirici şəxs:**
İlqar Bağırov
Telefon nömrəsi: +994 12 521 25 46
Mob: +994 55 210 42 22
Faks nömrəsi: +994 12 521 00 00
Elektron ünvan: Ilgar.Bagirov@socar.az; munavvar.vahabova.ext@socar.az

***Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Zərflərin açılışı 03.06.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 15:00-da Satınalan təşkilatın elanda göstərilmiş ünvanında baş tutacaqdır.

***Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**"Azərikimya" İB-nin Satınalmalar qrupu**

# UNODA-nın xəbərdarlığı: nüvə müharibəsi təhlükəsi və regional münaqişələrdəki risklər



**Artıq bir neçə ildir ki, ekspertlər qlobal miqyasda təhdid və risklərin artdığını, vəziyyətin daha da qeyri-müəyyən xarakter aldığını vurğulayır, bunu sübut edən konkret faktlar da gətirirlər. İndi BMT-nin Tərksilah Komissiyası həyacan təbili çalır. Bu komissiya nüvə silahının yayılmaması ilə bağlı gələn il keçiriləli olan beynəlxalq tədbirə hazırlıq kontekstində maraqlı və düşündürücü hesabat hazırlayıb.**

Sənədin hazırlanmasında müstəqil ekspertlər də iştirak ediblər. Alınan nəticələr narahatlıq doğurur. Mütəxəssislər xəbərdarlıq edirlər ki, dünya kifayət qədər təhlükəli vəziyyətlə üz-üzədir. Konkret olaraq, ABŞ, Rusiya və Çin arasında güzəştsiz silahlanma yarışı gedir. Onlar sürətlə yeni silahlar yaratmağa və öz üstünlüklərini sübut etməyə çalışırlar. Nəticədə, bəşəriyyət üçün olduqca təhlükəli bir vəziyyət - hətta kiçik təsadüfdən belə qlobal savaşın meydana çıxma ehtimalı yaranır. Belə bir durumda nə etmək olar? Biz bu suala geosiyasi cavab üzərində geniş dayanmağı lazım bildik.

### Amansız rəqabət: üç böyük dövlətin yaratdığı təhdidlər

Birləşmiş Millətlər Təşkilatının Tərksilah Komissiyasının (UNODA) son hesabatı dünya siyasətinin çox düşündürücü bir problemini ortaya qoyur. BMT açıq xəbərdarlıq edir ki, silahlanma üzərində nəzarət sistemi çökür. Bunun məntiqi nəticəsi isə dünya üçün fəlakətli olacaq. İndiyə qədər bu dərəcədə konkretliklə həmin problem dilə gətirilməmişdi. Daha maraqlısı odur ki, UNODA məsələnin səbəblərini və kökünü lakonik olaraq ifadə edib.

Hesabatda vurğulanır ki, silahlanma üzərində nəzarət sisteminin çökməsi bütün dünya, ilk növbədə, ABŞ, Rusiya və Çin üçün fəlakətlə nəticələnəcək. Bu böyük dövlətlər ciddi maliyyə problemləri ilə üzləşə bilərlər. Bəs niyə məhz bu üç dövlət?

Çünki məhz bu dövlətlər silahlanma və tərksilah üzrə nəzarət sisteminin tələblərinə əməl etmir, bununla da qlobal geosiyasi proseslərə dağıdıcı təsir edirlər. UNODA hesabatda vurğulayır ki, BMT-nin baş katibi Antonio Quterreş hələ ötən il dünyanı yeni "soyuq müharibə" təhlükəsi gözlədiyi barədə xəbərdarlıq etmişdi. Ancaq adları çəkilən ölkələr bundan bir nəticə çıxarmırlar və onlar arasında məhdudiyyətsiz silahlanma və gərginlik daha da artır. Xüsusilə ABŞ-la Rusiya arasında daha ciddi münaqişəli vəziyyət yaranıb. Lakin Vaşinqtonla Pekin arasında silahlanma və ticarət sahəsində rəqabət də güclənir.

Bununla üçtərəfli gərginlik zonası yaranır ki, bu da bütün dünyanı əhatə edir. Bu gərginlik ocağı bəşəriyyəti məhv edə biləcək hərbi potensiala sahibdir. Bu səbəbdən yaranmış vəziyyət təkcə həmin üç dövlətin deyil, bütün ölkələrin təhlükəsizliyini təhdid edir.

Ekspertlər bu kontekstdə daha qorxunc bir ssenaridən bəhs edirlər. Onlar hesab edirlər ki, hər hansı böhran və ya münaqişənin fonunda nüvə müharibəsi təhlükəsini istisna etmək olmaz. Hətta "hər hansı mexaniki səhvin, səhlənkarlığın və ya elektron cihazlardakı nasazlığın belə bütün bəşəriyyətin məhv olmasına səbəb olacağı" barədə xəbərdarlıq edirlər.

Onu da demək lazımdır ki, bu hesabatı yalnız Tərksilah Komissiyasının üzvləri hazırlamayıblar. Prosesdə kənardan dəvət olunmuş ekspertlər də iştirak ediblər. Nəzərdə tutulub ki, sənəd nüvə silahlarının yayılmaması haqqında müqavilə iştirakçılarının 2020-ci ildə keçiriləcək konfransı ərəfəsində aprelin 29-da başlayacaq hazırlıq sessiyasının müzakirəsinə təqdim olunsun. Bu, onu göstərir ki, həm BMT, həm də bütövlükdə ekspert dairələri problemə kifayət qədər ciddi yanaşırlar.

Əlbəttə, UNODA-nın narahatlığı tam əsaslıdır. Son illər ABŞ-Rusiya-Çin "üçbucağı"nda olduqca təhlükəli proseslər gedir. Bu ölkələr yeni-yeni və daha dağıdıcı silahlar yaradırlar. Bu, onlar arasında "kim daha güclüdür" yarışının səhnələrini xatırladır. Məsələn, Yaponiyada qəzaya uğramış "F-35A" qırıcı təyyarəsinin qalıqlarının Rusiya və Çinin əlinə keçməsini amerikalılar böyük fəlakət kimi qiymətləndirirlər. Onlar hesab edirlər ki, bu qırıcı özündə yeni hərbi sirlər gizlədir və onun rəqiblər tərəfindən öyrənilməsi müdafiəyə ciddi zərər vura bilər.

### Çıxış yolu: beynəlxalq hüquq və BMT-də islahatlar

Bir anlığa təsəvvür edək ki, "F-35A"-nın hərbi sirlərini Moskva və ya Pekin öyrəndi. Sonra nə olacaq? ABŞ dərhal əks-addım atacaq və yeni silahlanma yarışı başlayacaq. Və ya amerikalılar Rusiyanın "Sarmat" ballistik raket sisteminin sirlərinə yiyələnsələr, Kreml hansı reaksiyanı verəcək? Eynilə yeni yarış başlayacaq.

Əslində, sözügedən üçlük ölkələri arasında intensiv silahlanma yarışının getdiyini təsdiqləyən informasiyalara tez-tez rast gəlirik. Üstəlik, onlar hərb meydanında da silahlarını sınaqdan keçirirlər. Məsələn, Suriyada ABŞ və ya İsrail raketlərinin Rusiya istehsalı olan hava hücumundan müdafiə sistemləri tərəfindən zərərsizləşdirilməsi imkanları məhz döyüş meydanında aydınlaşdırıldı. Konkret zərbələr isə Suriyaya endirildi. Bu o deməkdir ki, böyük dövlətlər üçün Suriya həm də öz silahlarının gücünü göstərmək üçün bir poliqondur. Burada insanların həlak olması və ya yurd-yuvalarından didərgin düşməsi onları elə də maraqlandırmır. Çox danışılsa, "terrorla mübarizə aparırıq", deyirlər.

İndi təsəvvür edək ki, bir başqa yerdə UNODA-nın göstərdiyi səbəb üzündən ixtilaf meydana çıxdı. ABŞ, Rusiya və Çin silah işlətməkdən çəkinəcəklərmi? Kim təminat verə bilər? Çox çətin məsələdir. Bu səbəbdən silahlanmaya nəzarət etməyə BMT-nin gücünün çatmaması olduqca təhlükəlidir. Bu vəziyyəti də yaradan məhz həmin dövlətlərdir. Onlar kimsəni dinləmədən dünya ağalığı iddialarını davam etdirirlər.

Buradan məntiqi geosiyasi nəticələr alınır. Hər şeydən öncə aydın olur ki, hazırda silahlanma sahəsində vəziyyət çox həssas bir nöqtəyə gəlib çıxıb. Adi və kiçik görünən təsirlər belə qlobal dünya nizamını tarazlıq vəziyyətindən çıxara bilər. Eyni zamanda, beynəlxalq təşkilatların yaranmış vəziyyətə müdaxilə imkanları çox məhdudlaşıb. Məsələn, BMT ancaq faktı fiksasiya edə və ya riskin olduğunu göstərə bilər. Bu vəziyyəti dəyişmək üçün isə onun təsir mexanizmləri yoxdur. Təhlükəsizlik Şurasının üzvləri kimsəni dinləmirlər. Belə bir vəziyyətdə nə etmək olar?

İlk növbədə, beynəlxalq təşkilatlarda islahatların aparılması zərurəti bir daha gündəmə gəlir. Özəlliklə, BMT-də bu proses təcili aparılmalıdır. Beynəlxalq hüquq normalarının pozulması hallarının qarşısı ciddi surətdə alınmalıdır. Dövlətlər arasında münasibətlər güc faktoruna deyil, məhz beynəlxalq hüquqa əsaslanmalıdır. Bu kontekstdə, görünür, BMT-nin Təhlükəsizlik Şurasının üzvlərinin sayının artırılması ilə bağlı irəli sürülən təkliflərə diqqət artırılmalıdır. Çünki qərar vermək haqqı nə qədər çox sayda dövlətdə olsa, obyektiv qərarlar da bir o qədər çox qəbul edilə bilər.

Bu sırada regional münaqişələrin həllinə də beynəlxalq hüquq normaları çərçivəsində yanaşılması məsələsi özlüyündə prinsipial əhəmiyyət kəsb edir. Bu məqam ABŞ-ın Ərəb-İsrail münaqişəsi ilə bağlı son addımları ilə daha da aktuallaşıb. Məsələn, ABŞ-ın dövlət katibi Mayk Pompeo məsələlərə yanaşmada ənənəvi ikili standartlara haqq qazandırmaq üçün münaqişələrə "yeni" meyarlar tətbiq etməyə çalışır. Guya Colan yüksəkliklərinin tutulması ilə Krımın ilhaqı arasında ciddi fərqlər varmış. "İsrail Colan yüksəkliklərini Suriyanın hücumundan müdafiə olunarkən işğal edib, Rusiya isə Krımı ilhaq edib, hərçənd, Ukrayna tərəfindən heç bir təhdid yox idi. ...Bu iki vəziyyətdən daha fərqli vəziyyət ola bilməz". Başqa sözlə, İsrail "təcavüzkar deyil, özünü qoruyur", Rusiya isə "təcavüzkardır, başqa torpaqlara hücum edir".

Bu fikir o dərəcədə bəsit və gülüncdür ki, adi məntiqə belə sığmır. Məsələn, özünümüdafiə bəhanəsi ilə istənilən təcavüzə haqq qazandırmaq olar! Yəni burada real vəziyyət deyil, hər şey kimin nə istəməsindən asılı olur. Təsadüfi deyil ki, ermənilər artıq Colan məsələsini misal kimi göstərməyə başlayıblar. Onun əsasını belə bir fikir təşkil edir: "İsrailə işğal etdiyi ərazini özününküləşdirmək olar, Ermənistana yox?".

Deməli, bu proses də dünyada geosiyasi mənzərəyə ciddi qarışıqlıq gətirə bilər. Onun qarşısı alınmasa, yeni silahlanma yarışlarının fonunda daha riskli bir situasiya yaranacaq. Bu məqam həm də onu göstərir ki, müasir dünyada qlobal vəziyyətlə regional və lokal hadisələr arasında sıx bağlılıq meydana gəlib. Təhlükə və risklər asanlıqla bu miqyasların birindən digərinə sürətlə sıçraya bilər. Onun ən yaxşı cilovu isə beynəlxalq hüquq normalarıdır!

Newtimes.az

## "Veysəloğlu" şirkətində qanvermə aksiyası



"Veysəloğlu" şirkətlər qrupu "Bir damla qan, qurtarılan bir can" devizi altında növbəti qanvermə aksiyası keçirib. Aksiya 8 may - Beynəlxalq Talassemiya Gününə həsr olunan talassemiya xəstəliyindən əziyyət çəkən uşaqlara kömək məqsədilə keçirilən qanvermə aksiyasında "Veysəloğlu" MMC, "Ulduz" şokolad fabriki, "Araz" supermarketlər şəbəkəsi, "OBA" marketlər şəbəkəsi, həmçinin "Xonça" şirniyyat istehsalatının əməkdaşları fəal iştirak ediblər.

Qeyd edək ki, Mərkəzi Qan Bankının həkim heyətinin müşayiəti ilə həyata keçirilən aksiyada hər il şirkətlər qrupunun yüzlərlə əməkdaşı donor qismində könüllü olaraq iştirak edir.

Xatırladaq ki, talassemiya dünyanın bir çox ölkəsində rast gəlinən irsi qan xəstəliyidir. Dünya Səhiyyə Təşkilatının məlumatlarına görə, bütün dünyada 300 milyona yaxın bu xəstəliyi daşıyan insan var. Talassemiya planetimizdə ən sıx müşahidə olunan tək gen pozğunluğudur. Xəstəliyin əsas səbəbi insanda olan 46 cüt xromosomdan 11-ci xromosomla 16-cı xromosomda yaranan qüsurdur. Ona görə də dünyada milyonlarla insan belə xəstələrin tam sağalana qədər həyatda qalması üçün mütəmadi qanvermə aksiyalarına qoşulur.

✍ Orxan Vahidoğlu, *"İki sahil"*

## "Bakcell" "Facebook" üzərindən müraciətlərin cavablandırılmasında yüksək nəticə göstərib

"Bakcell" şirkəti abunəçilərin müraciətlərinin "Facebook" üzərindən effektiv cavablandırılmasına görə növbəti dəfə "Socially Devoted" sertifikatı alıb.




Böyük şirkətlərin sosial şəbəkələrdəki fəaliyyətinin monitorinqini həyata keçirən "Socialbakers" şirkəti 2019-cu ilin I rübündə daxil olan sorğuların "Bakcell" tərəfindən 100%-ni cavablandırdığını qeyd edib.

"Bakcell" şirkəti son bir neçə ildə abunəçi müraciətlərini 100% cavablandıraraq ən yüksək nəticəyə nail olub.

Yüksək keyfiyyətli xidmətin göstərilməsi və müştəri məmnuniyyəti "Bakcell"in fəaliyyətinin prioritet istiqamətlərindəndir. Sosial şəbəkələr məhsul və xidmətlər haqqında məlumatların geniş abunəçi bazasına daha effektiv şəkildə çatdırılması və abunəçilərin suallarının cavablandırılması baxımından "Bakcell"in vacib kommunikasiya vasitələrindən biridir.

## Dağlar diyarında yaz ağacəkmə kampaniyası

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən "Bu yaz özün bir təbiət yarat" devizi altında baş tutan yaz ağacəkmə kampaniyası başlandığı ilk gündən öz zəngin, füsunkar təbiəti ilə dünyanı heyrətə salan Lerikdə də böyük maraqla qarşılandı. Bu nəcib təşəbbüs ərəfəsində rayon mərkəzindən tutmuş onun bütün yaşayış məntəqələrində xeyli iş görüldü. Belə ki, dağlar diyarının əhalisi müntəzəm surətdə iməciliyə çıxmaqla hektarlarla sahədə yeni ağaclar əkdilər, mövcud yaşıllıq zolaqlarına qulluq göstərdilər.

Kampaniyanın axırıncı günü rayonun Vənədi kəndində daha mütəşəkkil keçdi. Bütün kənd camaatının iştirak etdiyi tədbirdə təqribən mindən çox müxtəlif növ ağac tingi və bəzəkli gül kolları əkildi. İşın əsas hissəsi kəndə yaxın meşənin kənarlarında, eləcə də Vənədini Daster yaşayış məntəqəsi ilə birləşdirən yolda görüldü. Həmin ərazidə həm də səliqə-sahman yaradıldı.

✍ Zəfər Orucoğlu,
*Azərbaycan Jurnalistlər Birliyinin üzvü*

# SOCAR-ın TENDERLƏRİ



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Kompleks Qazma İşləri Tresti

**Qazma baltalarına olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26034-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi (ödənişin təyinatında iştirak ediləcək müsabiqənin nömrəsi və iddiaçının tam adı göstərilməlidir);
* Müsabiqə təklifinin təminatı;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 29.05.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan, rus və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır. Göstərilmiş tarixdən gec edilmiş ödəniş və müraciətə baxılmayacaqdır.

Tələb olunan sənədlərin elektron surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 05.06.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. Müsabiqə təklifinin təminatı:***

Müsabiqə təklifinin təminatı, bank qarantiyası formasında iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə, 05.06.2019-cu il, Bakı vaxtı ilə saat: 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır. Bank qarantiyalarının əsli müsabiqə zərfində müsabiqə təklifi ilə birlikdə təqdim edilməlidir. Müvafiq təminatı təqdim edilməyən təklif rədd ediləcəkdir.

Qarantiyanı vermiş maliyyə təşkilatı Azərbaycan Respublikasında və/və ya beynəlxalq maliyyə əməliyyatlarında qəbul edilən olmalıdır. Satınalan təşkilat etibarlı hesab edilməyən bank qarantiyaları qəbul etməmək hüququnu özündə saxlayır.

Əgər satınalma müsabiqəsində iştirak etmək istəyən şəxslər digər növ təminat (akkreditiv, qiymətli kağızlar, satınalan təşkilatın müsabiqəyə dəvət sənədlərində göstərilmiş xüsusi hesabına pul vəsaitinin köçürülməsi, depozitlər və digər maliyyə aktivləri) təqdim etmək istədikdə təminat növünün mümkünlüyü barədə elanda göstərilmiş əlaqələndirici şəxsə sorğu verməlidir.

***IV. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu əldə etmək istəyənlər əlaqələndirici şəxsə iştirak haqqının ödənilməsi barədə bank sənədini və müraciət məktubunu (elektron və ya çap) təqdim etməklə əsas şərtlər toplusunu (elektron və ya çap) Azərbaycan, ingilis və ya rus dilində əldə edə bilərlər.
* Qeyd olunmuş sənədlər elanın I paraqrafında göstərilmiş tarixədək iş günü ərazində saat 09:00-dan 17:30-a kimi təqdim və qəbul edilə bilər.
* İştirak haqqı hər Lot üçün 236 manat (ƏDV ilə) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyutadır və Satınalan təşkilatın aşağıdakı bank hesabına ödənilməlidir:

Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***V. Təminatlar:***

* Müsabiqə təklifinin təminatı iddiaçının müsabiqə təklifinin ümumi qiymətinin 1 (bir) %-i məbləğindən az olmamaq şərtilə təminat tələb olunur.
* Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olacaqdır.
* Müqavilənin yerinə yetirilməsi təminatı satınalma müqaviləsinin qiymətinin 5 (beş) %-i məbləğində tələb olunacaqdır.

***VI. Hazırkı satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 50%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.***

***VII. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 120 təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***VIII. Satınalan təşkilatın ünvanı:***

AZ1033, Bakı şəhəri, Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105.
SOCAR, Kompleks Qazma İşləri Tresti
**Əlaqələndirici şəxs:**
Hüseynov Anar.
Maddi-texniki təchizat və marketinq şöbəsi, şöbə rəisinin müavini
Telefon: (+99 412) 521-31-59
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***IX. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***X. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 05.06.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:00-da elanın VIII qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***XI. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**



*Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin (SOCAR)*

## Kompleks Qazma İşləri Tresti

**CAS-WBK-NT 80 markalı (80 tonluq) avtomobil tərəzisinin ehtiyat hissələrinə olan tələbatını təmin etmək məqsədi ilə açıq satınalma müsabiqəsi (26039-19) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***

* Müsabiqədə iştirak haqqında müraciət;
* İştirak haqqının ödənilməsi barədə bank sənədi;
* Müsabiqə təklifi.

Müsabiqədə iştirak haqqında müraciət (imzalanmış və möhürlənmiş) və iştirak haqqının ödənilməsi barədə bank sənədi ən geci 29.05.2019-cu il, Bakı vaxtı ilə saat 17:30-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanda göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxsinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Müsabiqə təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***

* Müsabiqə təklifi bir əsli və iki surəti olmaqla 05.06.2019-cu il, Bakı vaxtı ilə saat 10:30-a qədər Satınalan təşkilata təqdim olunmalıdır.
* Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***

* Müsabiqənin əsas şərtlər toplusunu Azərbaycan və ya ingilis dilində əldə etmək istəyənlər 59 manat (ƏDV daxil) və ya ekvivalent məbləğdə sərbəst dönərli valyuta ilə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında əlaqələndirici şəxsdən elanın I qrafasında göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
Azərbaycan Beynəlxalq Bankı ASC,
AZ38IBAZ38010019449306332120,
VÖEN: 9900003871,
Müştəri Xidməti Departamenti,
Kod: 805250,
Müxbir hesab: AZ03NABZ01350100000000002944,
VÖEN: 9900001881,
SWIFT BIK: İBAZAZ2X.

İŞTİRAK HAQQI HEÇ BİR HALDA GERİ QAYTARILMIR.

***IV. Müqavilənin icra müddəti:***

* Satınalma müqaviləsinin 60 (altmış) təqvim günü ərzində yerinə yetirilməsi tələb olunur.

***V. Hazırki satınalma əməliyyatı üzrə Satınalan təşkilat tərəfindən ən çoxu 50%-ə qədər avans ödənişinin yerinə yetirilməsi nəzərdə tutulur.***

***VI. Satınalan təşkilatın ünvanı:***

AZ1033, Bakı şəhəri, N.Nərimanov rayonu, Ağa Nemətulla küçəsi, 105
Kompleks Qazma İşləri Tresti
**Əlaqələndirici şəxs:**
Hüseynov Anar
Kompleks Qazma İşləri Tresti, Maddi-texniki təchizat və marketinq şöbəsinin rəis müavini
Telefon: (+99 412) 521-31-59, (+99 450) 842-60-39
Faks: (+99 412) 521-31-59
Anares.Huseynov@socar.az

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***

www.socar.az (http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/procurement-notices)

***VIII. Müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***

Zərflərin açılışı 05.06.2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 11:40-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***

Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı internet linkdən əldə edilə biləcək:
http://www.socar.az/socar/az/company/procurement-supply-chain-management/contract-awards

**Kompleks Qazma İşləri Trestinin Satınalmalar qrupu**

# Ramazan ayında necə qidalanaq?



**Ramazan ayı yaxınlaşarkən gündəlik vərdişlərimiz, xüsusən də qidalanma və yuxu rejimimiz dəyişir, fiziki və zehni fəaliyyət səviyyələrimiz fərqlənməyə başlayır. 30 gün boyunca sağlam və rahat bir oruc tutmaq üçün nələrə diqqət etməliyik?**

### Oruc tutmaq arıqlamaq üçün vasitə deyil, pəhriz olaraq yanaşmayın

Uzun müddətli aclıq və susuzluq orqanizmimizin gündüz istehlak edilən qida maddələrindən ən effektiv şəkildə istifadə etməsi üçün metabolizmamızı yavaşladır. Ramazana uyğunlaşan metabolizmamız artıq istehlak etdiyimiz qidalardan artıq enerji istifadə edə bilməz və sağlam olmayan çəki artımı meydana gələ bilər.

### İftarda həddindən artıq və sürətli yemək aclığa səbəb olur

Uzun müddətli aclıqdan sonra iftarda tez bir şəkildə və çox miqdarda qida istehlakı çox yayılmış bir vərdişdir. Yediklərimizin müxtəlifliyi qədər porsiyalar da vacibdir. Kiçik porsiyalar bu növlərin üstünlüklərinə görə hazırlanmalıdır və həddindən artıq yeyilməməyə diqqət göstərilməlidir.

Əks təqdirdə, qəflətən artan qan şəkərini idarə etmək üçün orqanizmin istehsal etdiyi çox miqdarda insulin, sonrakı saatlarda qan şəkərini azalda bilər və halsızlıq və erkən aclıq hissi ilə müşayiət edilə bilər. Lakin səhər yeməyi zamanı yeyilən qidalar və şorba ilə orucu açdıqdan 10-15 dəqiqə sonra əsas yeməyə keçmək daha sağlamdır. Bəslənmənin bu forması doyma hissi yaratmaqla yanaşı, uzun müddətli aclıqdan sonra həzm sisteminin artıq yüklənməsinin qarşısını alır.

### Çox yağlı və karbohidratlı yeməklər həzmi çətinləşdirir

Bol yağlı və çox karbohidratlı yemək gün boyu ac qalmış və metabolizması yavaşlamış bir orqanizm tərəfindən asanlıqla həzm oluna bilməz. Bədən enerjisini sərf edə bilməz və enerji artığını yağa çevirər. Bu səbəbdən, həzm sisteminizi həddindən artıq yağlı yemək ilə yükləməyin.

### Sadəcə bir çeşidlə qidalanmaq orqanizm üçün kifayət deyil

İftar saatlarında aclığımızı boğmaq üçün bir şey yedikdən sonra yatmağa getmək, imsak vaxtı bir stəkan su içib yatmaq bir çox insanın səhvidir.

Gecənin erkən saatlarında yemək və yatmaq və ya ümumiyyətlə, imsak etməmək qan şəkərinin düşməsinə və maye çatışmazlığına səbəb ola bilər. Bədənin ehtiyacı olan karbohidratların, vitaminlərin və mineralların qarşılanması üçün iftar və imsak arası balanslaşdırılmış bir şəkildə istehlak edilməlidir.

### Ramazanda gündəlik maye qəbulu vacibdir

Yetkin insanın Ramazanda iftardan başlayaraq gündəlik maye ehtiyaclarını qarşılaması vacibdir. Xüsusilə, su, təzə sıxılmış meyvə şirələri və ya ayran içmək çox vacibdir.

### Sürətlə yeməyin...

Yediklərimizi yavaşca yemək, loxmalarımızı yaxşıca çeynədikdən sonra udmaq, iftardan 1-2 saat sonra yürüşə çıxmaq yediklərinizi həzm etməyə kömək edəcək və ürək-damar sağlamlığınız üçün faydalı olacaq.

### İdman və oruc həddindən artıq təlim olmadan birlikdə həyata keçirilə bilər

Davamlı idmanla məşğul olanlar intensivliyi normal vaxtlarla müqayisədə üçdə biri qədər azaltmalıdırlar. Bundan əlavə, idmançılar yüksək intensivli təlim və ya yarışdan əvvəl ekspert nəzarəti altında hazırlanmış bir pəhriz planı tətbiq etməlidirlər.

Digər tərəfdən, işləri səbəbi ilə çox istiyə məruz qalanlar və ya oruc tutmaq istəyən peşəkar idmançılar gündəlik fəaliyyətlərini heç bir problem olmadan həyata keçirmək üçün sağlam bəslənməni dəstəkləmək üçün xüsusi pəhrizdən faydalana bilərlər. Bu vəziyyətdə bir mütəxəssisdən dəstək almaq ən yaxşısıdır.

### Diabet xəstələri üçün qidalanma həyati önəm kəsb edir, həkiminizə müraciət etmədən oruc tutmayın

Diabet xəstələri tez-tez və az-az qidalanaraq, protein tərkibi yüksək və kalori nisbəti aşağı olan pəhrizlə sağlam ola bilər. Diabetik xəstələr uzun müddət ac qaldıqda, hipoqlikemiya adlanan aşağı qan təzyiqi səviyyəsi ilə əlaqədar problemlər yaşayırlar.

Sadəcə pəhriz və dərmanlarla nəzarət edilə bilən diabetli xəstələr də oruc tuta bilər. Lakin insulindən istifadə edən diabetik xəstələrin oruc tutması ciddi problemlərə səbəb ola bilər.

Xüsusilə, uzun və çox isti günlərə təsadüf edən aylarda diabet, ürək və təzyiq xəstələri və hamilə qadınlar oruc tutmaqda israr etməməli və vəziyyəti həkimlə müzakirə etməlidirlər.

**Röya Rasimqızı,**
***"İki sahil"***

# AXCP-çilərin "qul psixologiyası" və "siyasi mübarizə" metodu



**Mənsumə Babayeva**

Son zamanlar ölkəmiz Prezident İlham Əliyevin uğurlu və məqsədyönlü siyasəti nəticəsində hər bir sahədə yüksək inkişafa nail olub. Təkcə onu qeyd etmək kifayətdir ki, son bir neçə ayda Prezident İlham Əliyev tərəfindən əhalinin rifahının yaxşılaşdırılması istiqamətində bir çox Fərman və sərəncamlar imzalanıb. Bu mühüm dövlət sənədləri bir daha sübut edir ki, ölkəmiz inkişaf etdikcə və onun iqtisadi potensialı yüksəldikcə əhalinin sosial vəziyyəti daha da yaxşılaşır. Fikir versək görərik ki, bu gün bir çox inkişaf etmiş ölkələrdə belə əhalinin problemlərin həllinə bu dərəcədə diqqət yetirilmir. Məhz bunların ardınca bu günlərdə Prezident İlham Əliyevin tapşırığına əsasən əhalinin sosial rifahının daha da gücləndirilməsi məqsədilə Azərbaycanda təbii qazın istifadə limiti artırıldı. Bu da vətəndaşlarımız tərəfindən böyük sevinc hissi ilə qarşılandı.

Şübhəsiz, Azərbaycanın bu cür uğurlu inkişafını gözü götürməyən dairələr az deyil. İstər daxildə, istərsə də xaricdə ayrı-ayrı qüvvələrin Azərbaycan hakimiyyətinə qarşı apardıqları çirkin oyunların arxasında dövlətçiliyimizi zəiflətmək dayanır. Sözsüz ki, bu cür ünsürlərin yeganə məqsədi ölkədəki inkişafa, dövlətin, hakimiyyətin vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi, ümumiyyətlə, Prezidentin dövlət, xalq üçün atdığı addımlara kölgə salmaqdır. Bu dəfə də dağıdıcılar yenidən sosial şəbəkələr üzərindən özlərini "biz də varıq, iş görürük" kimi göstərmək istəyirlər.

Hər zaman olduğu kimi, bu dəfə də xalqın xeyrinə olan bir qərarı ləkələmək üçün AXCP sədri Əli Kərimli öz "Facebook" səhifəsində status yazdı. Əli Kərimlinin Azərbaycan xalqının və dövlətinin imicinə zərbə vurmaq niyyətləri başqa mövzunun predmeti olduğundan onun bu dəfəki statusu ilə bağlı digər bir məqama diqqət çəkmək istəyirik. Belə ki, Əli Kərimli qaz limiti ilə bağlı status yazdıqdan dərhal sonra təxminən 1 saat ərzində Gözəl Bayramlı, Emil Səlimov, Emin Maniyev, Səadət Cahangir, Fuad Qəhrəmanlı, Nurəddin Məmmədli və başqa profil və səhifələrin adminləri eyni məzmunda statuslar yazdılar, eyni tezisləri təkrarladılar. Bu isə bir daha onu sübut etdi ki, Əli Kərimli AXCP-də bir trol şəbəkəsi formalaşdırıb. Sirr deyil ki, trol göstərişlə yalnız şərh yazana yox, həm də status yazana deyilir. Bu mənada komanda ilə qısa zaman kəsiyində oxşar məzmunlu statuslar yazılması trol fəaliyyətinin ən qabarıq nümunəsi olduğundan Əli Kərimlinin və cəbhəçilərin fəaliyyətinin bir daha trolluqdan ibarət olması sübut olunur. Elə bu məqamda vaxtilə Əli Kərimlinin müavini olmuş Razi Nurullayevin sözləri yada düşür. R.Nurullayev deyirdi ki, Əli Kərimli cəbhəçi funksionerlərin hər birinə 100 saxta profil yaratmağı tapşırmışdı. Budur Əli Kərimlinin və cəbhəçilərin trolluq fəaliyyəti, AXCP funksionerlərinin və üzvlərinin qul psixologiyası, onların "siyasi mübarizə metodu".

# "Məhsul"da baş girələyən pul düşkünləri, tüfeyli "demokratlar"...

**"Milli Şura"nın mayın 5-nə təyin etdiyi mitinqlə bağlı müraciətinə mənfi cavab verilməsi başda AXCP sədri Əli Kərimli olmaqla radikalları məyus edib.**

"Milli Şura"nın Yasamal rayonu, İdman Sağlamlıq Kompleksinin stadionunda (keçmiş "Məhsul") mitinq keçirməsinə razılıq verilməyib.

Bu meymun xislətlilər yenə də köhnə adətlərini təkrarlamaq istəyirlər. Bir zamanlar Ukrayna müxalifətini yamsılayaraq "narıncı" köynəklərə bürünən, Gürcüstanın "qızıl gül"ündən ilham alan Əli Kərimli çetesi daha böyük iştaha gələrək indi də başqa havalara oynamaq istəyirlər.

Əli Kərimli yenə də "Milli Şura"nın kağız üzərində sədri Cəmil Həsənlinin saqqızını oğurlayaraq onu "Qələbə"yə həvəsləndirir. Əslində bütün sarsaq ideyalarını "Milli Şura" adı ilə pərdələməyə çalışan Əli Kərimli "saman altından su yeritmək" taktikasına sadiq qalaraq yenə də özünü sığortalamağa çalışır.

İqtidarda olduqları zamanlarda Azərbaycan üçün yaratdığı problemləri unudur. AXC-Müsavat hakimiyyəti dövründə iqtidarsızların Azərbaycanı hansı vəziyyətə saldıqları yaxın tariximizdə baş verdiyi üçün unudulmayıb. Yəni iqtidarda olduqları zamanlarda, özbaşınalıqların adi hala çevrildiyi AXC-Müsavat hakimiyyəti dövründə də Azərbaycanda yaranan xaos daha mürəkkəb idi. O dövrdə etimadı doğrultmadıqları üçün həmkarları ilə birlikdə xalq tərəfindən boykot edilən əlikərimlilər tarixi rəzilliklərindən nəticə çıxarmaq istəmirlər. İndi də kreslolarının həsrətini çəkən digərləri kimi, Əli Kərimlinin də yuxusunu qarışdıran vəzifə hərisliyidir. Bu gün də "xalqın maraqları"ndan çıxış etdiklərini iddia edən" əlikərimlilər hələ də xalqdan çox uzaq düşdüklərini anlamırlar.

Əli Kərimli, Cəmil Həsənli, Müsavat başqanı Arif Hacılı hakimiyyətə gəlmək istəklərini gizlətmirlər. "Xalq" desələr də, xalqın maraqlarını heçə sayanların, şəxsi və korporativ mənafelərini hər şeydən üstün tutanların, "Məhsul"da vaxt keçirib sosial tüfeyliliklə məşğul olmağı özlərinə peşə seçənlərin siyasi korluqları onlara əsl həqiqəti görməyə mane olur. Unudurlar ki, bu gün bütün Azərbaycan xalqı ölkə iqtisadiyyatını möhkəmləndirməklə əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsi naminə uğurlu siyasətini davam etdirən Prezident İlham Əliyevin ətrafında sıx birləşib. Belə ki, Əli Kərimlinin böhtanlardan ibarət "məkrli tezislərinə" heç kimin ehtiyacı yoxdur. Xaricdən



aldıqları qrantları bölməkdə çətinlik çəkən Əli Kərimli ilə çetesi arasında davam edən dollar davasını da hər kəs görür. Daim sosial baza baxımından kasadlıq çəkən radikalları məyus edən də ölkədə yaranan xalq-iqtidar birliyinin sarsılmazlığıdır.

Sosial şəbəkələrdən söyüş tribunası kimi istifadə edən düşərgə mənsubları arasında yaranan gərginliyin əsas səbəbi də daha çox qrantlara sahib olmaq istəyidir.

Azərbaycan xalqının iradəsi, seçimi, etimadı sayəsində Prezident kimi ölkəmizi dünyada tanıdan cənab İlham Əliyevin çoxillik idarəetmə təcrübəsi ilə müqayisədə cılızlıqlarını etiraf etməyənlər xarici havadarlarının formalaşdırdıqları "beşinci kolon" vasitəsilə riyakar planlarını gerçəkləşdirməyə çalışsalar da, yenə də istəklərinə nail ola bilməyəcəklər. Radikalların çağırışlarına əhəmiyyət verməyən ölkə əhalisi artıq onları zavallı ünsürlər hesab edir. Əsl həqiqət budur ki, xalq Prezidentini dəstəkləyir, dövlət başçısı da xalqa inanır, güvənir və ondan güc alır.

Ölkədə daim qorunan siyasi sabitliyi yüksək dəyərləndirən xalq öz yolunu çoxdan müəyyənləşdirib və cənab İlham Əliyevin ətrafında sıx birləşib. Bu birliyə qısqanclıqla baxan, deməyə sözləri olmadıqları üçün arada bir "mitinq şousu" düzəltməklə havadarlarından pul qoparmağa çalışanlar "biz də varıq" görüntüsü yaratmaq istəyirlər.

Amma necə deyərlər, keçmiş ola. Azərbaycan xalqı üçün Əli Kərimli kitabı çoxdan bağlanıb. Zaman arxivinin küncündə toz-torpaq içərisindədir.

**Xuraman İsmayılqızı,**
***"İki sahil"***



# Ara qarışıb, məzhəb itib...

**Nilufər Mustafaqızı**

Uzun zamandır yaşadıqları iqtisadi, siyasi problemlərə görə artıq dünyadan təcrid mərhələsinə qədəm qoyan Ermənistanda daxili çəkişmələr ara vermir. Tarixin tozlu səhifələrinə atılmış məsələləri gündəmə təkrar gətirərək açılmamış problemlərin həllini axtarmaq ölkədə yeni dəbə çevrilib.

2008-ci ilin 1 mart qırğınlarından sonra indi də erməni gündəmini məşğul edən mövzu 1999-cu ilin 27 oktyabrında parlamentdə törədilən terror hadisəsi ilə bağlı cinayət işinin qaldırılmasıdır. Ermənistan parlamentinin deputatı Edmon Manukyan Milli Şuranın iclasındakı çıxışında bildirib ki, müxtəlif səbəblərdən 20 ildir üstü açılmayan 27 oktyabr hadisələri yenidən araşdırılmalıdır. "Bu il 27 oktyabr hadisələrinin 20 illiyidir. O dəhşətli terror hadisəsini törədənlər üzə çıxarılmalıdır. Mənim yaxşı yadımdadır. 2002-ci ildə deputat Manvel Canqiryan bu məsələyə toxunanda ölkənin 2-ci prezidenti Robert Koçaryan ümumiyyətlə, 27-oktyabr hadisələri ilə bağlı müzakirəni gündəmə çıxarmağa icazə vermədi. Mən hesab edirəm ki, həmin dəhşətli cinayətin qaranlıq məqamlarına aydınlıq gəlməlidir. Bu qaranlıq qalan hadisənin təşkilatçıları xalqa məlum olmalıdır". Aralarında parlamentin spikeri Karen Dəmirçyan və müdafiə naziri Vazgen Sarkisyan da olduğu 9 nəfərin güllələnərək qətlə yetirildiyi olayın E. Manukyan tərəfindən yenidən qabardılması isə Ermənistan parlamentinin digər üzvlərinin də müsbət rəyini qazanıb.

Adıçəkilən hadisənin baş verdiyi zaman Robert Köçəryanın baş nazir, Serj Sarkisyanın isə təhlükəsizlik xidmətinin rəhbəri kimi çalışdığını xatırladan E. Manukyan 1999-cu il hadisələrinin təşkilatçıları kimi bu iki nəfəri görür. "Onlar Karen Dəmirçyan və Vazqen Sarkisyanı siyasi səhnədən uzaqlaşdırmasaydılar, ölkədə "Qarabağ klanı" nın hakimiyyəti zəbt etməsi qeyri-mümkün olardı."

Ermənistanda bir cinayət işi ətraflı araşdırılmadan üstü bağlanılır bir də yeni hadisələr yaşanana qədər xitam verilir. Bu da bir daha təsdiqləyir ki, heç bir siyasi təməli olmadan qurulan və başıboş kəslər tərəfindən idarə olunan ölkə ömür boyu bu cür rəzilliklərə boyun əyməli olacaq. 1999-cu il hadisələri ilə yanaşı, 2008-ci ilin 1 mart hadisəsi də erməni gündəmini daim ağuşuna alan məsələdir. Belə ki, 1 mart olayları ilə bağlı Ermənistanda çoxsaylı həbslər davam edir. Haqqında cinayət işi açılan Ermənistanın sabiq istintaq idarəsinin rəisi, general-mayor Miqran Poqosyan isə Rusiyada həbs olunub. Onun həbsi ilə bağlı məlumat yayan təhlükəsizlik xidmətinin rəisi Artur Vaneçyan ölkəni tərk edib qaçan generalların hamısının, o cümlədən keçmiş müdafiə naziri, general-polkovnik Mikail Arutunyanın da tapılacağını deyib.

Bütün bu hadisələrin qarşılığında baş nazir Nikol Paşinyan ölkənin vəziyyətini yaxşılaşdırmaq üçün tədbirlər görməkdənsə, başı oliqarxlarla çəkişməyə qarışıb. Siyasi çəkişmələrin miqyasının genişləndiyi bir dövrdə məmurlar arasındakı ziddiyyətlərin gündən-günə alovlanması narazılıq və gərginliyi daha da artırır.

İrəvanın ən böyük ticarət mərkəzi hesab olunan və Qaqik Sarukyana məxsus "Arınc-Mol"da aparılan süni vergi yoxlamaları sahibkarların əsəblərini tarıma çəkib. Normal şəraitdə işləyə bilmədiklərindən şikayətlənən işçilər Paşinyanın seçkiləri qazanmaq üçün verdiyi vədləri çeynədiyini dilə gətirərək ölkədə işsizlər ordusunun yarandığını etiraf edirlər.

Paşinyanın rəhbərliyi əlinə aldığı bu 1 ildə nə qədər mağazalar fəaliyyətini dayandırıb. "Bu gün bu ticarət mərkəzində 520 mağazadan demək olar yarısı işləmir. Görün nə qədər ailənin ac qalma təhlükəsi var. Başqa heç yerdə iş tapmaq mümkün deyil", - deyə etirazçılar narazılıq edirlər.

"Arınc-Mol" ticarət mərkəzinin Abovyan şəhərindəki filialında da eyni səbəblərdən etirazlar davam edir. Nikol Paşinyan və Qaqik Sarukyan çəkişmələrinin qurbanı olan sadə insanları isə sadəcə öz taleləri maraqlandırır. Maraqlısı isə bundadır ki, bu insanların sabahı, gələcəyi özlərindən başqa heç kimə maraqlı deyil.

# İctimai nəqliyyatda qəzaların qarşısını necə almalı?

## SÜRÜCÜ MƏSULİYYƏTSİZLİYİNİN YARATDIĞI TƏHLÜKƏLƏR

Bu gün ictimai nəqliyyatı idarə edən sürücülərin nizam-intizamı məsələsi cəmiyyətdə ən çox müzakirə olunan mövzulardan biridir. Heç də təsadüfi deyil ki, müasir şəraitdə sürücü ehtiyatsızlığı ucbatından baş verən qəzaların sayı da kifayət qədərdir.

**Nəqliyyat məsələləri üzrə ekspert Elməddin Muradlı problemlə bağlı "İki sahil"ə açıqlamasında bildirdi ki,** son vaxtlar baş verən qəzalara nəzər saldıqda çoxunun əsasında müxtəlif səbəblərin dayandığını açıq-aşkar görmək olar. Bunlardan birincisi məhz qeyri-peşəkarlıqdır: "İctimai nəqliyyatı idarə edən sürücülər müxtəlif təlim, təcrübə proqramlarında, sınaq yürüşlərində iştirak etmədən birbaşa sükan arxasına əyləşirlər. Bu zaman avtobusda olan insanların həyatı nə dərəcədə mühafizə olunur? Sualın cavabı müəmmalıdır. Sürücülər işinə ciddi yanaşmalı, ən əsası isə məsuliyyətlərini dərk etməlidirlər. Digər bir mühüm məqam isə sürücülərə istirahət üçün vaxtın müəyyənləşdirilməsidir. Normalda bir avtobusun 3 sürücüsü olmalıdır. Lakin çox vaxt sürücülər səhər saat 6-dan gecə 12-yə kimi işləyirlər. Bu, doğru deyil. Onların sükan arxasında yorğunluğu qəza riskinin bilavasitə artmasına gətirib çıxarır. Bu yorğunluq, yuxusuzluq onu psixoloji cəhətdən gərginləşdirir. Belə olduqda da hirsli və aqressiv birinin sərnişinlərlə, digər sürücü yoldaşlarla nəzakətlə və etik qaydalar çərçivəsində davranmasını necə gözləmək olar ?"

Ekspert sürücü məsuliyyətsizliyinin əsas nümunəsi olan sükan arxasında telefonla danışmaq və ya siqaret çəkərək sərnişinlərin həm rahatlığına , həm də sağlamlığına zərər vurmasından da bəhs etdi: " Fikrimcə, spirtli içki, narkotik vasitə aludəçiləri, ümumiyyətlə, sükan arxasında əyləşməməlidir. Onlar ictimai nəqliyyat vasitəsini isə heç bir halda idarə etməməlidirlər. Bu cür maddələrin qəbulu zamanı həmin sürücü təbii ki, özündə olmayacaq, belə olan halda da onun gözünə heç kim və heç nə görünmür. Eləcə də mobil telefonla danışmaq olsun. Sürücü nəqliyyat vasitəsini idarə edərkən diqqətini paylaşmaqda çətinlik çəkir: yolmu, digər avtomobillərmi, piyadamı, yoxsa avtobusdakı sərnişinlərmi? Çox nadir hallarda həmin vəziyyətdə olan sürücülər bütün bunlara eyni diqqəti yetirə bilir. Sonda isə müxtəlif səviyyəli qəzaların baş verməsi qaçılmaz hal alır. İctimai nəqliyyat vasitələrinin sürücüləri bunu unutmamalıdırlar ki, onlar öz canları ilə bərabər, onlarla sərnişinin də həyatına cavabdehdirlər."

E. Muradlı bir çox sərnişinlərin xüsusi şikayətçi olduqları bir məqama da toxundu: "Avtobus sürücülərinin müəyyən limiti olur ki, həmin vaxt çərçivəsində mövcud hərəkət tra-



yektoriyasını başa vurmalıdırlar. Bəzən sərnişinin minib-düşməsi, tıxac, hər hansı fövqəladə hallar zamanı sürücülərdə müəyyən ləngimələr olur. Nəticədə o, zaman kəsirini qapatmaq üçün sürət həddini aşma, qırmızı işıqda keçmə, qanunsuz ötmə hallarına yol verir. Bu isə təhlükə baxımından sərnişinlərdə haqlı olaraq narazılıq yaradır. Yaxud da daha çox pul qazanmaq üçün avtobusun tutumundan artıq sərnişinlə doldurulması və sıxlıqdan hətta qapının belə bağlanmaması. Bu cür də avtobusun idarə olunması absurddur. Bu cür halların qarşısı alınmalı, bu məsələ kökündən həll olunmalıdır. Dəfələrlə deyilməsinə baxmayaraq, sürücülər hələ də bu "ənənələrdən" imtina edə bilmirlər."

Həmsöhbətimiz avtobus sürücülərinin tıxac yaratması məsələsinə də toxundu: " Sürücülər avtobusları dayanacaqdan kənarda saxlayaraq, digər sürücülərin hərəkətinə mane olur, tıxac yaradırlar. Nəqliyyat axınının sürətini ləngidirlər. Nəticədə digər sürücülər üçün də çətin vəziyyət yaranır. Buna görə də avtobus sürücüləri dayanma qaydalarına riayət etməlidirlər. Çünki avtobus sərnişinlərinin minib-düşməsi müəyyən zaman aparır. Digər nəqliyyat vasitələrinin hərəkətinə mane olmamaq üçün avtobus sürücüləri öz dayanacaq nöqtələrində saxlamalıdırlar."

Elməddin Muradlı onu da əlavə etdi ki, bu cür məsuliyyətsizliklər əvvəl-axır qəza ilə nəticələnir: "Bu dəfə heç nə olmadı deyib, həmin təhlükəli halları təkrarlamaq yolverilməzdir. Hər şeydən və hər kəsdən öncə sürücülər özləri öz məsuliyyətlərini dərk etmirlər. Problemin həllinə məhz bu nöqtədən başlamaq lazımdır. Hər kəsin müəyyən peşə öhdəliyi var. Sürücülər öz peşə öhdəliklərini və vəzifə borclarını dərk etməyi bacarmalıdırlar. Peşəyə hörmət ən az peşə borcunun yerinə yetirilməsi qədər vacibdir. Fikrimcə, sürücülər məsuliyyətlərinin bu məqamına xüsusi diqqət etsələr daha yaxşı olar. Bu həm də peşəyə sevgi və hörmətin də göstəricisidir."

**Yaqut Ağaşahqızı,**
***"İki sahil"***

# Dağıdıcı müxalifətin xəyanət ssenariləri



Regionun lideri statusunu qazanmış Azərbaycan dövləti artıq beynəlxalq hüququn güclü, nüfuzlu müstəqil subyekti kimi çıxış edir. Demokratik dəyərləri kifayət qədər möhkəm özüllər üzərində inkişaf etdirən ölkəmiz sosial-iqtisadi sahədə də dinamik tərəqqi dövrünü yaşayır. Siyasi-iqtisadi, sosial-mədəni və geosiyasi sahələr üzrə davam edən inkişafın biri-birini tamamlaması isə öz növbəsində ölkəmizi daha güclü, beynəlxalq miqyasda daha böyük nüfuz sahibi olan bir dövlətə çevirir.

Lakin ölkəmizin əldə etdiyi nailiyyətlər, qazandığı uğurlar, beynəlxalq hüquq müstəvisində istənilən məsələ üzrə milli maraqlarını qətiyyətlə müdafiə etməsi və bunun üçün lazımi gücün, qüdrətin sahibi olmasını həzm edə bilməyənlər də kifayət qədərdir. Bunların sırasında erməni lobbisi qədər canfəşanlıq göstərən daxildəki antimilli qüvvələrdir. Onlar daha çox hüquq müdafiəçisi, qeyri-hökumət təşkilatı, siyasi partiya adı altında fəaliyyət göstərirlər. Ən dəhşətlisi isə odur ki, bu antimilli ünsürlər Azərbaycan xalqına və dövlətinə hər zaman xəyanət etməyə hazırdırlar.

Bu qaragüruhçular ölkəmizdə daxili sabitliyi pozmağa yönəlik bir çox fəaliyyətlərin müəllifidirlər. Xüsusilə dağıdıcı müxalifətin anti-Azərbaycan şəbəkədən gələn göstərişlər əsasında fəaliyyətini genişləndirməsi onların hələ də xaricdən çirkli pullarla bəslənildiyini göstərir.

İndi görünən odur ki, radikal müxalifət yenidən Azərbaycanda növbəti faciələrin yaşanmasını, ölkənin ötən əsrin 90-cı illərinin anarxiya və xaos dövrünə sürüklənməsini istəyir. Bunun üçün qeyd edildiyi kimi, Azərbaycan əleyhinə çıxan ən müxtəlif xarici qüvvələrlə böyük məmnuniyyətlə işbirliyinə gedirlər. Məqsəd isə Azərbaycanda qarşıdurma yaratmağa nail olmaqla hakimiyyətə gəlmək, həmçinin qulluqlarında durduqları xaricdəki ağalarına ölkədə anarxiya yaradacaqlarına dair vədlər verib daha çox miqdarda pul qoparmaqdır.

Son günlərdə isə dağıdıcı müxalifət düşərgəsində belə absurd fikirlər də yer almağa başlayır ki, guya bir sıra ərəb ölkələrində yaşanan məlum hadisələr Azərbaycanda da təkrarlana bilər. Əslində, bunun mümkünsüzlüyü dağıdıcı müxalifətin özünə də yaxşı məlumdur. Çünki Azərbaycan demokratik islahatlarının əhatə dairəsinə və səmərəliliyinə görə, Avropa standartlarına çatıb. Təkcə bir faktı qeyd etmək kifayətdir ki, ölkəmizdə 54 siyasi partiya, 4500-dək mətbuat orqanı qeydiyyatdan keçib. 2500-dək ictimai təşkilat fəaliyyət göstərir. Müxalifətin dağıdıcı qanadı olan qondarma "Milli Şura" və AXCP durmadan ölkəmizə qarşı böhtan kampaniyasını genişləndirirlər. Onlar həyasızcasına iddia edirlər ki, guya ölkəmizdə siyasi azadlıqlar pozulur, demokratik dəyərlər tapdalanır.

İstər xarici anti-Azərbaycan dairələri, istərsə də daxildəki, "5-ci kolon" çalışır ki, Azərbaycan hər cür böhtanla beynəlxalq qınaq obyektinə çevrilsin, ictimai narazılıq artsın, ölkədə qarmaqarışıq bir vəziyyət yaransın. Bundan istifadə edən maraqlı çevrələr isə Azərbaycanda özlərinə gərəkli olan ssenariləri həyata keçirsinlər.

Hətta ölkəmizlə bağlı ən pis ssenari dağıdıcı müxalifətə hava və su kimi lazımdır. Uzunömürlü müxalifətçilik Əli Kərimlini və İsa Qəmbəri günbəgün zəiflədib siyasi gündəmdən silmək qorxusu altında saxlayır. Odur ki, onlar hər vəchlə güclənən Azərbaycanın əleyhinə formalaşacaq qüvvələrin önündə gedirlər.

**Elçin Zaman,**
***"İki sahil"***

# SOCAR-ın TENDERLƏRİ



## "Umid Babek Operating Company" Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialı

**Pedestal Kranların satınalınması məqsədi ilə Açıq Müsabiqə (PK - 001/2019) elan edir.**

***I. Müsabiqədə iştirak etmək üçün təqdim edilməli sənədlər:***
1) Müsabiqədə iştirak haqqında müraciət (forma əlavə olunur);
2) İştirak haqqının ödənilməsi barədə bank sənədi;
3) Texniki müsabiqə təklifi (müsabiqə təklifləri zərflərinin açıldığı tarixdən sonra ən azı 30 təqvim günü qüvvədə olmalıdır).

Müsabiqədə iştirak haqqında imzalanmış və möhürlənmiş müraciət ən geci 31 may 2019-cu il, Bakı vaxtı ilə saat 17:00-a qədər Azərbaycan və ya ingilis dilində Satınalan təşkilatın elanında göstərilmiş ünvanında təqdim olunmalıdır.

Tələb olunan sənədlərin surətləri (müsabiqə təklifi istisna olmaqla) Satınalan təşkilatın əlaqələndirici şəxslərinin elanda göstərilmiş elektron ünvanına göndərilə bilər. Belə halda sənədlərin əsli müsabiqə təkliflərinin təqdim edilməsinin son gününədək Satınalan təşkilata təqdim edilməlidir.

***II. Texniki təklifinin təqdim edilməsinin son tarixi və vaxtı:***
Müsabiqə təklifi 1 (bir) əsli və 2 (iki) surəti olmaqla 4 iyun 2019-cu il, Bakı vaxtı ilə saat 14:00-da Satınalan təşkilata təqdim olunmalıdır.
Göstərilən tarixdən və vaxtdan sonra təqdim olunan təklif zərfləri açılmadan geri qaytarılacaqdır.
Maliyyə təkliflərinin açılışı texniki qiymətləndirilmədən sonra keçiriləcəkdir.

***III. İştirak haqqı və əsas şərtlər toplusunun əldə edilməsi:***
Müsabiqənin əsas şərtlər toplusunu elektron və ya əslini Azərbaycan və ingilis dilində əldə etmək istəyənlər üçün 13 929.66 (11 804.80+18%) ( On üç min doqquz yüz iyirmi doqquz və altmış altı) manat və ya ekvivalent valyutada (ƏDV daxil), məbləğdə iştirak haqqını qeyd olunan hesaba ödədikdən sonra elektron və ya çap formasında Əlaqələndirici şəxslərdən elanın I bəndində göstərilmiş tarixədək həftənin istənilən iş günü saat 09:30-dan 17:30-a kimi ala bilərlər.

Hesab nömrəsi:
VOEN: 1503807961
Bank: ASC "Xalq" Bankının Baş filialı, VÖEN: 2000296061,
M/h: AZ24NABZ01350100000000067944, Kod: 501026, SWIFT: HAJCAZ 22
H/h: AZ65HAJCHCNAZN10000098111001 - AZN
H/h: AZ25HAJCHCNUSD10000098111002 - USD
H/h: AZ29HAJCHCNEUR10000098111003 - AVRO

İŞTİRAK HAQQI GERİ QAYTARILMIR.

UBOC tərəfindən ləğv edildiyi hallar istisna olmaqla

***IV. Təklifin təminatı:***
Avans ödənişin təminatının məbləği ən azı ödəniləcək avans məbləğinə bərabər olmalıdır.

***V. Müqavilənin icra müddəti:***
Satınalma müqaviləsinin icrasının 9 ay ərzində yerinə yetirilməsi tələb olunur.

***VI. Satınalan təşkilatın ünvanı:***
AZ 1029, Bakı, H.Əliyev prosp., 121, SOCAR Tower, 8-ci mərtəbəl. Əlaqələndirici şəxs:Ümüd Cəfərov
**Əlaqələndirici şəxsin vəzifəsi:** Satınalma üzrə mütəxəssisi
Tel: (+994 12) 521 15 54 (dax. 27369)
Mob: (+994 50) 558 0007
E-mail: tenders@socar-umid.com
**Əlaqələndirici şəxs:** Nurlan Cəbrayilov
**Əlaqələndirici şəxsin vəzifəsi:** Satınalma üzrə mütəxəssisi
Tel: (+994 12) 521 15 54 (dax. 27346)
Mob: (+994 50) 655 4545,
(+994 70) 658 4545
E-mail: tenders@socar-umid.com

***VII. Elanın, satınalma predmeti haqqında geniş məlumatın və əsas şərtlər toplusunun əldə edilməsi üçün müraciət formasının yerləşdirildiyi internet ünvan:***
www.socar.az; www.azerweb.com; www.ikisahil.az;

***VIII. Texniki müsabiqə təklif zərflərinin açılışı tarixi, vaxtı və yeri:***
Texniki zərflərin açılışı 4 iyun 2019-cu il tarixdə, Bakı vaxtı ilə saat 14:00-da elanın VI qrafasında göstərilmiş Satınalan təşkilatın ünvanında baş tutacaqdır.

***IX. Müsabiqənin nəticəsi haqqında məlumat:***
Müsabiqənin yekun nəticəsi haqqında məlumat aşağıdakı e-maildən əldə edilə biləcək: tenders@socar-umid.com

**"Umid Babek Operating Company" Əməliyyat Şirkətinin Azərbaycan Respublikasındakı filialının Satınalmalar qrupu**

# Bulud olmaq istəyirəm

MƏNSUR ŞEİR



...Bulud olmaq istəyirəm, bir az tutqun, bir az susqun, ürəyimdə diləyim var. Kövrəklikdə dağ çiçəyi, zəriflikdə gül ləçəyi rayihəli muradım var. Lal könlümün sükutuna haray salan, mürgüləyən duyğuları diksindirib oyandıran, dağ seli tək coşub-daşan bir arzum var: bulud olmaq istəyirəm!

Bulud olmaq istəyirəm. Dünyamızın məşəlini pünhan edən, yerlə göyün arasında rübənd olan, maviliyə topa-topa naxış salan pəmbə bulud. Al günəşin şəfəqləri işıq salsın, nur çiləsin cəmalıma. Minçaları əlvan dona, zər libasa bürünüm qoy. Bu işvədən, bu qəmzədən sevdalansın qoy asiman. Sevgisinin atəşindən qoy sinəmdə şimşək çaxsın, naxışlanan qövsi-qüzeh kəmərimi taxım belə. Bu coşqudan mehirlənən rüzgarların təmasından sığallanım, tumarlanım, xumarlanım; kövrəlib qoy, axım elə, axım belə. Yer üzünün sevgi dolu baxışından suya həsrət torpaqların cadar-cadar "naxış"ından bitab olum. Tab etməyim suya təşnə olanların hicran saçan o həsrətli baxışına. Qəhərlənim, qüssələnim, kədərimdən coşub daşım, dönüm leysan yağışına...

Bulud olmaq istəyirəm; dünyamızın həyat rəmzi yaşılına can bəxş edən, bərəkətə simvol olan gur damlalı, nur damlalı yağmurlara dönən bulud. Qoy ələnim yer üzündə bağrı yanıq çəmənlərə, düzənlərə, təşnə olan ormanlara, quraqlıqdan rəngi solan dağ döşündə yamaclara... Ülfətimdən otun, kolun bitsin qəmi, boynu bükük gül-çiçəyin solğun-solğun qönçələri pardaqlanıb ətir saçsın... Qoy çilənim bağça-bağın gülsün üzü, bərəkəti könül açsın... Aşıb daşsın tarlaların bəhər-barı, zəmilərin artsın varı.

İstəyirəm bulud olub sel gətirən, çay daşıran leysan kimi yağa biləm. Ağ işıqlı dünyamızın siyah rəngli yönlərini-viran olan yurdlardakı külə dönən ocaqların, can yaxılan, qanlar axan torpaqların, kir-pasını yuyub silim. Elə yağam od ələyən, alov saçan, canlar yaxan müharibə ocaqları sönər olsun. Qərib olub yurd-yuvasız səfil olan ellər geri dönər olsun; ocaq çatsın... Mərmilərin, güllələrin kül etdiyi torpaqlarda çiçək açsın.

Bulud olmaq istəyirəm. Ürəklərdə rişə atan ədavəti, qəzəb-kini, ömürlərə xallar salan qara günü, könüllərdə köynək olan ahı, ünü yuya bilmək istəyirəm. Yer üzünün paklığını, saflığını, xoş günlərin ağlığını duya bilmək istəyirəm

Bulud olmaq istəyirəm. Bu arzumun gerçəyinə umud olmaq istəyirəm!!!

# Ümid könül çırağıdır



Ümid dilək toxumudur. Ümid arzu rişəsidir; pöhrələyər, yaşıl-yaşıl budaqları şaxələnər, qönçə tutar, çiçək açar...

Muradın da, istəyin də söykək yeri, istinadı ümid olar. O, məlhəmdi ürəklərdə qövr eləyən qəm-kədərə, dər-ələmə! Açılmayan düyünlərə, düzəlməyən müşküllərə açardı o! Soyuq qəlbi isindirən, buz bağlayan duyğulara can bəxş edən qığılcımdı. Can evinin alovudur, atəşidir, közüdür o.

Ümid qəlbin ocağıdır!
Ümid könül çırağıdır!

Zülmət çökən ürəklərdə şəfəq saçar, nur çiləyər, arzu-dilək yollarına işıq olar. Fırtınalı, qasırğalı duyğulara mayakdır o. Arzu, istək hücrəsinə dirəkdir o, dayaqdır o. Könlümüzdə əlvan-əlvan qönçələyən neçə-neçə ümid yaşar; kövrəklikdə, təravətdə gül ləçəyi... Ümid də var, daşda bitən xoş ətrli dağ çiçəyi rayihəli...

Ayrılığın fərağına, nisgilinə, qübarına məlhəm olan ümidlər var içimizdə; Yurd ünvanlı, Vətən dadlı, Araz adlı... Əsir qalan, girov olan neçə-neçə yurd ünvanlı... Əli yalın, qolu bağlı, yolu daşlı, gözü yaşlı olsa belə, ana torpaq sevgimizdən yaşıl-yaşıl boy artmada, şaxələnib ucalmada.

Qəzəbindən, nifrətindən alov saçan ümidlər var könlümüzdə qaysaq tutmaz yara olan qara baxtlı Qarabağda od saçacaq... Yadellilər tapdağında inildəyən torpaqlara, xiffətindən ocaq daşı çat-çat olan obalara, oymaqlara, gül yerinə tikan bitən, cığırları koldan itən yamaclara, yaylaqlara yol açacaq... O ümidlər sinəmizdə çalın-çarpaz yara açan Xocalının intiqamın qiyamətə qoymayacaq... Xan oylağı Şuşamızda xarıbülbül solmayacaq... Oğuzların əmanəti yurd yerləri yad əllərdə qalmayacaq.

...Könlümüzdə inam, iman işığında havalanan ümidlər var "Cəngi" üstə köklənərək zəfər marşı çalacaqdır. Bu zəfərin səssədası Oğuz yurdu Zəngəzurun, Dərələyəz, İrəvanın, Göyçəmizin səmasına xoş müjdələr yayacaqdır...

...Ümid inam ocağıdır!
...Ümid könül çırağıdır!

**Adilə Səfərova,**
*Azərbaycanın Əməkdar mədəniyyət işçisi*

VAHİD AZƏRBAYCAN UĞRUNDA!

# iki sahil

Son səhifə

24

www.ikisahil.az / www.ikisahil.tv

GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

№ 80 (7335) / Cümə, 3 may 2019-cu il

# Göz yaşarmasının səbəbləri



**Göz yaşarması ciddi bir sıxıntı kimi qəbul olunmasa da, bəzən ciddi problemlərə səbəb ola bilər. Göz yaşı gözlərin yağlanması, göz içində və ətrafında xarici maddənin çıxarılması üçün çox vacibdir.**

Səbəbləri

### Allergiya

Göz allergiyası göz yaşarmasının ən məşhur səbəbidir. Polen, heyvan kepəyi, toz kimi cisimləri düşmən qəbul edən bədən buna reaksiya verir və histamin istehsal etməyə başlayır. Bu vəziyyətdə gözlərdə yaşarma, qaşınma və ya şişlik ola bilər.

### Dərmanlar

Ən vacib səbəblərdən biri də dərman qəbuludur. Göz yaşarmasına səbəb olan bəzi dərmanlar bunlardır:

- Epinefrin
- Xemoterapiya dərmanları
- Göz damcıları
- İnfeksiya

Hər hansı bir iltihablanma və infeksiya da göz sulanmasına səbəb ola bilər.

### Gözyaşı kanallarının tıxanması

Gözyaşı kanalları göz yaşı istehsal etmir, gözyaşlarını xaric edir. Gözyaşı normalda göz qapağının yaxınındakı burnun içindəki incə kanallar vasitəsilə xaric olunur.

### Gözyaşı kanallarının tam inkişaf etməməsi

Körpələrdə gözlərin yaşarmasının ən çox yayılmış səbəbi hələ tam inkişaf etməyən bu gözyaşı kanallarının bloklanmasıdır. Bir neçə ay ərzində bloklanmış gözyaşı kanalları avtomatik olaraq açılır.

### Digər ümumi səbəblər

- Qrip
- Göz yaşı istehsalının azalması
- Gözə düşən xarici cisimlər
- Göz kanallarının infeksiyaya yoluxması

### Göz yaşarmasının müalicəsi

### Göz damlası

Gözlərin nəmləndirilməsinə və daha az gözyaşı istehsalına imkan verir. Göz damlaları gündə 4 dəfə və hər dəfə 3 damla istifadə olunur.

### Antihistamindən istifadə etmək

Göz sulanması tez-tez allergik reaksiyalar nəticəsində baş verir. Antihistamin və ya allergiya həbləri allergiyaya səbəb olan göz xəstəliklərinə qarşı yüksək təsir göstərir. Yetkinlər hər 4-6 saatda 25-30 qr antihistamin qəbul etməlidirlər. Bəzi insanlarda bu preparatlar mədəyə zərər verə bilər. Belə hallarda dərmanlar süd və ya qida ilə qəbul olunmalıdır.

### Kontakt linzaları çıxarın

Göz sulanması dayanmırsa və kontakt linzadan istifadə edirsinizsə, linzalarınızı çıxarmağınız məsləhət görülür. Kontakt linzalar göz sulanmasını daha da gücləndirir və göz damcılarının təsirini ortadan qaldırır.

### Gözlərinizi təmiz və nəm bir parça ilə silin

Xarici bir maddə və ya tozun gözlərinizə düşdüyünü düşünürsünüzsə, gözlərinizi azca suya batırılmış nəm parça ilə silin. Əlinizdən və barmağınızdan istifadə etməyin, çünki bu gözlə təmasda olduqda bakteriyaların gözlərinizə yayılmasına səbəb ola bilər.

### İsti kompres tətbiq etmək

İsti kompres xarici maddələri gözdən çıxararaq gözyaşı kanallarını bloklayan toksinləri də aradan qaldırır. Sulanma nəticəsində yaranan qızartını aradan qaldırmağa da kömək edir. İsti su ilə nəmləndirildikdən sonra təxminən 15 dəqiqə gözə təmiz bir parça tutaraq isti kompreslər edilə bilər.

Həmçinin bu məqsədlə, gözlər mütəmadi olaraq təmiz su ilə təmizlənməlidir. Xüsusilə güneşli hava şəraitində UV şüalarından qorumaq üçün güneş eynəkləri istifadə edilməlidir. Bakterial və viral infeksiyaların qarşısını almaq üçün başqalarına aid göz damlası, kosmetik vasitələr və ya dəsmal istifadə edilməməlidir.

✍ **Röya Rasimqızı,**
***"İki sahil"***

# Bu kəndə 70 mindən çox turist səfər edib



Qusarın dəniz səviyyəsindən 1300 metr yüksəklikdə yerləşən Ləzə kəndinə son yeddi-səkkiz ildə 70 mindən çox turist səfər edib.

Milli.Az oxu.az-a istinadən xəbər verir ki, kənd Azərbaycanda ən çox xarici qonağın gəldiyi turizm məkanıdır.

Şəlalələr diyarı kimi tanınan kənddə 10-dan çox dağ şəlaləsi axır. Dekabr ayının sonlarından mart ayına qədər donan təbiət möcüzələrini hər il yüzlərlə turist izləməyə gəlir.

Qafqaz sıra dağlarının şimal-şərqində, dəniz səviyyəsindən 4 242 metr hündürlükdə, Şahdağ yüksəkliyinin ətəyində yerləşən kənddə 170 nəfərə yaxın əhali yaşayır. Cəmi 28 ev var. Əksər kənd sakinləri əkinçilik və maldarlıqla yanaşı, ev turizmi ilə məşğuldur. Kəndə gələn yerli və xarici qonaqlar müəyyən məbləğ ödəyərək kənddə gecələyir, milli mətbəx nümunələrindən də dadırlar.

Ləzəyə gəlmək istəyən turistlər üçün kənd sakinləri bələdçilər təklif edir. Dağlıq ərazilərdə çadır quraraq, aktiv istirahət etmək istəyənlər Ləzədə bu arzularını reallaşdıra bilərlər.

# 20 yaşlı futbolçu Boltun rekordunu qırdı



"Blakbörn"ün futbolçusu Tayler Meqloyr futbol tarixinin ən sürətli oyunçusu kimi qəbul edilib.

Milli.Az goal.az-a istinadən xəbər verir ki, 20 yaşlı futbolçu "Uiqan"la qarşılaşmada 1 saniyə ərzində 10,6 metr sürət yığıb. Bu göstərici bir müddət əvvəl Mbappenin göstərdiyi sürətdən çoxdur - 10,55.

Taylerin sürəti əfsanəvi yamaykalı atlet Useyn Boltun orta sürətini də üstələyir. Bolt 2009-cu ildə Berlində dünya rekordu müəyyənləşdirmişdi.

Həmin vaxt onun orta sürəti saniyədə 10,44 metr, maksimal sürəti isə saniyədə 12,42 metr olmuşdu.

# "Liverpul"la oyun vaxtı "Barselona"nın futbolçusunun evinə oğru girdi



"Barselona"nın "Liverpul"u 3-0 məğlub etdiyi 1 may gecəsində ispan cəbhəsində hər kəs qələbəni qeyd edərkən Artur Melonun evinə oğru girməsi xəbərini alıblar.

Milli.Az "Sinxua" agentliyinə istinadən xəbər verir ki, oğrular futbolçunun oyunda olmasından istifadə edərək evə daxil olublar. 22 yaşlı yarımmüdafiəçinin evinə 2 nəfər pəncərədən daxil olub. Onun qardaşını təhdid ediblər. Bahalı saatlar və digər qiymətli əşyalar oğurlayıb daxil olduqları pəncərədən çıxıblar.

Qeyd edək ki, Artur Melo katalonların ilk oyunçusu deyil ki, evinə oğru girib. Son aylarda Malkom, Jerar Pike və Jordi Alba eyni halla rastlaşıblar.

Təsisçi: SOCAR

Baş redaktor: Vüqar RƏHİMZADƏ

Baş redaktorun I müavini: İsmayıl HACIYEV

Bakı: Kapital Bankın 1 saylı Xətai filialı H/hesab
№AZ19AIIB380300194437 00306107
Kod № 200071
VÖEN: 2000157291

TELEFONLAR:
Qəbul otağı: 530-26-46, 430-87-97
Baş redaktorun I müavini: 530-26-36
FAX: 430-87-47
Mühasibatlıq: 430-87-27
e-mail: ikisahil@azdata.net

Ünvan: AZ1012 Bakı, H.Zərdabi prospekti-88

Qəzet "İKİ SAHİL"in kompyuter mərkəzində yığılır və "AZƏRBAYCAN" nəşriyyatında ofset üsulu ilə çap olunur.

Çapa imzalanıb: 03.05.2019-cu il saat 01:00
Qiyməti: 40 qəpik, Sayı: 8214
İndeks: 0151, Sifariş: 1465

Qəzetdə "AZƏRTAC", "OLAYLAR", "Azadİnform", "TREND", SİA, İnterFAX informasiya agentliklərinin məlumatlarından istifadə olunub.

Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.